

# HEYDƏR ƏLİYEV
## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

Çap üçün deyil

Çap üçün deyil

NİZAMİ CƏFƏROV
SAMİRƏ BEKTAŞİ
AYNURƏ İSMAYILOVA

# AZƏRBAYCAN DİLİ

# 10

*Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün*
*Azərbaycan dili (dövlət dili) fənni üzrə*

**DƏRSLİK**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

Çap üçün deyil

ŞƏRQ-QƏRB
BAKI 2017

# MÜNDƏRİCAT


Giriş ....................5
Layihə işi ....................6

1

## Dil və ünsiyyət

1. Dil ünsiyyət vasitəsidir ....................10
2. Dilim ....................16
3. Afrika inciləri ....................20
4. Eşitmədən yaradan bəstəkar ....................32
5. Yazının əmələ gəlməsi ....................38
6. Mətn ....................46

2

## Təbiət və biz

1. Qeyri-adi Səttar ....................54
2. Vardır ....................60
3. Zümrüd gözlü gözəllər... ....................66
4. Azərbaycan torpağı ....................74
5. Dənizdən böyük ....................78
6. Qartal ....................88

3

## İnsan və cəmiyyət

1. Mətn ....................94
2. Uşaq qalmaq istəyirəm… ....................96
3. Məni xalqımın dilində danışdır ....................102
4. Bir ana qucağında bir körpə aparırdı ....................106
5. Pəncərə ....................112
6. Bilmək ən böyük xəzinədir ....................118
7. Nobel mükafatı almış ilk amerikalı qadın ....................124
8. Millətin xeyirxah anası ....................130

4

## Vətən, torpaq, yurd...

1. "Coğrafi obyektlərin adları haqqında" Azərbaycan Respublikasının Qanunu ....................140
2. Mətn ....................146
3. Bakı kəndləri ....................152
4. Qoşa məzar ....................156
5. Şahablı qırğını ....................162
6. Çaytikanı ....................172
7. Toponimlər – dilimizin "tarix kitabı" ....................176
8. Şəki ....................182

Lüğət ....................190
İstifadə olunmuş ədəbiyyat ....................200


**Şərti işarələr:**

– Məzmun tapşırıqları

– Qrammatik sual və tapşırıqlar

– Lüğət üzərində iş

– Yazı

– Dil qaydaları

Çap üçün deyil

# GİRİŞ

Əziz şagirdlər!

Keçən il Azərbaycan dili dərsliyi vasitəsilə bir çox maraqlı hadisələri özündə əks etdirən mətnlərlə tanış olmuş, mətn üzərində iş aparmışsınız. Mətnlər üzərində apardığınız iş sizə həm məzmunla işləmək vərdişləri, həm də oxu bacarıqları aşılamışdır.

Eyni zamanda mətnlər vasitəsilə Azərbaycan dilinin qrammatik quruluşunu, orfoqrafiya və orfoepiya qaydalarını, lüğət tərkibini öyrənmişsiniz.

Builki Azərbaycan dili dərsliyi sizi maraqlı faktlarla, məzmunlu mətnlərlə tanış edəcək, ədəbi dilin norma və üslubları haqqında ilkin məlumat verəcəkdir.

Həmçinin müxtəlif üslublarda mətn hazırlamaq bacarıqlarına da yiyələnəcəksiniz.

Hər birinizin qarşısında duran ən vacib məsələ ana dilinin qrammatik quruluşunun zəruri xüsusiyyətlərini bilmək, şifahi və yazılı nitqinizdə onlardan düzgün istifadə etməkdir.

Bu il sizə maraqlı bir layihə üzərində də işləmək təklif olunur.

Sizə uğurlar arzu edirik.

Çap üçün deyil

Mətn üzərində iş aparmaq üçün bu sxemdən istifadə etmək məqsədəuyğundur.




Çap üçün deyil




Çap üçün deyil

1 DİL ÜNSİYYƏT VASİTƏSİDİR
2 DİLİM
3 AFRİKA İNCİLƏRİ
4 EŞİTMƏDƏN YARADAN BƏSTƏKAR
5 YAZININ ƏMƏLƏ GƏLMƏSİ
6 MƏTN

# Dil və ünsiyyət

Çap üçün deyil



İnsanlar təfəkkürü ifadə edən dil vasitəsilə düşünür, dil vasitəsilə bir-biri ilə əlaqə saxlayır və fikirlərini bir-birlərinə çatdırırlar. Bu o deməkdir ki, dil insanlar arasında ən vacib ünsiyyət vasitəsidir.

**Ağamusa Axundov**
***filologiya elmləri doktoru, professor***

Bölmənin epiqrafına münasibət bildirin. Bölmədəki mətnlərlə tanış olduqca aşağıdakı suallar ətrafında yoldaşlarınızla müzakirə təşkil edin.

- *Ünsiyyət necə qurulur?*
- *Nə üçün dil ünsiyyət vasitəsi hesab edilir?*
- *Dil cəmiyyətdən kənarda formalaşa bilərmi?*
- *Dilin formalaşmasında cəmiyyətin rolu nədir?*

Çap üçün deyil

# 1

1. Aşağıdakı kəlam və mətnləri tələffüz qaydalarına uyğun olaraq düzgün oxuyun.

### 1 Heydər Əliyev

Dil böyük bir aləmdir. Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.

### 2 Ömər Faiq Nemanzadə

Millətimizi sevmək üçün ən irəli dilimizi sevməliyik. Həm də elə bir **eşq** ilə sevməliyik ki, heç bir şey ona əngəl ola bilməsin. Məhəbbətlərimizin ən üst **qatına** dil məhəbbətini **çıxarmalıyıq**. Biz özümüzü bilməsək, öz dilimizi bəyənməsək, kim bizə hörmət edəcək və nədən ötrü etsinlər?

müdriklərin nəzərində

dilçi alimin nəzərində




söz ustalarının nəzərində

### Muxtar Hüseynzadə 3

Hər bir dilin özünəməxsus fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşu olur. Bu sistemlər bir-biri ilə rabitəli, qanunauyğun şəkildə əlaqələnməklə dilin mövcudluğunu şərtləndirir. Dilin ən kiçik vahidi olan səslər birləşərək sözü əmələ gətirdiyi kimi, sözlərin də məna və qramatik cəhətdən birləşməsi daha mürəkkəb dil vahidləri olan söz birləşmələrini və cümlələri yaradır. Dildə mövcud olan hər bir vahid ayrıca bir dilçilik şöbəsində araşdırılır, öyrənilir. Fonetika səsləri leksikologiya sözləri tədqiq edirsə sözlərin birləşməsi nəticəsində yaranan daha mürəkkəb dil vahidləri olan söz birləşmələri və cümlələr həmçinin bu vahidlərin yaranması üçün sözlərin uğradığı dəyişikliklər dilçiliyin ayrıca bir sahəsi olan qrammatikanın tədqiqat obyektini təşkil edir.

Çap üçün deyil

## 4 Tofiq Bayram

Bu dil **şirinlikdə** şərbət kimidir,
Saflığı qorunan sərhəd kimidir,
Anamız Vətən də qürbət kimidir –
Öz ana dilini bilməyənlərə!

Mən qədim "Qarabağ şikəstəsi"yəm,
Üzeyir nəfəsli gül dəsdəsiyəm.
Vaqifin, Vurğunun nifrət səsiyəm –
Öz ana dilini bilməyənlərə!

## 5 Rəsul Rza

Dili qiymətdən salar
Ucuz söz, hiylə, böhtan.
Elə saxla dilini:
Nə dil səndən utansın,
Nə sən dilindən utan.

## 6 Konstantin Uşinski

Xalqın dili onun mənəvi həyatının heç vaxt solmayan və daim yenidən çiçəklənən, tarix hüdudlarından çox uzaqlarda başlamış boyasıdır. Ana dili məhv olarkən xalq artıq yox olur... Xalqın ağızında dili hələ yaşadıqca xalq da yaşayır.

## 7 Oqtay Zəngilanlı

Tarixlər yazıldı, ötdü fəsillər
*Yadlardan qorudu səni əsillər*
İmzamı, yaşadır, ölməz nəsillər
Nizamim, Füzulim, Mirzə Cəlilim
Azərbaycan dilim, öz ana dilim.

Qorqudum, ozanım, səsim sorağım
Püskürən vulkanım, odum-ocağım
Cəsarət qılıncım, sönməz çırağım
Sən milli mənliyim, polad təməlim.

## 8 Nəbi Xəzri

Səni şəfəq bildim bu cahanda mən,
Bəzən şimşək olub qəzəblə çaxdın.
İlk dəfə dünyaya göz açanda mən
Qəlbimə günəşin özüylə axdın.

Ana **gözlərindən** süzən nur kimi
Hopdun ürəyimə sən qilə-qilə,
Hər kəlmən, hər sözün bəzənməyibmi
Mehriban anamın təbəssümüylə?!

Çap üçün deyil

**ORFOQRAFİYA**

Hansı səhv yazılmışdır?

- 1-ci mətnin 2-ci cümləsində
- 3-cü mətnin 3-cü cümləsində
- 4-cü mətnin 2-ci bəndində
- 6-cı mətnin 3-cü cümləsində
- 8-ci mətnin 2-ci bəndində

**ORFOEPİYA**

- 1-ci mətndə çərçivəyə alınmış sözlərin tələffüzünü yazın, fərqli məqamları göstərin.
- 2-ci mətndə tünd şriftlə verilmiş sözlərdə "q" səsinin tələffüzünə diqqət yetirin.
- 4 və 8-ci nümunələrdə tünd şriftlə verilmiş sözlərin tələffüzündə hansı oxşarlıq var?

2. Dil haqqında mütəfəkkirlərin, şairlərin fikirlərini oxuyun. Bütün mətnlər üçün ümumi olan açar sözü müəyyənləşdirin.
3. "Dil", "ana dili" dedikdə nə başa düşürsünüz?
4. Dilin insan həyatındakı ictimai-siyasi rolu haqqında sizin fikriniz nədir?
5. İnsanın dili ilə xarakteri, dili ilə mövqeyi arasında müəyyən əlaqə varmı? Fikrinizi nümunələrlə əsaslandırmağa çalışın.
6. Heydər Əliyev və Konstantin Uşinskinin kəlamlarında ortaq cəhət nədir? Həmin cəhəti müəyyənləşdirib münasibət bildirin.
7. Birinci mətndəki fikirlə sonrakı mətnlərdə olan fikirlərin məntiqi əlaqəsini izah edin.
8. Şairlərin bənzətmələrdən istifadə etməkdə məqsədi nədir? Sizcə, T.Bayram nə üçün ana dilini bilməyənləri məhz Vaqif və Vurğunun nifrət səsi ilə qarşılaşdırır?
9. Nə üçün 2-ci və 3-cü mətnlərdə bənzətmələrdən istifadə olunmamışdır?
10. Aşağıdakılardan hansı Rəsul Rzanın demək istədiyi fikirdir?

- Şair insanları yalan, böhtan söyləməkdən, hiylə işlətməkdən uzaq olmağa çağırır.
- Şair dilini o qədər ali, uca, əzəmətli bir varlıq hesab edir ki, həmin dildə böhtan atılmasını, lazımsız sözlər deyilməsini rəva görmür.

✓ *Fikirlərinizi əsaslandırın.*

11. Ömər Faiq Nemanzadə ilə Tofiq Bayramın hansı fikirləri üst-üstə düşür?
12. 3-cü mətnin dilindəki hansı xüsusiyyət onu digərlərindən fərqləndirir?

Çap üçün deyil

13. Sxemi tamamlayın və şərh edin.

Dil
- T.Bayramın nəzərində → 1. ................ 2. ................ 3. ................
- N.Xəzrinin nəzərində → 1. ................ 2. ................ 3. ................

14. T.Bayramın şeirində 1-ci bəndin 3-cü misrasında antonim sözləri müəyyənləşdirin.

15. Aşağıdakı sözlərin sinonimlərini müəyyənləşdirin.

saf → ?

hörmət → ?

16. Cümləni tamamlayın.

*Göz çoxmənalı sözdür, çünki ...*

17. Uyğunluğu müəyyənləşdirin.

| | | | |
|---|---|---|---|
| 1 | gülüş | xoş hislərin təsiri altında üzdə yaranan ifadə | A |
| 2 | təbəssüm | sevinc, şadlıq ifadə etmək üçün ağızdan çıxan qırıq-qırıq səslər | B |

✓ *Nümunələr əsasında **şaqqanaq çəkmək, qəhqəhə çəkmək, hırıldamaq** sözlərinin leksik mənalarını müəyyənləşdirin. Həmin sözlər sinonim hesab edilə bilərmi? Niyə? Ünsiyyət zamanı hansı sözün istifadəsi məqsədəuyğun deyil? Niyə belə hesab edirsiniz?*

✓ ***Gülüş, istehza** və **yumor** sözləri hansı hallarda bir-birini əvəz edə bilər?*

Çap üçün deyil

18. 1-ci kəlamdakı cümlələrin quruluşuna görə növünü deyin və fikirlərinizi əsaslandırın.
19. 2-ci mətndəki əsas fikri saxlamaqla cümlələri sadələşdirin.
20. 3-cü mətndə altından xətt çəkilmiş cümlədə durğu işarələrini bərpa edin.
21. 3-cü mətndə tünd şriftlə verilmiş sözün qrammatik mənasını deyin və onu elə sözlə əvəz edin ki, məzmuna xələl gəlməsin.
22. 3-cü mətndə altından xətt çəkilmiş cümlələrdə hərəkət bildirən hansı söz yerində işlədilməmişdir? Onu hansı sözlə əvəz etsək, daha məqsədəuyğun olar?
23. 4-cü mətndə nida işarələrinin işlənməsinə səbəb nədir?
24. K.Uşinskinin fikirlərində 2-ci və 3-cü cümlələrdə hansı söz çıxarılsa, cümlə daha düzgün olar? Fikirlərinizi sübut edin.
25. 7-ci mətndə altından xətt çəkilmiş ifadələrin ismi, yoxsa feili birləşmə olduğunu əsaslandırın.
26. 7-ci mətndə fərqləndirilmiş cümləni sintaktik təhlil edin. Sonra cümləni elə dəyişin ki, ——— - - - - - - - - - - ═══ sxeminə tabe olsun.
27. 7-ci mətnin birinci bəndinin üçüncü və dördüncü misralarında durğu işarələrinin işlənməsində hansı səhvə yol verilmişdir?
28. Cümlələri müqayisə edin.

| Şeirdə | Şifahi nitqdə |
|---|---|
| Nə dil səndən utansın,<br>Nə sən dilindən utan. | Nə mən sənə heç nə deməmişəm, nə də sən heç nə eşitməmisən. |

✓ *Hansı cümlələrdə feillər düzgün işlədilmişdir? Səbəbini izah edin.*

29. Hansı cümlələrdə durğu işarələrindən düzgün istifadə olunmayıb?

Amma külək getdikcə şiddətlənir, dənizdəki dalğalar daha da böyüyürdü, hərçənd ki, bunlar sonralar bir çox dəfə gördüyüm, hətta, bu əhvalatlardan, bir neçə gün sonra gördüyüm, dəhşətli fırtınalara heç bənzəmirdi. (*D.Defo*)

Uşaqlıq haqqında kimin xatirəsi yoxdur ki. Kim bu barədə ürək dolusu danışmaq istəməz. (*G.Hüseynoğlu*)

Çap üçün deyil

Yaxşı ki, babam mənimlə razılaşdı, yoxsa Allah bilir nələr olardı. (*Ə.Babayeva*)

Qapı da möhkəm idi, deyəsən poladdan hazırlanmışdı. (*F.Güney*)

Zaurun atası, geoloji-mineraloji elmlər doktoru, professor Məcid Zeynallı nə qazanmışdısa öz əlinin zəhməti ilə uzun və çətin həyat mübarizələrində qazanmışdı. (*Anar*)

30. **Ki** hissəciyini cümlələrdə ədat və bağlayıcı, **ilə** hissəciyini bağlayıcı və qoşma kimi işlədin.

✓ *Vergül işarəsinin işlənməsinə diqqət yetirin.*

31. Mötərizənin içində verilən sözlərdən uyğun olanını seçib cümlələri tamamlayın.

Prezident yarışda qalib gələn idmançıların boynuna medal *(keçirdi, taxdı*).

(*Bərk, sərt, möhkəm*) qayaların üstündə oturub dalğaların sahilə çırpılmasına tamaşa edirdi.

Onun ayın sonunda aldığı (*gəlir, qazanc, maaş*) ailəsini dolandırmağa imkan verirdi.

✓ ***Dava, savaş, müharibə*** *sözlərini cümlədə elə işlədin ki, onlar bir-birini əvəz edə bilməsin.*

✓ *Özünüz də belə nümunələr düşünün.*

! *Sizcə, nitq prosesində lazım olan söz və ifadənin düzgün seçilməsi hansı praktik əhəmiyyətə malikdir?*

32. *10–11-ci səhifələrdə verilmiş kəlam və mətnləri oxuyub bu nəticəyə gəldim ki, ...* cümləsindən istifadə edərək kiçik mətn tərtib edin.

- Epiqrafdan istifadə edə bilərsiniz.
- Yazacağınız mətndə mütəfəkkirlərin fikirlərinə münasibət bildirin.
- Dili ilə bağlı fikirlərinizi bildirin.

Çap üçün deyil

# 2

1. Şeiri tələffüz qaydalarına uyğun oxuyun. Orfoqrafiya başlıqlı çərçivədən yazılışı düzgün olanı seçməklə nöqtələrin yerinə buraxılmış hərfləri əlavə edin.

## DİLİM

F...zuli zirvəli, Vaqif axarlı,
Mənim Qorqu... dilim, Ələs...ər dilim!
Ömrümün na...ışı, bəxtimin xalı,
Dadda, şirinlikdə bal, şəkər dilim!

Dərdli anaların bağrından qopan,
Neçə yol dağlanıb, əzilən dilim.
Ruhuma işləyən, qanıma hopan
Sazın pərdəsindən süzülən dilim!

Bayatı beşiyi, layla yuvası,
Mənim tarlı dilim, kamanlı dilim.
Kiməsə həmişə bahar havası,
Kiməsə həmişə dumanlı dilim!

Misrada ifadə olunan fikrə münasibət bildirin.

Buluddan sıyrılıb, Günəşdən çıxıb,
Göylərin taxtından enib gəlmisən!
Ölməz dahilərin əlini sıxıb,
Tanrı qüdrətinə dönüb gəlmisən!

Dünyanın qəlbinə yatan dilimin
Özülü bir ölməz ruhdadı, bəlkə
Budağı bu günə çatan dilimin
Kökü Adəmdədi, Nuhdadı, bəlkə

**Zəlimxan Yaqub**

**ORFOQRAFİYA**

Hansı səhv yazılmışdır?

- Fizuli – Füzuli
- Qorqud – Qorqut
- naxış – nahış
- Ələskər – Ələsgər

**ORFOEPİYA**

- bəxtimin – [...............]
- buluddan – [...............]
- taxtından – [...............]
- tarlı – [...............]

Çap üçün deyil

2. Mətn üçün açar sözü müəyyənləşdirin.

3. Dilin qorunması xalqın yaşaması deməkdir. Şeiri oxuyarkən “Ana dilimi qorumaq üçün mən nə edirəm?” sualı ətrafında diqqətlə düşünün.

4. Şair nə üçün dilini Qorqud dili, Ələsgər dili adlandırır?

5. Şair ana dilini nəyə bənzədir? Sizcə, bu bənzətmələr nəyə xidmət edir?

6. *Əzilən dilim* ifadəsi dilimizin tarixində hansı məqamları xatırladır?

7. *Kiməsə həmişə bahar havası,*
*Kiməsə həmişə dumanlı dilim!* misralarında şairin hansı fikirləri ifadə olunmuşdur?

8. Şair dilini hansı musiqi alətləri ilə müqayisə edir və bu müqayisənin arxasında, əslində, hansı fikir gizlənmişdir?

9. Dilinin kökünün Adəmdə, Nuhda olduğunu deyən şair hansı fikri diqqətə çatdırır?

10. Z.Yaqubun ana dilinə olan münasibətini T.Bayram və N.Xəzrinin fikirləri ilə müqayisə edin. Müxtəlif şairlərin dilə eyni yanaşma tərzi nə ilə bağlıdır?

11. *Dil* sözünün omonimliyini nümunələrlə əsaslandırın. Sonra həmin sözün məcazi mənalarını göstərin və cümlədə işlədin.

*Nümunə:*




12. *Naxış* və *bəzək* sözlərinin sinonim olduğunu əsaslandırın.

13. Son bənddə frazeoloji birləşməni müəyyənləşdirin, onun sinonim və antonimini tapın.

Çap üçün deyil

14. Şeirin (səh. 16) sonuncu misrasında hansı sözlər tələffüz formasındadır?

15. Şeirin (səh. 16) 4-cü bəndinin 2-ci və 4-cü misralarında nida işarələrinin işlənməsinin səbəbi nədir?

16. Şeirin (səh. 16) 5-ci bəndinin 2-ci və 4-cü misralarında işlənən cümlələr sual cümləsi, yoxsa bədii sual hesab edilməlidir? (*Misraların sonunda durğu işarələri qəsdən qoyulmamışdır.*)

17. Şeirin (səh. 16) 1-ci bəndinin 1-ci və 3-cü misralarında söz birləşmələrinin xəbər olması üçün hansı şəkilçidən istifadə etmək lazımdır?

18. Şair doğma dilini vəsf etmək üçün hansı dil vahidlərindən istifadə etmişdir? Dil vahidləri dedikdə nə başa düşürsünüz?

19. Aşağıdakı sxemi şərh edin və fikirlərinizi ümumiləşdirin. Sxemlə razısınızmı?




✓ *Siz bu ünsiyyət vasitələrinin hansından daha çox istifadə edirsiniz?*

✓ *Hansı ünsiyyət vasitəsi daha əsasdır? Nə üçün belə hesab edirsiniz?*

✓ *Ünsiyyət nə zaman formalaşa bilər?*

Çap üçün deyil

**Necə düşünürsünüz, dil cəmiyyətdən kənarda formalaşa bilərmi?**

**Debat**

***Dil yalnız cəmiyyət olan yerdə mövcuddur.***

***Dil cəmiyyətdən kənarda da mövcud ola bilər.***

"Senyor Robinzon" filmini xatırlayın.

Adada tək yaşayan Robinzon kinoteatr "yaradır". Həm aktyor kimi "film" nümayiş etdirir, həm də tamaşaçı kimi "film"ə münasibət bildirir. (*Filmdən həmin fraqmentə baxa bilərsiniz*.)

Sizcə, o niyə belə edir?

**Dil ən geniş yayılmış ünsiyyət vasitələrindən biridir.**

**Biz dil vasitəsilə ətrafdakılarla fikir mübadiləsi aparır, fikirlərimizi bir-birimizə anlada bilirik.**

**Dil cəmiyyətdən kənarda formalaşa bilməz.**

20. "Mənim ana dilim" mövzusunda təqdimat hazırlayın.

**Plan**

- Ana dilinin yaranma tarixi və inkişafı haqqında məlumat toplayın.
- Əsas faktları və hadisələri seçin.
- Onları ümumiləşdirin.
- Öz fikirlərinizi əlavə edin.

✓ *Təqdimatın əvvəlində epiqrafdan və yeri gəldikcə sitatlardan istifadə edin.*

Çap üçün deyil

3

# AFRİKA İNCİLƏRİ

**ORFOQRAFİYA**

Hansı səhv yazılmışdır?

- Mətndə mötərizədə verilmiş sözlərdən hansının yazılışı səhvdir? *Fikrinizi əsaslandırın.*
- 2-ci abzasın 2-ci cümləsində.

**ORFOEPİYA**

- yaxınlıqdakı – [...............]
- davranmaq – [...............]
- meymunlar – [...............]
- rəhbərlik – [...............]

Əslən Uqandadan olan bu oğlanın (*əsl, əsil*) adı Con, (*familyası, familiyası*) Sabunya olsa da, o, “meymun oğlan” ləqəbi ilə tanınmışdır.

Üç yaşında ikən nəzarətsiz qalan Con yaşadığı evdən çıxaraq yaxınlıqdakı meşəyə girmiş və orada azaraq yolu itirmişdir. Meşədə itmiş və bir neçə gün acsusuz qalmış bu üçyaşlı oğlanı yaşıl afrika meymunları tapmış, öz himayələri altına alaraq böyütmüşlər. 1

Təxminən 1991-ci ildə Milli adlı qadın meşəyə göbələk yığmağa gedir. Birdən xışıltı səsi eşidir. Başını qaldırarkən ağacda yarpaqların arasında gizlənib ona



Çap üçün deyil

baxan və bədəni sıx, cod (*tüklərnən, tüklərlə*) örtülmüş qəribə bir məxluq görür. **2** Qadın əvvəlcə qorxur, diqqətlə baxdıqda üç il bundan əvvəl itmiş Conu tanıyır. Qadın onu ağacdan düşürməyə cəhd etsə də, məqsədinə nail ola bilmir.

Sizcə, Milli niyə Conu tuta bilmir?

Milli həmkəndlilərini köməyə çağırır. Con onu tutmaq istəyənlərə çox ciddi müqavimət göstərir. Bu "işdə" ona himayəçiləri olan meymunlar da kömək edirlər. Onlar Conu yaxalamaq istəyən adamlara müxtəlif ağac budaqları, meyvələr tullayaraq oğlanı qorumağa çalışırlar.

Lakin bütün bunlara baxmayaraq, kəndlilər Conu tuta bilir və onu kəndə gətirirlər. Heç kimi yaxına buraxmadığına görə əvvəlcə Conu ayrıca bir otağa salırlar. **Bir neçə gün ona yeməyi qapıdan atırlar.** Ancaq oğlan tədricən insanlara öyrəşir. Oğlanı himayəsinə götürən qadın onu çimdirir. Bədəninin sıx tük örtüyü onu meymunlardan az fərqləndirirdi. **3**

Bu da vəhşi təbiətdə uzun müddət heç bir şərait olmadan qaldığı zaman meydana (*gəlmişdir, gəlmişdi*). Conun bədəninin müxtəlif nahiyələri cızılmış-göyərmiş yaralar və sıyrıntılarla dolu idi. Bu da, çox güman ki, onun meymun kimi gəzməsi, ağacdan-ağaca tullanması zamanı (*qazanılmışdır, qazanılmışdı*). **4**

Mötərizədəki felləri düzgün qrammatik formada işlədin.

Con 1-2 ildən sonra Molli və Pol Vasva cütlüyünün rəhbərlik etdiyi uşaq evinə verilir. *Bu cütlük ilk vaxtlar yalnız müəyyən səslər çıxaran oğlana insan kimi davranmağı və danışmağı öyrədir. Onlar Cona hətta oxuyub-yazmağı da öyrədirlər.* Con tədricən heyvanlara məxsus davranış tərzindən (*tamamilə, təmamilə*) qurtulur, yaşıdları kimi normal həyat yaşayır. Sonradan xor dərnəyinə yazılır.

Con tez-tez qastrollarda olan "Afrika inciləri" xorunda çıxış edərək bir çox ölkələri gəzir.

**Antropoloq Meri-Ann Oxota**

- Rəssam işinə münasibət bildirin.
- Şəkillə məzmun arasında uyğunsuzluq varmı? Niyə belə hesab edirsiniz?



**Con Sabunya**

Çap üçün deyil

1. *Hepertrixoz adlanan bu xəstəlik özünü onunla büruzə verir ki, insanlarda, əsasən, tüklə örtülü olmayan nahiyələrdə sıx və cod tüklər əmələ gəlir* cümləsini mətnin hansı hissəsinə yerləşdirsək, məzmuna xələl gəlməz?

2. *3 il meymunlarla birlikdə yaşayaraq sürünün bir üzvünə çevrilir, sürətlə ağaca dırmaşmağı və qida əldə etməyi öyrənir. Maraqlıdır ki, meymunlar yeməli və ya zəhərli bitkiləri uşağın ayağının altına ataraq nəyin yeməli, nəyin təhlükəli olduğunu uşağa başa salırdılar* cümlələrini mətnin hansı abzasına əlavə etsək, dolğunluq yaranar?

3. Mətnə əsasən müəyyən edin:
   - Con Milli tərəfindən neçə yaşında tapılmışdır?
   - Con neçə yaşında uşaq evinə verilir?
   - 1991-ci ildə Conun neçə yaşı vardı?

4. Öz təxəyyülünüz əsasında 5-6 cümlə ilə Conun xarici görkəmini təsvir edib mətnin uyğun hissəsinə əlavə edin.

5. Conu xilas etməsi Millinin hansı keyfiyyətinin göstəricisidir?

6. Mətnin dili üçün xarakterikdir:

   • elmilik • konkretlik • aydınlılıq • emosionallıq

7. Uyğunluğu müəyyənləşdirin.

| | | | |
|---|---|---|---|
| 1 | ləqəb | şəxsin özünə götürdüyü ad | A |
| 2 | təxəllüs | şəxsin hər hansı bir cəhətinə görə ona verilən ad | B |

8. *Cod* sözünün leksik mənasını müəyyənləşdirin.

9. *Gün* sözünün omonimliyini nümunələrlə əsaslandırın.

10. Sxemi tamamlayın:




Çap üçün deyil

## Müzakirə

**İnsanları xarici fiziki əlamətlərinə görə üç irqə bölürlər: avropoid, monqoloid, neqroid.**

Nə üçün insanları irqlərə bölürlər? Sizcə, bu bölünmə lazımdırmı?

Bəs eyni planetdə yaşayan insanların “ağlar və qaralar dünyası”na bölünməsinə ehtiyac varmı?

Sizcə, bu bölünmələr və insanların irqinə, rənginə, mənsubiyyətinə görə fərqləndirilməsi Yer üzündə fəlakətlərə, müharibələrə nə dərəcədə səbəb ola bilər?

Bu bölünmələrin, fərqlənmələrin, parçalanmaların qarşısını almaq üçün siz hansı təklifləri verərdiniz?

1981-ci ildə BMT tərəfindən təsis edilən Sülh Günü ilk dəfə elə həmin ilin sentyabrında qeyd olunub. O vaxtdan Beynəlxalq Sülh Günü sentyabr ayının hər 3-cü çərşənbə axşamı qeyd edilirdi. Lakin 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnamə ilə 2002-ci ildə BMT Sülh Günü üçün 21 sentyabr tarixi dəqiq tarix kimi müəyyənləşdirilib və bu tarixi Ümumdünya Atəşkəs Günü elan edilib.

Əgər Yer kürəsinin bütün sakinləri mehribanlıq və dostluq şəraitində yaşayarlarsa, sülh bərqərar olar, müharibələr və fəlakətlər də baş verməz.

Beynəlxalq Sülh Günü “Sülh zəngi”nin çalınması ilə başlayır. Yaponiya Parlamentinin hədiyyəsi olan bu zəngin üzərində “Yaşasın Mütləq Dünya Sülhü” sözləri yazılıb. 2007-ci ildə BMT-nin Baş katibi Pan Gi Mun həmin “Sülh zəngi”ni çalaraq dünyanı bütün döyüş əməliyyatlarını, ədavəti 24 saat ərzində dayandırmağa və bir dəqiqəlik sükuta çağırmışdı.



21 sentyabr

**Beynəlxalq Sülh Günüdür**

Sülh bu gün torpaqlarının 20 faizi işğal altında qalan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan həmişə münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində mühüm addımlar atıb. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda 1994-cü ilin mayında atəşkəs haqqında müqavilə imzalanmışdır. O, müharibəni dayandırmış, ölkədə sabitliyə nail olmuşdur. Bu, dövlətimizin sülh arzusunun ifadəsi idi...

Siz bu barədə nə düşünürsünüz?

Çap üçün deyil

11. Cədvəldən istifadə edərək bir müddət meşədə yaşamış Conun hansı “bilik” və “bacarıq”lara malik olduğu barədə müzakirə aparın. Fikrinizi əsaslandırın.

## Üç yaşında uşaqlar aşağıdakılara yiyələnməlidirlər:

**bacarıqları**

- üçtəkərli velosiped sürmək;
- üzmək;
- topla futbol və digər oyunlar oynamaq.

**bilikləri**

- 3-ə kimi saymaq, sayı barmaqları ilə göstərə bilmək;
- böyük-kiçik, az-çox, hündür-alçaq anlayışlarını bilmək;
- əsas rəngləri və əsas həndəsi fiqurları tanımaq;
- cisimləri hündürlüyünə, ölçülərinə, rəng və formasına görə müqayisə etmək.

**məntiqi düşüncələri**

- 2-4 hissəli şəkilləri bərpa edə bilmək;
- şəkildə artıq əşyanı seçə bilmək;
- əşyalar arasında oxşarlığı tapa bilmək;
- 2-3 şəkli yadda saxlaya bilmək;
- şəkillərdəki oxşarlıq və fərqləri seçmək;
- valideynin 1-2 dəfə göstərdiyi hərəkəti təkrarlamaq;

**nitqin inkişafı**

- gördüyü əşyaları təsvir etmək;
- 5-6 sözdən ibarət cümlələr qurmaq;
- əşyaları qruplaşdırmaq;
- insan və heyvanların əsas hərəkətlərini (*oturur, durur, qaçır, yeyir və s.*) deyə bilmək;
- mahnı və şeirləri təkrar etmək;
- öz ad və soyadını demək.

**ətraf aləmlə bağlı biliklər**

- ev heyvanlarını və vəhşi heyvanları tanımaq, adlarını söyləmək;
- bəzi ağac və gül adlarını bilmək;
- meyvə, tərəvəz, giləmeyvələri ayırd etmək;
- materiallar (taxta, dəmir, plastik) haqqında təsəvvürə malik olmaq;
- günün vaxtlarını: səhər, günorta, axşam, gecəni ayırd etmək;
- təbiət hadisələri: qar, yağış, külək haqqında anlayışı olmaq.

**məişət bacarıqları**

- müəyyən geyimləri geyinə bilmək;
- qayçı ilə kağızı kəsə bilmək;
- karandaş və flomasterdən istifadə etməyi bacarmaq;
- nöqtə, xətlər, dairələr çəkmək;
- şəkilləri rəngləmək;
- əsas gigiyenik qaydaları bilmək.

Çap üçün deyil

12. Sxemi şərh edin və tamamlayın.




✓ *Oxşar cəhətləri verilmiş meymun və insanların fərqli cəhətlərini müəyyənləşdirib müqayisə aparın. Fərqli canlılar arasındakı oxşarlığın səbəbini nə ilə izah edərsiniz?*

✓ *Nə üçün 3 il meymunlar arasında yaşayan Con sonralar tez bir zamanda insan mühitinə uyğunlaşır, sərbəst danışa bilir və hətta xorda çıxış edir?*

İnsanı heyvandan ayıran ən əhəmiyyətli cəhət ______. İnsanlar ilk mərhələdə əl hərəkətləri ilə, daha sonrakı mərhələlərdə qırıq-qırıq səslərlə əlaqə saxlamış və ehtiyaclarını qarşılaya bilmişlər. Səsi heca və sözlərə çevirən insanlar daha sonra ______ öyrənmişlər.

✓ *Sizcə, işarələnmiş yerdə hansı sözlər yazılmalıdır?*

Çap üçün deyil

✓ *Müqayisələr əsasında aşağıdakı sxemi şərh edin. Nitqinizin düzgün qurulmasına çalışın.*

✓ *Sxemi şərh etmək üçün 24-cü səhifədəki materialdan istifadə edin.*




✓ *Sizcə, hansı canlılarda səs nitqə çevrilə bilir və nə üçün?*




Çap üçün deyil

13. Verilmiş hökmlərdən istifadə edərək 2-3 cümlə ilə dilin hansı əhəmiyyətə malik olduğunu deyin.

**D i l**



- ilk insanların heyvanlar aləmindən ayrılmasına kömək etmişdir.
- vasitəsilə insanlar təbiətdəki əşya və hadisələri adlandırır, onların xüsusiyyətlərini öyrənir.
  - Bunun əsasında elm yaranmışdır.



- insanların əcdadları və gələcək nəsilləri arasında əlaqə yaradır.
- insanların özündən əvvəlki təcrübəni mənimsəməsinə, öz bilik və bacarıqlarını yeni nəslə ötürməsinə imkan verir.



- insanların əldə etdiyi elmi, texniki və mədəni sərvətlərin bəşəriyyətə çatdırılmasında xüsusi rol oynayır.
- insanın özünü ifadə etməsi üçün vasitədir.



- elm və təcrübəni əbədiləşdirir, onun yaşamasına və inkişafına kömək edir.
- Yer kürəsinin bütün insanlarının bir-biri ilə əlaqə saxlamasına, birinin digərinin elmi kəşfləri, bədii sənət sərvətləri ilə tanış olmasına şərait yaradır.
  - Zaman və məkanla əlaqədar dilin yazılı formasından daha geniş istifadə olunur.
- canlı varlıqlardan ancaq insana məxsusdur.

Çap üçün deyil

Dil səs, söz və cümlələrdən ibarətdir.

| səs | söz | cümlə |
|---|---|---|
| Dil | | |

İnsan orqanizminin şaquli vəziyyətə düşməsi dilin yaranması üçün vacib şərtlərdən biri hesab edilir. Daha sonra danışıq üzvləri, səs aparatı formalaşmış, ağciyərlər isə səslərin tələffüzü üçün lazım olan tənəffüsü təmin etmişdir.

İnsanın əməklə məşğul olması da dilin yaranmasına öz təsirini göstərmişdir. Dil və şüur vahid ictimai bir prosesdir.

Dilimiz Azərbaycan dilidir. 12 noyabr 1995-ci il Konstitusiyasına əsasən Azərbaycan dili dövlət dili kimi təsbit olunmuşdur.

Konstitusiyanın 21-ci maddəsində yazılır:

I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

II. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

**Azərbaycan dili türk dilləri ailəsinin oğuz qrupuna aiddir.**

Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir.

"Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır".

**Heydər Əliyev**
*Ümummilli lider*

Çap üçün deyil

14. Aşağıdakı xüsusiyyətlərdən hansı "Afrika inciləri" mətninə aiddir?

1) Dili anlaşıqlı, sözlər ümumişləkdir.
2) Terminlərin sıxlığı müşahidə olunur.
3) Analitik xarakter daşıyır.
4) Rəsmi məlumatı əks etdirir.

15. Mətndə (səh. 21) kursivlə fərqləndirilmiş cümlələri bir cümlə şəklində yazın.

16. Mətndə (səh. 21) tünd şriftlə verilmiş cümlədə hansı sözün etik baxımdan işlənməsi düzgün deyil və digər sözlə əvəz edilməsi məqsədəuyğundur?

17. Uyğunluğu müəyyənləşdirin.

| | |
|---|---|
| **1** Əsl gözəllik surətdə deyil, | **a** ağılsız dostdan qorx. (*Azərbaycan atalar sözü*) |
| **2** Ağılla dərk edirik nöqsani cəhətləri biz | **b** ağıl və kamaldadır. (*F.Köçərli*) |
| **3** Dəmir işlənməyəndə paslanır, su bir yerdə qalanda iylənir, | **c** başlanğıcını sıx ünsiyyətdən alar. (*A.Rivarol*) |
| **4** Ağıllı düşməndən qorxma, | **ç** Nöqsanını dərk edən ağıllıdır, şübhəsiz. (*A.Bakıxanov*) |
| **5** Mehriban dostluq da, qatı nifrət də | **d** insan ağlı tətbiq edilmədikdə kütləşir. (*L.Vinçi*) |

1 ______ 2 ______ 3 ______

4 ______ 5 ______

✓ *Cümlələri quruluşuna görə qruplaşdırın.*

Çap üçün deyil

18. Doğru və yanlış fikirləri müəyyənləşdirin.

Dil yeganə ünsiyyət vasitəsidir.

Dil yalnız cəmiyyətdə formalaşa bilər.

Dil və şüur bir-biri ilə sıx bağlı prosesdir.

Heyvanlar yalnız ünsiyyəti hiss edir.

Dil cəmiyyətdən kənarda da formalaşa bilər.

doğru

yanlış

A) 
B) 
C) 
D) 
E) 

✓ *Verilmiş cavablardan istifadə etməklə “Afrika inciləri” mətni əsasında test tərtib edin. (Variantı seçməkdə sərbəstsiniz.)*

A) 
B) 
C) 
D) 
E) 

Çap üçün deyil

19. Öyrəndikləriniz əsasında "Dil və nitq" adlı kiçik elmi mətn tərtib edin. Bunun üçün aşağıdakı plandan istifadə edin:

**Plan**

- İnsanın əmələ gəlməsi, əllərin yeriməkdən azad olması haqqında kiçik məlumat;
- İnsanlarda danışıq aparatının formalaşması, nitqin əmələ gəlməsi;
- Fərqli canlılarda (insan və heyvanlarda) ünsiyyət;
- Səslərin sözlərə, sözlərin tədricən cümlələrə çevrilməsi;
- Fikirlərin ümumiləşdirilməsi;
- Nəticə.

**İSTİQAMƏT:**

- Nəqli və sual cümlələrindən;
- Tabesiz və tabeli mürəkkəb cümlələrdən;
- Səbəb-nəticə əlaqəli cümlələrdən;
- Təsdiq bildirən modal sözlərdən;
- Birləşdirmə və qarşılaşdırma bağlayıcılarından və s. istifadə edə bilərsiniz.

✓ *Yazdığınız mətnlər içərisində seçim edib ən yaxşı mətni qəzet maketinizdə yerləşdirin. Oxucularınızı müzakirəyə dəvət edin.*

**Mətndə əsas xətt:**

İnsanın dik yeriməyə başlaması səs aparatının formalaşmasına, nitqin yaranmasına səbəb olmuşdur.

Çap üçün deyil

4

## EŞİTMƏDƏN YARADAN BƏSTƏKAR

*Musiqinin əsl gücü insanı bəstəkarın xəyal dünyasına aparmasıdır.*

*Ruhumu riqqətə gətirən musiqi bənzərsiz çiçəklərin açdığı və alaq otlarının cücərə bilmədiyi bir diyara oxşayır.*

***Lüdviq van Bethoven***



### ORFOQRAFİYA

- Tünd şriftlərlə verilmiş hansı sözlər yazılış qaydasına uyğundur?

### ORFOEPİYA

Hansı düzgündür.

- [ciddi] – [citdi]
- [dəhşətdi] – [dəhşətli]
- [ümidsizdix'] – [ümitsizdix']
- [şiddətləndix'cə] – [şitdətləndix'cə]

*Dahi alman bəstəkarı Bethoven dünyanın ən nəhəng bəstəkarlarından biridir.* Hələ 1787-ci ildə Bethoven Vyanada olarkən onun improvizasiyasını dinləyən Motsart demişdi O bütün dünyanı özü haqqında danışmağa məcbur edəcək. ✱ L.Bethoven öz yaradıcılığında, əsasən, insanın qəhrəmanlıq, mübarizlik əzmini tərənnüm etmişdir.

İ.V.Hötenin "Eqmont" faciəsinə yazdığı musiqi, "Patetik" və "Appassionata" adları ilə tanınmış fortepiano sonataları, skripkaçı R.Kreytsernə həsr etdiyi "Kreytser sonatası", yeganə "Fidelio" operası Bethoven yaradıcılığının qəhrəmanlıq, azadlıq əhvali-ruhiyyəsini dinləyicilərə məharətlə çatdırır.

Çap üçün deyil

Bethovenin sağlamlığı ilə bağlı çətinlikləri onun dünyagörüşünə ciddi təsir göstərmişdir. 1796-cı ildə 28 yaşında ikən o, ağır xəstəliyin – musiqiçi üçün əsl faciə olan karlığın ilk əlamətlərini hiss edir. Qulaqlarındakı kəskin cingiltili səslər ona musiqi səslərini ayırd etməkdə maneçilik törətməyə başlayır. Xəstəlik şiddətləndikcə Bethoven əvvəlcə pianoda çalmaq, sonra dirijorluq etmək qabiliyyətini getgedə itirir. **Adamlarla ünsiyyət saxlaması da tədricən çətinləşir: ömrünün son illərində o, dəftərdən istifadə etməklə yazılı "söhbətlər"ə keçir**. Ən dəhşətlisi isə o idi ki, bəstəkar yaratdığı musiqini daha eşitmirdi! Lakin nə xəstəlik, nə də tənhalıq Bethovenin mətin iradəsini qıra bilmir. Bəstəkarın bu dövrdə yazdığı əsərlərdə qorxu, ümidsizlik hislərinə rast gəlmək mümkün deyil. Onun simfoniyalarında, sonatalarında, kvartetlərində ruh yüksəkliyi, insan mübarizəsinin qələbə ilə nəticələnəcəyinə və gələcəyə inam duyulur.

Bethoven cəmi doqquz simfoniya yazmışdır. İlk baxışdan bu, Haydn və Motsart irsi ilə müqayisədə, (**əlbəttə, əlbətdə**), çox deyil. Ancaq Bethoven bəstəkar Haydnın müəyyənləşdirdiyi (**orkestr, arkestr**) tərkibinə yeni alətlər daxil etmiş və beləliklə, onun daha qüvvətli səslənməsinə nail olmuşdur.

Bethoven ən məşhur əsərlərindən biri olan 3-cü simfoniyanı əvvəlcə Napoleona həsr etməyi nəzərdə tutubmuş. Lakin Napoleonun özünü imperator elan etməsini bəstəkar olduqca pis qarşılayır və simfoniyanı "Qəhrəmanlıq" adlandırır. 9-cu simfoniyada isə bəstəkar dövrü üçün cəsarətli bir yenilik tətbiq edir – əsərin son hissəsində alman şairi İ.F.Şillerin "Sevincə doğru" şeiri əsasında nəhəng xor səhnəsi verir. Bu ölməz musiqi indiyədək xoşbəxtliyə, səadətə, dostluğa, qardaşlığa səsləyən alovlu çağırış olaraq dünya xalqlarının birlik rəmzi kimi  qavranılır.

Bethoven musiqisində incə lirika, dərin fəlsəfi düşüncələr də mühüm yer tutur. Məsələn, "Pastoral" adlandırdığı 6-cı simfoniyasında, "Ay" sonatasında təsvir olunan gözəl təbiət mənzərələri insanın daxili aləmi, onun fikir və düşüncələri ilə həmahəng səslənir. Bethovenin kvartetləri, fortepiano konsertləri, eləcə də "Uzaq sevgiliyə doğru" vokal silsiləsi, kiçik mahnıları yaradıcılığının lirik xəttini bariz şəkildə nümayiş etdirir.

Dahi bəstəkarın dəfn mərasiminə otuz mindən artıq insan yığışıbmış. Bethoveni son mənzilə yola salanların arasında Frans Şubert də var imiş. Bu çox simvolik bir hadisə idi. İlk romantik sonuncu klassiklə vidalaşır. Avropa musiqisində klassisizm cərəyanı romantizmlə əvəz olunur…

**"Ayna uşaq ensiklopediyası"ndan**

**L.Bethovenin hər hansı bir sonatasına qulaq asıb düşündükləriniz, hiss etdikləriniz əsasında esse yazın.**

Çap üçün deyil

1. Mətnin giriş, əsas və nəticə hissələrini müəyyənləşdirib hər hissəni 1-2 cümlə ilə ifadə edin. Bethovenin epiqraf kimi verilmiş sözlərinə münasibət bildirin.
2. Mətnin tipini müəyyənləşdirin. Fikrinizi əsaslandırın.
3. Aşağıdakılardan hansı mətn üçün xarakterikdir:

   • bədiilik • obrazlılıq • aydınlılıq • anlaşıqlılıq
4. Mətndə hansı suala cavab yoxdur?
   a) Bethoven nə üçün dirijorluq qabiliyyətini itirir?
   b) Bəstəkar nə üçün 3-cü simfoniyasının adını dəyişir?
   c) Bəstəkar 9-cu simfoniyasında hansı alman şairinin şeirindən istifadə edir?
   d) Yeniyetmə vaxtında qazanılmış xəstəlik Bethovenə hansı məhrumiyyətlər gətirir?
5. Mətndə hansı cümlə Bethovenin bütün xalqların sülh şəraitində yaşamaq istəyini təsdiq edir?
6. Mətnə əsasən Bethovenin şəxsi keyfiyyətlərini müəyyənləşdirib bir cümlə ilə xarakterizə edin.
7. Mətndə hansı cümlə Bethovenin anadan olduğu ili müəyyənləşdirməyə imkan verir?

**Bethovenin məktublarının birində belə bir qeyd var:**

*“Artıq yaşamaq istəmirdim. İntihar etmək istəyirdim. Ancaq məni həyata bağlayan arzularım həyata keçməmiş dünyanı tərk etməyi ağılsızlıq hesab edirdim”.*

Tezliklə bütün çətinliklərə baxmayaraq, sənətini yaşatmaq üçün yaşamağa qərar verir. Deyilənə görə doqquzuncu simfoniyanın premyerasının sonunda Bethoven arxası tamaşaçılara olduğu üçün onların atəşli alqışlarını eşitmir. Səhnədəkilərdən biri onun əlindən tutub zala tərəf çevirir. Bethoven yalnız bu zaman alqışların onun üçün olduğunu başa düşür. Kəsilmək bilməyən alqışları polisin köməyi ilə yatırtmaq mümkün olur.

Bu abzası mətnin hansı hissəsinə əlavə etmək olar?

Altından xətt çəkilmiş cümlədə hansı məntiqsizliyi müşahidə etdiniz?

Altından xətt çəkilmiş cümlədə vergül işarəsi harada qoyulmalıdır?

Çap üçün deyil

8. Mətndən beynəlxalq terminləri seçin.
9. Məntiqi ardıcıllığı tamamlayın və uyğun cümlələrdə yerləşdirin.

| | |
|---|---|
| nəhəng | İnsanlar öz ... əməlləri ilə yaddaşlarda qalır. (*Fars atalar sözü*) |
| ? | Oğlan laqeyd baxışlarla onların başları üzərində yanan ... şama nəzər saldı. (*F.Fitscerald*) |
| ? | ...dalğalar dənizi təlatümə gətirir, qarşılarına keçən hər şeyi götürüb aparırdı. (*E.Heminquey*) |
| ? | Amma böyük sandıqdır. Necə də ... qapağı var?! (*M.F.Axundzadə*) |
| ? | Tanrıverdi sandığın qapağını qaldırdı, ... bir ayı çıxıb onu süpürrədi. (*M.F.Axundzadə*) |

✓ *Sonuncu cümlədə hansı söz tələffüz şəklindədir?*

10. Mətndə (səh. 32) fərqləndirilmiş cümlədə hansı söz yerində işlədilməmişdir? Həmin sözü uyğun sözlə əvəz edin.
11. Mətndə (səh. 33) altından xətt çəkilmiş cümlədə feilin işlənməsində hansı səhvə yol verilmişdir?
12. Mətndə (səh. 32–33) müəyyən sözlərin dırnaq işarəsi içərisində verilməsinin səbəbini izah edin. Dırnaq işarəsindən daha nə zaman istifadə olunur? Fikirlərinizi nümunələrlə əsaslandırın.
13. Mətndə (səh. 33) tünd şriftlə verilmiş cümlənin quruluşunu müəyyənləşdirib fikrinizi əsaslandırın. Cümlədə qoşa nöqtənin işlənmə səbəbini deyin. Cümləni sadə cümləyə çevirin.
14. Mətndə (səh. 33) altından xətt çəkilmiş feillərin zaman şəkilçilərinin düzgün işlənib işlənmədiyinə diqqət yetirin.
15. Mətndə (səh. 32) qırmızı rəngdə verilmiş cümlədə durğu işarələrini bərpa edin.
16. Mətndə (səh. 32) birinci abzasda ulduz işarəsi qoyulmuş yerə elə iki cümlə əlavə edin ki, fikirlər arasında rabitə yaransın.

Çap üçün deyil

17. Mətni oxuyub məzmununa münasibət bildirin, feilləri düzgün zamanda işlədin.




1989-cu ildə anadangəlmə qüsurlarla: ayaqlarda sümüklərin, dırnaqların, əllərdə inkişaf etmiş barmaqların olmaması ilə doğulmuş Oksana Bondarçukdan valideynləri elə doğum evində (*imtina etmək*).

Onu körpələr evinə (*göndərmək*). Bir müddət o burada (*qalmaq*). 7 yaşında olarkən ixtisasca həkim-loqoped olan amerikalı tənha bir qadın Oksananı övladlığa (*götürmək*). Onu özü ilə Amerikaya aparır, sağlamlığının bərpası uğrunda (*mübarizə aparmaq*). Ancaq qadın bir çox çətinliklərlə qarşılaşır, xəstə orqanizm müalicəyə (*tabe olmaq*).

8 yaşında Oksananın sol, 13 yaşı olarkən sağ ayağını (*kəsmək*). Qollarında ağır əməliyyat aparırlar.

2010-cu ildən Oksana idmanın avarçəkmə növü ilə (*məşğul olmaq başlamaq*). 2012-ci ildə o, Londonda keçirilən yarışlarda bürünc medal qazanır.

Sonra Soçidə keçiriləcək qış idman yarışlarına (*hazırlaşmaq*) və yarışlarda gümüş medala (*layiq görülmək*).

18. “Əlil insanın heyrət doğuran gücü” mövzusunda inşa yazın.

19. Təsəvvür edin ki, yoldaşlarınızdan biri sizdən onun “Əlil insanın heyrət doğuran gücü” mövzusunda yazdığı inşaya münasibət bildirməyi xahiş etmişdir. Siz rəy yazmalısınız.

Rəy yazmaq üçün aşağıdakı ardıcıllığa riayət etməlisiniz:

- Rəyin başlığı. Nəyə və kimə verilməsi göstərilir və səhifənin ortasında *rəy* sözü yazılır.
- Rəyin ümumi məzmunu. Bu və ya digər bir faktın həm müsbət, həm də mənfi cəhətləri təhlil olunur. Təhlil dəqiq müddəalarla göstərilir.
- Rəyin nəticəsi. Rəyçinin irəli sürdüyü təklif və tövsiyələr bir neçə cümlə ilə ifadə edilir.
- İmza. Bu hissədə rəyçi adını, soyadını və atasının adını göstərir, qarşısında isə imzasını qoyur.
- Tarix. Rəyçi imzasının altında bütöv şəkildə gün, ay və ili göstərir.

- Rəy işgüzar sənəd növüdür.
- “Rəy” ərəb sözü olub, bir şey haqqında fikir, mülahizə, söz mənasını verir.
- Rəy, əsasən, aşağıdakı mənalarda işlədilir:

  1. Bir əsər, tamaşa, konsert, kinofilmi və s. təhlil və tənqid edən məqalə, yazı.
  2. Fikir, mülahizə.

Çap üçün deyil

20 №-li məktəbin $10^a$ sinif şagirdi Röya Məlikovanın
"Əlil insanın heyrət doğuran gücü" mövzusunda
yazdığı inşaya

**R Ə Y**

Röya Məlikovanın "Əlil insanın heyrət doğuran gücü" mövzusunda yazdığı inşa 1982-ci ildə Avstraliyada doğulan Serbiya əsilli Nik Vuyçiçin həyat və fəaliyyətini əhatə edir. Çox nadir hallarda rast gələnən tetraameliya – ətraflarının olmaması xəstəliyindən əzab çəksə də, bu hal onun yaşamaq, inkişaf etmək və çətinliklərə qalib gələ bilmək əzmini qıra bilməmişdir. Hələ 17 yaşında olarkən mühazirəçi olduğu tədbirdə yüzlərlə insana ümid bəxş etmiş, bu çıxışı ona həyatda özünü təsdiqləməyə imkan vermişdir.

R.Məlikova öz inşasında, sadəcə, həyati faktları təsvir etməmişdir. O daha çox N.Vuyçiçin daxili aləmini, mənəviyyatını, qarşısına qoyduğu məqsədə çatmaq üçün onun iradə gücünü göstərməyə səy etmişdir. Daha sonra o, N.Vuyçiçi Azərbaycan idmançısı Oluxan Musayevlə müqayisə etmişdir. Əlil olmasına baxmayaraq, bir çox yarışların qalibi olmuş Oluxan 2008-ci ilin sentyabrında Pekində keçirilən Paralimpiya oyunlarında nüvə itələmə üzrə 13,49 metr nəticə göstərərək Olimpiya çempionu adını qazanmışdır.

Düşünürəm ki, Röya məqsədinə nail olmuş, yazdığı inşa mövzusunu, əsasən, əhatə etmişdir.

İnşa yazıda diqqət yetirilməsi vacib olan və aradan qaldırılması tövsiyə edilən müəyyən iradlar vardır:

1. Yaxşı olardı ki, orfoqrafiya, həmçinin *o*, *bu* əvəzliyindən sonra vergülün işlənmə qaydalarına diqqət yetirilə idi.
2. Nəticə hissəsinin yığcam olması və mövzunun ümumiləşdirilməsi məqsədəuyğun olardı.

İmza: **Lətifə Uğur qızı Şahbazlı**

*11 noyabr 2017-ci il*

Çap üçün deyil

5

# YAZININ ƏMƏLƏ GƏLMƏSİ

XIX əsrin axırlarına kimi Mərkəzi Afrika və Şimali Amerikanın bəzi xalqları yazını qeyri-təbii qüvvə, məktubu isə danışan canlı əşya hesab edirdilər.

*Bir dənə Cənubi Amerika hindusu öz ağasının yaxın dostuna məktubla bərabər bir* ***zə...bil*** *meyvə aparır.* Hindu geri qayıdıb, cavab məktubunu öz ağasına verir. ________ Hindu çox təəccüblənir. Çünki yolda meyvəni yeyəndə onu heç kəs görməmişdi. Həmin hindu ikinci dəfə yenə meyvə aparmalı olur. Lakin o, məktubun "xəbərçi" olduğundan şübhələndiyi üçün bu dəfə meyvəni yeməzdən əvvəl böyük bir daşı qaldırıb kağızı onun altına qoyur və fikirləşir ki, ...

Hindu geri qayıdanda yenə ağası onu xeyli danlayır. Çünki meyvəni alan şəxs hindu ilə göndərdiyi məktubda onun yenə də meyvədən yediyini yazmışdı. Hindunun kürəyi ağasının kötəyi ilə qaraldıqdan sonra o, məktubun mahi...ətini başa düşür.

Məntiqinizə əsasən cümləni tamamlayın.

Sizcə, yazı hansı zərurət əsasında meydana çıxmışdır?

Yazının əmələ gəlməsinin çox qədim tarixi vardır. Hələ lap qədimlərdə insanlar ayrı-ayrı qruplar şəklində (*yaşamaq*). İctimai quruluşun formalaşması insan qrupları arasında si...asi, iqtisadi və başqa əlaqələrin də yaranmasına (*səbəb olmaq*). Ayrı-ayrı tayfalar müə...ən məqsədlər üçün bir-biri ilə danışıqlar aparmalı olmuş, onlarda öz fikirlərini, duyğu, düşüncə və arzularını bir-birlərinə çatdırmaq ehtiyacı (*meydana gəlmək*). Bu **təl...bat**, **şü...həsiz**, təkcə şifahi ünsiyyətə köməkçi olan ikinci bir vasitənin – yazının yaranmasına təkan vermişdir.

### ORFOQRAFİYA

- Tünd şriftlə verilmiş sözlərdə nöqtələrin yerinə uyğun hərfləri artırın.
- Qırmızı hərflə verilmiş sözlərin 1, yoxsa 2 "y" ilə yazıldığını müəyyən edin.

### ORFOEPİYA

- danışıqlar – [danışıxlar]
- məqsəd – [...............]
- miqdar – [...............]
- qrup – [...............]

Çap üçün deyil

1 **Lap qədim zamanlarda – yazının mövcud olmadığı dövrlərdə insanlar öz fikirlərini uzaq məsafəyə çatdırmaq üçün çox müxtəlif əşya və xətlərdən istifadə etmişdir.**

2 İnsanlar meşəlik yerlərdə öz yoldaşlarına xəbər (*çatdırmaq, vermək*), ovlamaq istədikləri heyvanların keçdiyi yeri nişan vermək məqsədilə ağacın üzərində ox asmış, onların miqdarını bildirmək üçün budaqlardan istifadə etmişlər.

3 Yazı birdən-birə meydana çıxmamışdır. Yazının əmələ gəlməsində fikrin müxtəlif vasitələrlə ifadə və əks olunmasının xüsusi təsiri olmuşdur.

Qədim insanlar ünsiyyət yaratmaq üçün (*ən, daha*) çox tez tapılan zəruri əşyalardan (*geniş, səmərəli*) istifadə etmişlər.

Ox göndərməklə müharibə anlayışı ifadə olunmuşdur. Belə ki bir tayfa o birisinə ox göndərməklə onunla vuruşmaq, müharibə etmək istədiyini bildirmişdir.

Duz dostluq anlayışının rəmzi olmuşdur. (*Müəyyən, hər hansı*) tayfanın o birinə duz və çörək göndərməsi onunla dost olmaq və yaxud dostluq şəraitində yaşamaq təklifini ifadə etmişdir.

Qızılgül sevgi, məhəbbət simvolu hesab edilmişdir. Belə ki birinin başqasına qızılgül verməsi, yaxud göndərməsi həmin adamın gül göndərilən adamdan xoşu gəlməsini, onu sevməsini ifadə etmişdir.

Güllərin hansı rəngdə olmasının da müəyyən anlamı olmuşdur. Məsələn, ağ gülün göndərilməsi görüşüb-danışmaq istəyini, sarı gül isə ayrılığı ifadə etmişdir. Qədimlərdə müəyyən bir məlumatı başqasına çatdırmaq üçün heyvan və quşlardan da istifadə edilmişdir.



Daha sonralar (*qədim, köhnə*) insanlar fikirlərini şəkillər vasitəsilə ifadə etmişlər. Daşlar, qayalar üzərində, yaşadıqları mağaraların divarlarında hə...at tərzləri, məişətləri, rəqsləri, məşğuli...ətləri və sairə ilə bağlı şəkillər çəkmişlər. Lakin hər şəkli yazı hesab etmək olmaz. Çəkilən şəkil mütləq hər hansı bir məlumatı əks etdirməlidir. Sonra hərfi yazı meydana gəlmişdir. Yazının formalaşması və inkişafı dövründə onun bir neçə tipi meydana çıxmışdır:

- əşyəvi yazı;
- ideoqrafik (fikri) yazı;
- piktoqrafik (şəkli) yazı;
- fonoqrafik (hərfi) yazı.

**Afad Qurbanovun "Ümumi dilçilik" kitabından**

Çap üçün deyil

1. Mətnləri oxuyun, onların hansı yazı tiplərinə uyğun gəldiyini müəyyənləşdirin.



Bizim eradan əvvəl 513-cü ildə İran şahı Dara özünü skiflərdən çox-çox qüvvətli hesab etdiyindən onları məğlubiyyətə uğratmaq və özünə tabe etmək istəmişdir. Buna görə də o, skiflərlə vuruşmazdan əvvəl onların özlərini məğlubolunmuş hesab etmələrini və bu məqsədlə ona torpaq və su göndərmələrini tələb etmişdir. Lakin skiflər bunun əvəzinə Daraya bir diri qurbağa, bir siçan, bir quş və beş ox göndərmişlər. Qədim yunan tarixçisi Herodot bunun məzmununu belə izah etmişdir: "Əgər siz farslar bataqlıqda qurbağa kimi tullanmağı öyrənməsəniz, siçan kimi gizlənməyi bacarmasanız, quş kimi uça bilməsəniz, bizim torpağa ayaq basan kimi oxlarımız altında məhv olacaqsınız".

***Afad Qurbanovun "Ümumi dilçilik" kitabından***

Göyərçin hələ çox qədim zamanlardan bərəkət, bolluq, sonralar isə sülh, əmin-amanlıq simvolu kimi tanınmışdır.

Əfsanələrə görə, dünyanı su basdıqdan sonra su yavaş-yavaş çəkilib azaldığı zaman göyərçin bu kortəbii fəlakətin yumşalması əlaməti olaraq Nuhun gəmisinə dimdiyində zeytun budağı gətirmişdir.

Qədim romalılar müharibə allahı hesab edilən Marsın yerə düşüb arxası üstə çevrilmiş döyüş papağı içərisində oturan göyərçin şəklindən sülh emblemi kimi istifadə edirdilər. Mütəxəssislərin mülahizələrinə görə, göyərçinlər bütün quşlar, hətta bütün canlılar içərisində öz mehribanlıqları, səmimiyyətləri, sədaqətləri ilə seçilir. Erkək və dişi göyərçin həmişə cüt gəzir, bir-birindən ayrılmır. Göyərçinlərdə yırtıcılıq əlamətlərinin olmaması, həmişə əmin-amanlıq içində yaşamaları da onları bütün canlılar içərisində sülh tərəfdarı kimi tanıtmışdır.

Hazırda göyərçin yüz milyonlarla insanın bütün dünyada sülh və əmniyyət uğrunda apardığı mübarizənin rəmzidir.



***"Rəvayətli ifadələr" kitabından***

Çap üçün deyil

Azərbaycan mədəniyyətinin ən qədim nümunələrindən biri olan Gəmiqaya Ordubad dağlarında, Qapıcıq dağının cənub və şərq yamaclarında yerləşir. Gəmiqaya Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri olmuşdur. Buradakı təsvirlərin və qədim yurd yerlərinin azı 7-8 min il yaşı var.



Gəmiqayada mürəkkəb süjetli kollektiv rəqs səhnələri təsvir olunmuşdur. Maraqlı kollektiv rəqs səhnələrindən birində adam təsvirinin başında buynuzvarı çıxıntılar var. Görünür, həmin adam başına öküz və yaxud keçi maskası geyinmişdir. Adamlar qollarını və qıçlarını geniş açaraq hərə bir tərəfdən fərdi şəkildə rəqs edir. Rəqs meydanının mərkəzində verilən, günəş və yaxud od rəmzi sayılan dairələrdən şüaşəkilli xətlər çıxır. Bir qədər aşağıda həmin dairəyə doğru hərəkət edən keçi təsvir olunmuşdur. Keçinin yaxınlığındakı adam əlini dairəyə doğru uzatmışdır. Onun əli üç barmaqla verilmişdir. Görünür, bu təsvirdə qədim ovçuluq və yaxud heyvandarlıqla əlaqədar müqəddəs sayılan od – ocaq ətrafında icra edilən maraqlı mərasim əks etdirilmişdir.

*Vəli Əliyevin "Gəmiqaya abidələri" kitabından*

- Sizcə, bu, yazının hansı tipidir?
- Şəkil əsasında mətn tərtib edin.
- Mətni elə tərtib edin ki, yazının bu tipi haqqında məlumat öz əksini tapa bilsin.

| Çap şəkli | Əl yazısı şəkli | Adı | Çap şəkli | Əl yazısı şəkli | Adı |
|---|---|---|---|---|---|
| A a | Aa | a | Q q | Qq | qe |
| B b | Bbb | be | L l | Ll | el |
| C c | Cc | ce | M m | Mm | em |
| Ç ç | Çç | çe | N n | Nn | en |
| D d | Dd | de | O o | Ooo | o |
| E e | Ee | e | Ö ö | Ööö | ö |
| Ə ə | Əə | ə | P p | Pp | pe |
| F f | Ff | fe | R r | Rr | er |
| G g | Gg | ge | S s | Ss | se |
| Ğ ğ | Ğğ | ğe | Ş ş | Şş | şe |
| H h | Hh | he | T t | Tt | te |
| X x | Xx | xe | U u | Uu | u |
| I ı | Iı | ı | Ü ü | Üü | ü |
| İ i | İi | i | V v | Vv | ve |
| J j | Jj | je | Y y | Yy | ye |
| K k | Kk | ke ka | Z z | Zz | ze |

Çap üçün deyil

2. Mətn (səh. 38) üçün xarakterikdir:

- aydınlılıq
- mürəkkəblik
- termin sıxlığı
- faktlara əsaslanma (faktikilik)

3. Sizcə, yazının yaranmasının tarixi əhəmiyyəti nədən ibarət idi?
4. Mətndə (səh. 39) çərçivəyə alınmış hissələrdə ardıcıllığı bərpa edin.
5. Müasir dövrdə yazının hansı tiplərindən istifadə olunur? Fikrinizi nümunələrlə əsaslandırın.
6. Müasir dövrümüzdə əşyəvi yazı nümunələrinə rast gəlinirmi? Şahidi olduğunuz bu cür nümunələr haqqında məlumat toplayıb fikir mübadiləsi aparın.
7. *Müasir dövrdə fikrin əşya vasitəsilə ifadə olunmasının ən yüksək inkişaf pilləsi şahmatdır. Belə ki şahmat lövhəsi üzərində oyunçu hər bir fiqurun hərəkəti ilə qabaqcadan müəyyən edilmiş şərti mənalarla fikrini öz rəqibinə çatdıra bilir* fikri ilə razısınızmı? Fikirlərinizi əsaslandırın.
8. Sizcə, yazının ən mükəmməl tipi hansıdır? Niyə belə hesab edirsiniz?
9. Yazı tiplərinin hansı praktik əhəmiyyəti vardır?
10. Sizcə, yazı tək-tək şəxslərin, yoxsa kollektiv əməyin məhsuludur?
11. Yol hərəkəti qaydalarını tənzimləyən işarələr yazının hansı növünə aid ola bilər?
12. Aşağıdakı şəkilləri fərqləndirib onların şəkli və ya fikri yazı olduğunu müəyyənləşdirin.




13. Qobustan qayalıqlarındakı şəkillərlə bağlı məlumat toplayıb kiçik mətn tərtib edin və onu mətnin uyğun hissəsinə əlavə edin.

Çapı üçün deyil

14. Mətndə (səh. 39) mötərizədə verilmiş sözlərdən hansı işlənsə, daha düzgün olar?

15. Aşağıdakı cümlələrdə altından xətt çəkilmiş sözləri omonim hesab etmək olarmı?

Axşam xeyli yazı yazdım.

Yazı çox sevirəm.

✓ *Fikrinizi əsaslandırın.*

16. *Döydü* və *vurdu* feillərini cümlələrdə elə işlədin ki:

a) həmin sözlər bir-birini əvəz edə bilsin;

b) həmin sözlər bir-birini əvəz edə bilməsin.

✓ *Həmin sözlərin məcazi mənalarını müəyyənləşdirin.*

✓ *Sözün məcazi mənasının hansı əhəmiyyəti var?*

17. Oxlardan hansının istiqaməti düzgün göstərilmişdir?




✓ ***İdarə** və **iradə** sözlərinin mənasını fərqləndirin.*

18. Mətndə (səh. 38) qırmızı rəngdə verilmiş cümlələr arasında rabitə yaratmaq üçün əlavə cümlələr yazın.

19. Mətndə (səh. 38) işarələnmiş yerə hansı cümlələri artırsanız, əlaqə yaranar?

20. Kursivlə verilmiş cümlədə (səh. 38) hansı söz düzgün işlədilməmişdir? Onu müvafiq sözlə əvəz edin.

21. Altından xətt çəkilmiş cümlədə (səh. 38) durğu işarəsinin düzgün qoyulduğunu əsaslandırın.

22. Tünd şriftlə verilmiş cümlədə (səh. 39) mübtəda ilə xəbərin işlənməsində hansı qayda pozulmuşdur?

23. Göy rəngdə verilmiş cümləni (səh. 39) tabeli mürəkkəb cümlə şəklində yazın və sxemini qurun.

Çap üçün deyil

24. Aşağıdakı mətni oxuyub məzmununa münasibət bildirin, tapşırıqları yerinə yetirin.

- ✓ *Mətndə durğu işarələrini bərpa edin.*
- ✓ *Mətndə orfoqrafik səhvləri düzəldin.*
- ✓ *Mətndə artıq söz, ifadə və cümlələrin altından xətt çəkin, yerində işlənməyən sözləri müəyyənləşdirin.*
- ✓ *Mətndə yazı elementləri varmı? Əgər varsa, bu, yazının hansı tipi hesab edilməlidir? Fikirlərinizi əsaslandırın.*

Başqa məmləkətlərin birindən Teymurləngin yanına bir alim gəlir; tərcüməçi vasitəsilə bir çox söbət etdikdən sonra bu məmləkətin alimləri ilə görüşmək istədiyini bildirir. Teymur bütün alimləri yığır. Ancaq bu alimlərdən heç biri bu əcnəbi alimlə mübahisəyə girişməyə cəsarət eləmir. Axırda bunların bu qədər qorxduqlarını görən Molla müsahibəni öz boynuna götürür. Məclis qurulur. Əcnəbi alim yerdə bir dairə çəkib üzünü Mollaya tutur. Molla bir az fikirləşib dairəni iki yerə bölür. Görür alim danışmır. Bir cızıq da çəkib bölür dörd yerə, üç hissəsini özünə tərəf çəkir, bir hissəsini isə əcnəbi alimə verir kimi hərəkət eləyir. Əcnəbi alim razılaşır. Bundan sonra alim əlini arxası yerə doğru yumulu bir vəziyyətdə tutaraq Molladan cavab gözləyir. Molla da əlini tamamilə bunun əksinə, yəni barmaqlarını yerə doğru tutmaqla cavab verir. Alim buna da razı olur.

Uçuncu dəfə alim özünü işarə edərək yeyir kimi hərəkət göstərir. Molla da tez cibinnən bir yumurta çıxardır və qollarını quş qanadı kimi çırpır. Alim gülərək Mollanın əlindən öpür.

Molla gedir. Teymur tərcüməçi vasitəsilə alimə müraciət edərək soruşur:

– Bu işarələrdən biz heç bir şey anlamadıq.



**Alim deyir:**

– Dünya haqqında fikirlər müxtəlifdir. Mən yerdə o dairəni cızmaqla yer kürəsinin yumru olduğunu deyərək sizin alimin bu barədə fikrini bilmək istədim. Maşallah sizin alimə, tez kürənin ekvatorunu çəkdi, sonra dörd yerə bölərək üç hissəsinin su, bir hissəsinin quru olduğunu qeyd etdi. Sonra mən kürə üzərində olan bitkilərin həyatı haqqında onun fikrini bilmək istədim. Aliminiz buna da doğru cavab verdi. Bütün bitkilərin hamısının yağış və günəş şüaları vasitəsilə yaşadığını dedi. Üçüncü sual olaraq mən insanlar və heyvanlar haqqında onun fikrini bilmək istədikdə o, tez bir yumurta ilə quşların da bu cinsə aid olduqlarını mənim yadıma saldı.

Çap üçün deyil

Alim getdikdən sonra Teymur Mollanı çağırıb alimlə olan sual-cavab haqqında soruşur.

**Molla deyir:**

– Eh, alim… Mən də elə bildim ki, doğrudan da bir dərin adamdır. O lap sarsaq, qarınqulunun birisiymiş ki... Əvvəl yerdə bir dairə çəkib mənə dedi ki, ay indi burada bir tava qayğanaq ola idi. Mən də tez yarı bölüb dedim ki, hamısını sənə verməzlər, biz də varıq. Gördüm aşnam razı olmur. Tez bir də ortadan bölüb üç payını özüm götürdüm ki, "görməmişlik elərsən belə olar". Kişi gördü ki, qayğanaq əldən gedəcək, razı oldu. İkinci dəfə əlini göyə tutdu ki bir qazan plovla necəsən Mən də əlimi üzü aşağı tutub dedim Üstündə qarası olsa yeyərəm Üçüncü dəfə qarnını mənə göstərib dedi Yoldan gəlmişəm acam Mən də tez cibimdən yumurtanı çıxartdım ki canın üçün, mən özüm səndən də acam özü də cibimdə bircə dənə yumurta var heç üz vurma verə bilməyəcəyəm

***"Molla Nəsrəddin" lətifələrindən***



25. Məktəbinizdə "Yazı tiplərinin həyatımızda rolu" mövzusunda sorğu keçirin.

**SORĞU**

- ✓ Suallar tərtib edin.
- ✓ Müxtəlif ideoqrafk və piktoqrafik nümunələr hazırlayıb müsahibə götürəcəyiniz şəxsə təqdim etməklə onların nə olduğunu və gündəlik həyatımızda hansı əhəmiyyətə malik olduğunu soruşun.
- ✓ Sorğunun nəticələrini ümumiləşdirin.
- ✓ Müsabiqə keçirib ən yaxşı yazını müəyyənləşdirin, qəzetinizin "Maraqlı məlumatlar" bölməsində yerləşdirin.

✓ *Hazırladığınız materialların və məlumatların orfoqrafik cəhətdən səhvsiz və qrammatik baxımdan düzgün olmasına riayət edin.*

Çap üçün deyil

# 6

*Dostluğun qolları bir-birimizi dünyanın bir ucundan o biri ucuna kimi qucaqlaya biləcək qədər uzundur.*

***Mişel de Monten***
***fransız filosofu və yazıçısı***




1. Mətnin dili üzərində iş aparın.
   - Qüsurlu cümlələri seçib düzəliş edin.
   - Yeri gəldikcə iki cümləni bir cümlə şəklində də yaza bilərsiniz.
   - İlk abzasda səhv yazılmış sözləri müəyyənləşdirib düzgün yazın.
   - Mətndə işlədilmiş dırnaq və vergül işarələrinin düzgün qoyulub-qoyulmadığını araşdırın.

**ORFOEPİYA**

**Hansı düzdür?**

| | |
|---|---|
| ➤ [həfdə] | – [həftə] |
| ➤ [müəlim] | – [mə:llim] |
| ➤ [yaşayan] | – [yaşıyan] |
| ➤ [hərflərlə] | – [hərflərnən] |

Sizcə, müəllim niyə lent üçün məhz mavi rəngi seçir?

Nyu-Yorkda yaşayan bir müəllim liseyin son sinifindəki şagirdlərini mükafatlandırmağı qərara alır. Kaliforniya liseylərindəki bir təcrübədən isdifadə edərək şagirdlərini bir-bir (*lövhəyə, lövhə qarşısına*) çağırdı. Əvəlcə şagirdlərinə həm sinif yoldaşları, həm də onun üçün nə qədər qiymətdi olduxlarını dedi. Sonra da hər birinə üzərində (*qızıl, qızılı*) hərflərlə “Siz bizim üçün çox qiymətlisiniz” sözləri yazılmış bir neçə mavi lentlər verdi. Onlar da bu lentlərlə

Çap üçün deyil

başkalarını "mükafatlandıracaq" və nəticə barədə bir həfdə ərzində siniflərinə məlumat verəcəkdilər…

Şagirdlərdən biri yaxınlıqdakı şirkətin vəzifəli şəxslərindən birini "mükafatlandırmış", yaxasına mavi lent (*sancmışdı, taxmışdı*). Sonra da əlavə iki lent verərək: "Sinfimizdə bir layihə həyata keçiririk. Əgər mümkünsə, siz də istədiyiniz bir adamı mükafatlandırın və ona əlavə bir lent verin. Qoy o da başqasını mükafatlandırsın", – demişdi…

O gün həmin vəzifəli şəxs kobudluğu və acıdilliyi ilə tanınan (*müdürünü, müdirini*) mükafatlandırmağı qərara aldı. Müdirinin otağına girərək "dahi bir insan olduğu üçün" onu mükafatlandırmaq istədiyini bildirdi. Sonra da mavi lenti yaxasına sancmaq üçün icazə verib-vermədiyini soruşdu. Təəccübdən yerində donan müdir: "Əlbəttə ki, sanca bilərsiniz", – deyə cavab verdi. Vəzifəli şəxs mavi lenti müdirinin ürəyinin başına sancdıqdan sonra ikinci lenti verərək: "Siz də mənə bir yaxşılıq edin. Bu lentlə başqa birini mükafatlandırın", – dedi…

O gecə müdir evə qayıdanda on dörd yaşlı oğlunun yanında oturaraq: "Bu gün çox qəribə bir şey oldu", – dedi. Sonra da davam etdi: "Ofisdə idim. İşçilərimdən biri içəri girdi, mənim dahi olduğumu düşündüyü üçün yaxama bu lenti sancdı. Təsəvvür edirsən, dahi olduğum üçün… Üstəlik, "Siz bizim üçün çox qiymətlisiniz" yazılmış bu lenti ürəyimin başına sancdı. Sonra da mənə əlavə bir lent verərək başqa birini mükafatlandırmağı xahiş etdi. Maşınla evə gələndə bu mavi lenti kimə verəcəyimi düşündüm və ağlıma sən gəldin. Mən bu lenti sənə vermək istəyirəm. Çünki günlərim çox gərgin keçir. Evə gələndə sənə kifayət qədər vaxt ayıra bilmirəm. Bəzən dərslərindən aldığın qiymətlərdən razı qalmayanda, ya da otağını yığışdırmadığını görəndə üstünə qışqırıram. Ona görə də bu gecə yanında oturmaq və sənə "mənim üçün nə qədər qiymətli olduğunu" demək istədim. Anan kimi sən də mənim üçün çox qiymətlisən. Səni çox sevirəm…" Təəccübdən yerində donan uşaq qeyri-iradi ağlamağa başladı.

Bütün bədəni titrəyirdi. Başını qaldırdı və yaşlı gözləri ilə atasına baxaraq: "Ata... ata...", – dedi, – "Mən sənin… Mən sənin məni sevmədiyini düşünürdüm. Ancaq artıq hər şey başqadır. Ata, sən öz oğlunun… Sən öz oğlunun həyatını xilas etdin!.."

Nə üçün uşaq atasına həyatının xilas edildiyini deyir?

**"Ailəm" jurnalından, 2010-cu il, №6**

- ✓ ***Mətnin əvvəlində verilmiş şəkli şərh edin.***
- ✓ ***Sizcə, şəkil məzmuna uyğundurmu?***
- ✓ ***Siz mətn üçün necə şəkil çəkərdiniz?***

Çap üçün deyil

Yer üzündə ən çox rastlaşdığımız rənglərdən biri mavi rəngdir. Çünki başımızın üstündəki aydın səma və yayın ən qızmar çağında sularından istifadə etdiyimiz dənizlər mavi rəngdədir. Mavi səma və mavi dəniz azadlığı, dincliyi və sonsuzluğu ifadə edir. Mavi rəng sabit, insana rahatlıq və dinclik verən, istirahət gətirən bir rəngdir. Mavi rəng sülhü, sevgini, mənəvi yüksəkliyi, saflığı ifadə edir.

Mavi rəngi sevən insanlar isə, ümumiyyətlə, sakit, nizamlı, etibarlı, sədaqətli olanlardır.

Bu abzasın mətnlə nə kimi əlaqəsi vardır?

2. Mətnə ad qoyun, ideyasını M.Montenin fikri ilə (səh. 46) əlaqələndirin.
3. Niyə ata mavi lenti məhz oğluna verir?
4. Müəllimin mavi lenti şagirdlərinə verməkdə məqsədi nə idi?
   - Müəllim şagirdlərində insani keyfiyyətləri tərbiyə etmək istəyirdi.
   - Müəllim hər bir insanın cəmiyyətdə öz yeri olduğuna işarə edirdi.
   - Müəllim insan həyatında sözün əhəmiyyətli təsirini yoxlamaq istəyirdi.
   - Müəllim səmimi münasibətin cəmiyyətdə bir çox insani keyfiyyətlərin formalaşdıracağını əyani şəkildə şagirdlərinə göstərmək istəyirdi.
5. Aşağıdakı kəlamlardan daha çox hansı mətnin məzmunu ilə səsləşir?
   - Söz var, dağa qaldırar, söz var, dağdan endirər. (*Atalar sözü*)
   - Söz var, kəsər savaşı, söz var, kəsdirər başı. (*Atalar sözü*)
   - Təsirli söz əbədi, dəyərsiz söz puçdur. (*Sokrat*)
   - Söylənilən gözəl sözlərin bəhrəsi gələcəkdə görünər. (*M.Qandi*)
6. Mətndə hansı suala cavab var?
   - Müəllim hansı liseyin təcrübəsindən istifadə edir?
   - Sagirdlərin keçirdiyi layihə necə adlanırdı?
   - Ata nə üçün mavi lenti övladına verir?
   - Mavi lentlə kimlər mükafatlandırılmalı idilər?
7. Sizcə, müəllimin mavi lenti şagirdlərinə paylayaraq digər şəxslərə ötürülməsini tövsiyə etməkdə məqsədi nə idi?

Çap üçün deyil

8. Nə üçün vəzifəli şəxs məhz acıdil müdirini mükafatlandırmaq qərarına gəldi?
9. Müəllimin öz fikirlərini lent vasitəsilə çatdırması yazının tipi hesab edilə bilərmi?
10. Sizə belə bir lent verilsə idi, onunla kimi mükafatlandırardınız? Nə üçün?
11. Azərbaycan bayrağı və gerbindəki rənglərin ifadə etdiyi məna haqqında danışın.

✓ *Azərbaycan bayrağının və gerbinin üzərində olan rəng və şəkillər, fiqurlar yazıya nümunə ola bilərmi? Niyə?*



12. Hansı sözlər mətn üçün açar söz ola bilər?
13. Mətndə mötərizədə verilmiş sözlərdən hansı seçilsə, daha düzgün olar?
14. *Kobud* sözünün antonimini tapın.
15. *Mükafat* və *hədiyyə* sözlərini sinonim hesab etmək olarmı? Həmin sözləri cümlədə işlətməklə fikirlərinizi əsaslandırın.
16. Rəngli çərçivədəki sözləri digər sözlərlə düzgün əlaqələndirin.

torpaq ______

yarpaq ______

**a** Üstündə

Su _*b*_

**b** Üzərində

stol ______

divan ______

kağız ______

17. *Təcrübə* sözünün hansı mənası mətndəki mənasına uyğun gəlir?
   - Həyatdan, praktik fəaliyyətdən əldə edilmiş biliklərin məcmusu.
   - Hər hansı nəticələrin praktik işdə tətbiqi.
   - Sınaq, yoxlama.

Çap üçün deyil

Dil və nitq bir-biri ilə sıx bağlıdır. Ünsiyyət prosesi olan nitq dilin ifadə imkanları əsasında meydana çıxır. Nitq dildən törəyir, dinləyib-anlama, danışma, oxu və yazı formalarında təzahür edir. Hər bir nitq ədəbi dilin fonetik, leksik, qrammatik qayda-qanunlarına tabedir.

Hər birimiz ədəbi dilin normalarına riayət etməliyik. Nitq mədəniyyətinin ən mühüm tələbi də budur.




**Qrammatik norma**

*Miqdar saylarından sonra gələn isimlər, adətən, təkdə işlənir (altı dəftər).*

*Adlara əvvəl cəm, sonra mənsubiyyət, daha sonra hal və xəbərlik şəkilçiləri artırılır (şairlərimizdəndir).*

*Mübtəda ilə xəbər şəxsə və kəmiyyətə görə uzlaşır (Mən oxuyuram; Onlar oxuyurlar).*

*Cümlədə əvvəl mübtəda, sonra tamamlıq, zərflik və sonda xəbər gəlir. Təyin təyin etdiyi hər bir cümlə üzvündən əvvəl gəlir.*

Dilimizin saflığını və zənginliyini qorumaq hamımızın vətəndaşlıq borcudur.

Çap üçün deyil

18. Mətnin (səh. 46) 1-ci abzasında altından xətt çəkilmiş birləşmədə nə düzgün deyildir?

19. Mətndə (səh. 47) altından xətt çəkilmiş cümlələri seçib cədvələ əsasən işləyin.

Nümunə:

| **Mətndə verilmişdir** | **Müəlliflərin təqdimində** | **Sizin təklifiniz** |
|---|---|---|
| Sonra da mavi lenti yaxasına sancmaq üçün icazə verib-vermədiyini soruşdu. | Sonra da mavi lenti yaxasına taxmaq üçün icazə istədi. | |
| Nyu-Yorkda yaşayan bir müəllim liseyin son sinfindəki şagirdlərini mükafatlandırmağı qərara alır. Kaliforniya liseylərindəki bir təcrübədən istifadə edərək şagirdlərini bir-bir lövhə qarşısına çağırdı. | Nyu-Yorkda yaşayan bir müəllim Kaliforniya liseylərində təcrübədən keçən bir üsuldan istifadə etməklə şagirdlərini mükafatlandırmağı qərara alır. | |
| ... | ... | |
| ... | ... | |

20. İstənilən qəzet və ya jurnaldan ixtiyari bir mətn seçin. Mətnin dili üzərində iş aparın. Bunun üçün aşağıdakı ardıcıllığa riayət edin:

- Mətnin yazı formasını (bədii, elmi və s.) müəyyənləşdirin.
- Mətndə orfoqrafik səhvləri müəyyənləşdirin.
- Mətndə durğu işarələri və sözün sətirdən-sətrə keçirilməsində olan səhvləri (əgər varsa) müəyyənləşdirin.
- Cümlələrdə təkrar işlənən söz və ifadələri (əgər varsa) seçin.
- Yerində düzgün işlədilməyən söz və ifadələri daha düzgün olanlarla əvəz edin.
- Mətnin oxunaqlılığına ağırlıq gətirən söz və ifadələri seçib uyğun bildiyiniz sözlərlə əvəz edin.
- Mübtəda ilə xəbərin uzlaşmasına, söz sırasına, sözlərin düzgün əlaqələnməsinə diqqət yetirin.

Çap üçün deyil

1 QEYRİ-ADİ SƏTTAR
2 VARDIR
3 ZÜMRÜD GÖZLÜ GÖZƏLLƏR...
4 AZƏRBAYCAN TORPAĞI
5 DƏNİZDƏN BÖYÜK
6 QARTAL

# Təbiət və biz

Çap üçün deyil



Gəlin təbiəti biz də düşünək
O özü hər şeyi düşünən kimi.

**Hüseyn Arif**

Bizi əhatə edən ətraf aləm gözəl təbiət mənzərələri ilə zəngindir. Rəssam da, bəstəkar da, şair də öz əsərlərində təbiətin min bir gözəlliyini vəsf edir.

Bölməni oxuyarkən aşağıdakı sualları cavablandırın:

- *Biz təbiət haqqında düşünə bilirikmi?*
- *"Təbiəti sevən insan mənən zəngin olur, vətənini sonsuz məhəbbətlə sevir" fikri ilə razısınızmı?*
- *Əgər təbiətin nizamı pozularsa, nələr baş verər?*
- *Sizcə, bu nizamın pozulmasının qarşısını almaq olarmı?*

Çap üçün deyil

1

# QEYRİ-ADİ SƏTTAR

**ORFOQRAFİYA**

- Qırmızı rəngdə verilmiş cümlələrdə bu sözlərdən hansı yazılmalıdır?

1 Salyanda – Səlyanda
2 doğrudanmı – doğurdanmı
3 Göygöl – Göy göl

**ORFOEPİYA**

- rəssam – [...............]
- yaddaş – [...............]
- hissiyyat – [...............]
- gözəllik – [...............]

Səttar Bəhlulzadə bütün ömrünü Azərbaycan təbiətinin vəsfinə (*yönəltmişdir, həsr etmişdir*). Rəssamın Abşerona və Qubaya həsr olunmuş qeyri-adi silsilə mənzərə əsərləri: “Qudyalçay vadisi”, “Qızbənövşəyə gedən yol”, “Bağlar arasında”, “Qudyalçay sahili”, “Yaşıl xalı”, “Payız”, “Şahdağın ətəyində” Azərbaycanın təsviri **sənət**ində böyük bir yaradıcılıq hadisəsinə çevrilib geniş əks-səda (*doğurmuşdur, yaratmışdır*).

Mən Səttarın emalatxanasına girəndən gördüyüm həmin silsilələrin davamı olan tabloların, bu tablolarda istifadə edilmiş qeyri-adi rənglərin təsiri altında idim. Öz-özümə fikirləşirdim: Görəsən həqiqətənmi Azərbaycanda belə yerlər var. Bəlkə heç elə deyil rəssamın özü Azərbaycanı belə görmək istəyir Bəlkə bu sadəcə olaraq rəssam fantaziyasının rəng vəhdətindən yaranmış təzahürüdür



“Qudyalçay vadisi”

Çap üçün deyil

Sualların və bəlkələrin sayı get-gedə (*artırdı, çoxalırdı*). Elə buna görə də bir az şübhə ilə rəssama üz tutdum:

– Səttar müəllim, Azərbaycanda, ..., belə yerlər var?

O mənim şübhələrimə son qoymaq üçün inamla dilləndi:

– Mən, demək olar ki, Azərbaycanı qarış-qarış gəzmişəm və təbiətinə də yaxşı bələdəm. Azərbaycanda bunlardan da gözəl, bunlardan da cazibədar yerlər var. Sadəcə olaraq, bu yerlərdə, bu gözəlliklər arasında yaşayanlar həmin gözəllikləri görə bilmirlər. Bu gözəllikləri görmək üçün, sadəcə olaraq, yeni göz gərəkdir.

Yeni bir sualla təzədən ona müraciət etdim:

– Bu gördüyümüz mənzərələri respublikanın hansı guşələrində çəkmisiniz?

O, ani fikrə gedib sonra **tablo**ların fırçaya alındığı yerlərin adlarını sadaladı:

– Onların arasında Abşeronda, Qubada, Dəvəçidə, İsmayıllıda, Şamaxıda, ... tərəflərdə, eləcə də Naxçıvanda, Şuşada, ... **kətan**a köçürülənlər var…

Salyanın adını eşidəndə özümdən asılı olmayaraq dodaqlarım qaçdı. Göz yaddaşı iti, hissiyyatı güclü olan rəssam bunu o saat hiss edib dilləndi:

– *Bəli, bəli, təəccüb etməyin, tablolarımın arasında elələri var ki, Salyanda kətana köçürülüb. Amma çoxları hələ elə fikirləşirlər ki, mənim bütün əsərlərim ..., Qubada yaranır. Əlbəttə, buna əsas səbəb əvvəllər həmin bölgələrdə yaranmış və böyük əks-səda doğurmuş əsərlərimdir. Bilirsiniz, hər yerdə həm gözəllik var, həm də ecazkar musiqililik.* Yenə təkrar edirəm, bunları görüb qavramaq üçün, sadəcə olaraq, yeni göz və qulaq gərəkdir.

Rəssamın tablolarında gördüyüm qeyri-ənənəvi və qeyri-adi rəng çalarları, xüsusən ağ, çəhrayı, sarı rənglər diqqətimi daha çox (*çəkdiyindən, cəlb etdiyindən*) məndə o rənglər barədə bilgi əldə etmək marağı yaranmışdı. Ona görə soruşdum:

– Səttar müəllim, sizin işlətdiyiniz rənglər qeyri-ənənəvi rənglərdir. Siz bu rəngləri necə əldə edirsiniz?

Cavabı birmənalı oldu:

– Mən heç bir rəng-zad kəşf etməmişəm. Əsərlərimdə gördüyünüz bu rəngləri Azərbaycanın ayrı-ayrı yerlərinin təbiətində görmüşəm. Sonra on-on beş rəngi bir-birinə qatıb həmin çalarları almışam. Necə deyərlər, bir növ təbiəti yamsılamışam...

**Möhbəddin Səmədin “Adi və qeyri-adi Səttar Bəhlulzadə” kitabından**

- Tabloda gördüklərinizi şifahi şəkildə təsvir edin.
- Necə düşünürsünüz, “Qudyalçay vadisi” tablosunda, həqiqətənmi, rənglərin qeyri-adiliyi özünü qabarıq şəkildə göstərir?
- Şəkil əsasında təsviri esse yazın.

Çap üçün deyil

1. Bu parça mətnin hansı hissəsinə aydınlıq gətirə bilər?

Salyanda təbiətin rəngləri başqa yerin rənglərinə oxşamır. Burada rənglər sanki bir-biri ilə öcəşir. Səhər Kürün rəngi od kimi olur, gündüz bulanır, axşamlar isə qırmızımtıl rəng alır. Muğanda insanla təbiət arasındakı münasibət parlaq boyalarda öz əksini tapır. Qızmar günəşin bütün şiddətini, torpağın qüdrətini, insan əməyinin əzəmətini burada daha aydın görürsən. Yaz vaxtı Kür sahilinin, Muğan düzünün səhəri də, günortası da, axşamı da gözəl olur, xüsusən ikindi çağı. Ot çalınan zaman düzdən keçəndə elə bil xəyal aləmində gəzirsən. Hər tərəf ləlezardır, ətirdən, xoş rayihədən adam bihuş olur. Pambıq tarlaları da, zəmiləri də, şütüyüb qaçan ceyranlar da, göydə süzən quşlar da təbiətlə adamlar arasındakı bir tarazlığı, ahəngdarlığı xatırladır...

***Möhbəddin Səmədin***
***“Adi və qeyri-adi Səttar Bəhlulzadə” kitabından***


S.Bəhlulzadə. “Muğanda bahar”

2. Şəkillər əsasında Azərbaycan təbiətini bir-iki cümlə ilə xarakterizə edin.

Çap üçün deyil

3. "Qeyri-adi Səttar" mətninin nəqli, yaxud təsviri mətn olduğunu müəyyənləşdirin.

4. Mətnə əsasən "rəssamın tabloları təbiətlə bizim aramızda ünsiyyət yaradır" demək olarmı? Niyə belə hesab edirsiniz?

5. Mətnə əsasən S.Bəhlulzadə ilə mətn müəllifinin şəxsi keyfiyyətlərini müəyyənləşdirin.

6. Şəkillər üzərində iş aparıb S.Bəhlulzadənin rəng dilinə münasibət bildirin. Sizcə, həmin rənglərin qeyri-adiliyi nədədir?

7. Siz Azərbaycanın hansı guşəsini daha çox bəyənirsiniz? Nə üçün? Həmin yerin rəng çalarları barədə danışın. Cümlələrinizin düzgün qurulmasına çalışın.

Bəyəndiyiniz ərazi haqqında təqdimat və ya məlumat hazırlayıb sosial şəbəkələrdə yerləşdirin.

Hamını Azərbaycan təbiətinin ecazkar gözəllikləri ilə tanış edin. Eyni zamanda bu gözəlliyi qorumağa çalışın.

8. *Fantaziya* və *təxəyyül* sözlərini dil paraleli (*eyni leksik mənaya malik sözün mənşəcə müxtəlifliyi*) hesab etmək olarmı?

9. Mətndə tünd şriftlə verilmiş sözlərin leksik mənalarını düzgün müəyyənləşdirin.
   - müəyyən hazırlıq tələb edən və sahibinin yaşaması üçün əsas mənbə sayılan əmək fəaliyyətinin bir növü.
   - iri şəkil
   - bitki liflərindən hazırlanan parça

10. *Rəng çalarları, böyük əks-səda, rəssam fantaziyası* birləşmələrinin leksik mənalarını müəyyənləşdirib cümlədə işlədin.

11. *Bilik* və *bilgi* sözləri arasında məna fərqi varmı? Fikrinizi əsaslandırın.

12. *Silsilə* sözünün hansı mənası mətndəkinə uyğundur?
   - bir-birinə bitişərək sıra təşkil edən obyekt;
   - keçmişdə qadınların başlarına taxdıqları bir-birinə keçirilmiş halqaşəkilli bəzək;
   - nəyin isə ardıcıl icrası;
   - şəcərə, nəsil.

13. *Dodaqları qaçdı* frazeoloji birləşməsini hansı sözlə əvəz etsək, cümlənin məzmununa xələl gəlməz?

Çap üçün deyil

14. Mətndə (səh. 54) altından xətt çəkilmiş cümlədə durğu işarələrini bərpa edin. Səbəbini izah edin.
15. Mətndə (səh. 55) kursivlə verilmiş abzasda durğu işarələrinin düzgün işlənməsini sübut edin. Həmin abzasda tabeli və tabesiz mürəkkəb cümləları fərqləndirin. Cümlələri sadə cümləyə çevirin.
16. Rəssama verilən suallarla onun cavablarını dil baxımından müqayisə edin. Fərq varmı? Əgər varsa, bu fərqi nədə görürsünüz?
17. Mətndə (səh. 55) çərçivəyə alınmış cümləni sintaktik təhlil edin.
18. Mətndə mötərizədə verilmiş sözlərdən hansı işlənsə, daha düzgün olar?
19. "Mətnin dili sadə və anlaşıqlıdır" fikri ilə razısınızmı? Niyə?

Yəqin ki, xeyli bədii əsər oxuyur və oxuduğunuz əsərlər haqqında tez-tez belə cümlələrə rast gəlirsiniz: "Yazıçının üslubu budur" və yaxud "Filan yazıçı filan üslubda yazır" və s. Üslub dedikdə dil vahidlərindən məqsədəmüvafiq istifadə etmək nəzərdə tutulur.

Üslublar müxtəlif olur: bədii üslub, elmi üslub, publisistik üslub, məişət üslubu, rəsmi üslub.

20. Cümlələrdə buraxılmış hərfləri bərpa edin.

Dahilərdən söz düşdü, Le...nard... da Vinçini ...atırladım. O deyib ki, tarixi qədim və zəngin olan xalq həm ...üdrətli, həm də yenilməz xalqdır. Albert Şveyser isə ondan çox-çox sonralar belə təkrarl...yıb: "Bu və ya digər ölkələrdə milli mədəniyyətlərin yü...sək inkişafı həmin ölkə xalqlarının fəlsəfi dünya...örüşlərinin, es...etik ba...ışlarının daha yet...in və kamil olmasını göstərir".

21. Cümlələri orfoepik qaydalara uyğun yazın.

Xurşidbanu Natəvan həm şair, həm də istedadlı rəssam olub. Onun dövrümüzə qədər gəlib çatmış bədii tikmələri insanları indi də valeh edir. 1886-cı ildə tərtib etdiyi "Gül dəftəri" adlı rəsm albomunda toplanan rəsmlər, əsasən, Şərq üslubunda işlənmiş ornamentlər və natürmortlardan ibarətdir. Qarabağ xalçaları və tikmələrində olan naxışlar al-əlvanlığı ilə insanları riqqətə gətirir və yəqin ki, bu ornamentlərin yaradılmasında Natəvanın da xidmətləri olub.

Çap üçün deyil

22. Mətni oxuyub tapşırıqları yerinə yetirin.

- ✓ *Fərqləndirilmiş cümlədə tire işarəsinin işlənmə səbəbini izah edin.*
- ✓ *Altından xətt çəkilmiş cümləni elə dəyişin ki, o, III şəxsin dilindən verilsin.*
- ✓ *Tünd şriftlə verilmiş cümləni mürəkkəb cümlə şəklində yazın.*
- ✓ *Mətndə səhv yazılmış sözləri müəyyənləşdirib düzgün yazın.*

"Təxminən XIX əsrin ikinci yarısında Natəvanın əmisi qızı Məşədi Münəvvər xanımın əri Nəcəfqulu bəyi düşmənnəri öldürəndən sonra Xan qızı qohumlarını öz himayəsinə alır. *Münəvvər xanımın dörd uşağından ikisini – oğlanları Qəzənfər və İbrahimi yanına aparıb oxutdurur*. Xan qızı həmin vaxtlarda tikib qurtardığı yaraşıqlı köynəyi Münəvvər xanıma bağışlayır. Natəvanın saxladığı uşaqlardan böyüyü Qəzənfər əvvəl Şuşada, daha sonra isə Rusiyada təhsilini başa vurub qayıdır. Bundan sonra Münəvvər xanım oğlunu qardaşı qızı Asya bəyimlə, yəni mənim anamla evləndirir və Xan qızının yadigarı kimi həmin köynəyi gəlininə bağışlayır. Asya xanımın böyük qızı Şəhla – mənim bacım 1945-ci ildə Ağdamdakı ikiillik Pedaqoji İnistitutda təhsil aldığı dövrdə köynəyi anasından nəslin yadigarı kimi qəbul edib saxlayıb və sonra mənə hədiyyə edib. Zərif parçadandır, yaxalığı milli naxışlarla işlənən köynəyin təxminən 125 yaşı var. Köynəkdə papiros külünün yandırdığı yerə Natəvan elə yamaq vurub ki, bunu heç kim sezə bilməz. 1950-ci ilə qədər köynəyin yaxasında dörd iri brilyant qaş olub. Şairənin 180 illik yubileyi ərəfəsində köynək Azərbaycan Tarixi Muzeyinə hədiyyə edilib".



Xan qızının yadigarlarından biri də təxminən 150 yaşı, maraqlı hekayəti olan fərməşdir (*toxunma sandıq*). **1885-ci ildə Xurşudbanu əmisi nəvəsi Qəzənfər ağanı başqa ölkəyə oxumağa göndərəndə yorğan-döşəyini yığmaq üçün öz evindəki fərməşlərdən birini ona hədiyyə edib.** Qəzənfər ağa ondan düz ötən əsrin 70-ci illərinə qədər istifadə edib. Natəvanın xatirələri hopmuş fərməş hazırda Sevil xanımın oğlu Novruz İbrahimoğlundadır və qayğı ilə qorunub saxlanılır.



***Sevil Cavanşir-Novruzovanın xatirələri əsasında Novruz İbrahimoğlu***
***"Təzadlar" qəzetindən, 2012-ci il***

Çap üçün deyil

2

# VARDIR

*(ixtisarla)*

Bir bax gül-çiçəklər qucaq-qucaqdır,
Elə bil hər gülün çətri başqadır.
İnanma, desələr, torpaq torpaqdır
Vətən torpağının ətri başqadır.

***Nəbi Xəzri***

Burda hər meşənin min bir ağacı,
Burda hər ağacın yamyaşıl tacı,
Burda hər tac üstə sarmaşıq saçı,
Hər saçın küləkdən darağı vardır.

Burda hər budağın şeyda bülbülü,
Burda hər bülbülün qönçə bir gülü,
Burda hər qönçənin yaşıl bir tülü,
Hər tülün xırdaca saçağı vardır.

Burda hər yamacın çiçəkdir daşı,
Burda hər çiçəyin şehdir göz yaşı.
Burda şeh damlası bir üzük qaşı,
Hər qaşın qızılı qurşağı vardır.

Burda sərər düzə lalələr xalı,
Burda hər xalının qara bir xalı.
Hər xalda şirin bir şair xəyalı,
Burda hər xəyalın oylağı vardır.

Burda qayaların daşdır suvağı,
Burda hər daş üstə qartal caynağı.
Caynaqlı hər daşın bir buz bulağı
Burda hər bulağın qonağı vardır.

Harda bu saydığım gözəllik olsa,
Orda Azərbaycan torpağı vardır.

**Musa Yaqub**

## ORFOQRAFİYA

➤ Misraların əvvəlində işlənən sözlərdən hansının yazılışı səhvdir?

## ORFOEPİYA

➤ Altından xətt çəkilmiş söz və söz birləşməsində *q* və *k* səslərinin düzgün tələffüzünü yazın.

Çap üçün deyil

1. Bu əfsanə hansı bəndin mənasını izah etməyə kömək edər?



S.Bəhlulzadə. "Lalələr"

Deyirlər ki, Lalə gözəllikdə, ağıl-kamalda tayı-bərabəri olmayan bir qız imiş. Laləni ürəkdən sevdiyi bir oğlana nişanlayırlar. Günlər ötdükcə Lalə daha şən, daha gözəl, daha qəşəng olur.

Bir gün Laləgilin yaşadığı şəhəri düşmənlər zəbt edirlər. Şəhərin hökmdarı adamları müharibəyə çağırır: "Xoşbəxtlik, səadət, var, dövlət yurdun azadlığıdır. Kim ömrünün axırına kimi firavan yaşamaq istəyirsə, hökmən qılınc götürüb döyüşə girməlidir".

Lalə sevgilisindən ayrılmalı olur. Son anda nişanlısı Laləyə deyir: – Mən hökmən baharda qayıdacağam!

Müharibə bitir. Lalə həsrətlə baharı gözləyir. Nəhayət, güllü-çiçəkli bahar da gəlir. Lalə sevgilisini qarşılamaq üçün qıpqırmızı donunu geyinib yol kənarında əyləşir, həsrətlə gözlərini uzaqlara dikir. Lalə çox gözləyir, lakin sevgilisini "gördüm" deyən olmur. Düzlərə, çəmənlərə düşür, sevdiyini axtarır. Yaşıl bir çəməndə nişanlısının qanlı dəbilqəsini tapır. Dərd əlindən Lalənin bağrı qapqara qaralır. O, ayrılığa dözmür, onu gülə və ya quşa döndərmək üçün Allaha yalvarır. Lalənin fəryadına dözməyən göylər onu qıpqırmızı donundaca çiçəyə döndərir. Elə o vaxtdan lalə yalnız bahar gələndə düzənliklərdə, yol kənarında, dağların döşündə bitir, torpaqdan ayrılan kimi solur.

***Sədnik Paşayevin "Azərbaycan türklərinin xalq əfsanələri" kitabındakı "Lalə" əfsanəsi əsasında***

2. M.Yaqubun Azərbaycan təbiətinə vurğunluğu nə ilə bağlıdır?
3. Hər misranın əvvəlində "burda" sözünün təkrarlanması şeirdə sünilik yaratmır ki? Niyə?
4. Hər iki mətni (*"Qeyri-adi Səttar"* və *"Vardır"*) müqayisə edin. Sizcə, onlardan hansı bədii mətn hesab edilməlidir? Fikirlərinizi əsaslandırın.
5. Şeirin bəyəndiyiniz hər hansı bir bəndi əsasında şəkil çəkin. Çəkdiyiniz şəkil bəndin məzmununu aça bildimi? Rəsmlərdən birini seçib onun haqqında rəy yazın.

Çap üçün deyil

6. “Lalə” əfsanəsindən hansı mənəvi keyfiyyətləri öyrəndiniz?

7. Əfsanədə lalə gülü ilə bağlı hansı real faktlar var?

8. Nəbi Xəzridən verilmiş epiqrafla Musa Yaqubun şeiri arasında hansı əlaqə vardır?

9. Şair bütün gözəlliklərin Azərbaycan torpağında olması ilə nəyi diqqətə çatdırır?

10. Sxem əsasında S.Bəhlulzadə ilə M.Yaqubun Azərbaycan təbiəti ilə bağlı fikirlərini müqayisə edin və fikirlərinizi ümumiləşdirin.




11. *Qaş* sözünün omonimliyini nümunələrlə əsaslandırın.

12. Sxemi tamamlayın.




✓ *Şeirdə bu qrammatik formalardan hansı işlənmişdir?*

✓ *“Düz” sözünün məcazi mənasını müəyyənləşdirib cümlədə işlədin.*




13.




Çap üçün deyil

14. Şeirin 1-ci bəndində 1, yoxsa 4 cümlə vardır? Fikirlərinizi sübut edin.

15. Şeirin 3-cü bəndində şair hansı bənzətmələrdən istifadə etmişdir? Onlardan istifadə etməkdə şairin məqsədi nədir? Həmin bənzətmələri seçib yazın.

16. Şeirin son iki misrasındakı cümlənin quruluşuna görə növünü müəyyənləşdirin. Sonra sxemini qurun.

17. Cədvəldən istifadə etməklə 4-cü bənddəki cümlələri söz sırasına uyğun yazın. Sonra cümlələri müqayisə edin.

| Söz sırası pozulmuş cümlələr | Söz sırası pozulmayan cümlələr |
| --- | --- |
| *Nümunə:*<br>Burada hər çiçəyin şehdir göz yaşı. | Hər çiçəyin göz yaşı burada şehdir. |

✓ *Sizcə, nə üçün şeirlərdə söz sırası pozulur?*

18. Bədii mətnləri (*"Vardır" şeiri ilə "Köç" hekayəsini*) üslub baxımından müqayisə edin. Hekayədə söz sırası pozulmuş cümlələr varmı?

Artıq şəhərin iri, geniş küçələri ilə gedirik. Hər zaman gözümüzün alışdığı geniş küçələr, böyük evlər, iri şüşəli mağazalar...

Araba şəhərdən çıxarkən günəş yenicə çırtır, şərqi bürüyən qırmızılıqdan üfüqlərdəki dağ silsiləsi kimi görünən buludlar əlvan rənglərə boyanırdı.

Şəhərin tozlu, gurultulu küçələrindən, isti havasından get-gedə uzaqlaşırdıq.

Arabamız iki tərəfi ağac, əkin və bostanla bəzənmiş bir yolla gedirdi.

Azərbaycan!.. Doğma vətənimin gözəl təbiəti vardır. Səhərlərə məxsus olan nəsimdən arabir yarpaqlar qımıldanır, tarlalara, təpələrə, çöllərə xalı kimi döşənmiş lətif, yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanır, yaşıl yarpaqlar arasına sığınmış quşcuğazlar səs-səsə verib ötüşürdü. Göz işlədikcə açıqlıq, yaşıllıq, dərəlik, təpəlik, irəlilədikcə qarşımızda bir-birindən daha gözəl təbiət, daha canlı lövhələr açılır. İri, kələ-kötür, ətəkləri qaratikan kolları ilə döşənmiş dağlar arasından yuxarı qalxdıqca təbiət və hava bütün başqalaşır. İnsan ürək dolusu nəfəs alır.

Yumşaq otların, əlvan çiçəklərin, dağ nanələrinin gözəl qoxusundan insan bihuş olurdu. Dağların ardı-arası kəsilmir, zəncir kimi bir-birinə hörülmüş, bir-birini qucaqlamış kimi durur. Qocaman bir dağın təpəsinə qalxdıq. Qarşımıza daha böyük bir dağ çıxdı. Bu dağı da aşdıq, çiçəklər səltənəti kimi bir açıqlığa çıxdıq. Bu yer qalın, sıx meşəlik, çılpaq qayalıq, uçurumlu dərələrlə qucaqlaşmışdı. Uzaqda bir təpə ətəyində beş-on alaçıqdan ibarət bir oba görünürdü.

***Abdulla Şaiqin "Köç" hekayəsindən, ixtisarla***

Çap üçün deyil

✓ *Cədvəl əsasında mətnlərin oxşar və fərqli cəhətlərini müəyyənləşdirin.*

| Azərbaycan təbiətinin təsviri | | |
|---|---|---|
| | yazıçı qələmində | şair qələmində |
| oxşar cəhətləri | | |
| fərqli cəhətləri | | |

✓ *“Hər iki mətn bədii üslubdadır” fikri ilə razısınızmı? Fikirlərinizi sübut etməyə çalışın.*

✓ *İlk cümlədə üç nöqtə işarəsinin işlənmə səbəbi nədir?*

✓ *Altından xətt çəkilmiş cümləni sintaktik təhlil edin.*

19. Aşağıdakı fikirlərə münasibət bildirib ya təsdiq, ya da inkar edin. Fikrinizi sübut edin.

“Vardır” şeirini,
“Lalə” əfsanəsini,
“Köç” hekayəsini

müqayisə edib bu nəticəyə gəldik ki,

**Müəllif yanaşması**

- Mətnlərin dili sadə və anlaşıqlıdır.
- Bədii mətnlərdə məcazi mənalı sözlərdən, bədiilik yaradan ifadələrdən istifadə edilir.
- Bədii mətnlərdə təsvirlərdən geniş istifadə olunur.

**Sizin yanaşmanız**

-
-
-

Çap üçün deyil

Bədii üslub əsas üslublardan biridir və danışıq dilinə yaxındır. Sənətkarlar xalq dilindən götürülmüş sözləri bədii əsərdə işlədərkən onlara müxtəlif məqamlarda müxtəlif mənalar verməklə fikri qüvvətləndirirlər.

*Məsələn*:

- Uşaqlar həyətdə *od* qaladılar.

- Azərbaycan – adın *od*dur.
  Özün – işıq, sözün işıq.
  Biz də sənin bu müqəddəs
  torpağından boy atmışıq. *(Bəxtiyar Vahabzadə)*

Birinci nümunədə *od* sözü həqiqi mənasında işlənmiş, ikinci nümunədə isə şair bədiilik yaradaraq Azərbaycan sözünü *od* sözü ilə qarşılaşdırmış, od kimi vətəninin də əbədi yaşayacağına işarə etmişdir.

20. Nöqtələrin yerinə buraxılmış sözləri bərpa edin. Bərpa etdiyiniz sözlərin qrammatik mənasını müəyyənləşdirin.

*salamat qalmaq, qüsursuz, dinləyicilər*

Bir dəfə Paqanininin düşmənləri konsert ərəfəsində onun skripkasının simlərini zədələyirlər. Nəticədə çıxış zamanı alətin üç simi qırılır. Lakin buna baxmayaraq, Paqanini ... bircə simlə konsert proqramını həmişəki kimi ... ifa etmiş, hətta ... bu hadisədən heç xəbər də tutmamışdılar.

✓ *Bu kiçik parçanı elə dəyişin ki, bədii üslubda olsun.*

***Nümunə:***

*Sabah Paqanininin solo konserti vardı. O bu konsertə ciddi hazırlaşırdı. Lakin düşmənlərin ona qurduğu tələdən xəbəri yox idi.*

*Davam etdirin.*

21. “Təbiəti necə qoruyuruq” adlı mühakimə xarakterli təqdimat hazırlayın.

Çap üçün deyil

3

## ZÜMRÜD GÖZLÜ GÖZƏLLƏR...

*(ixtisarla)*

Onu necə adlandırmağımız, əslində, ona münasibətimizin və məqsədimizin göstəricisidir. Biz meşələrə "planetin yaşıl örtüyü", "bəşəriyyətin ağ ciyəri" də deyə bilərik, "xammal bazası", "(*canlı, diri*) orqanizmlərin ən çox mövcud olduğu məkan" da, yaxud şairlərin dediyi kimi, "zümrüd gözlü gözəl" də...

Ancaq unutmamalıyıq ki, meşələrimiz, hər şeydən əvvəl, canlı orqanizmdir. Onun bizə (*bağışladığı, hədiyyə etdiyi*) hər şey: gözəllik də, rahatlıq da, özümüzlə baş-başa qalmaq imkanı da.. ancaq bu canlılıqdan xəbər verir.

Meşələr təkcə ekoloji anlamda əhəmiyyət daşımırlar. Onlar həmçinin bəşəriyyətin tarixi, yaranışı, mənəvi-mədəni sərvətlərinin başlanğıcı kimi də öyrənilməli və araşdırılmalıdırlar. Qədim sivilizasiyaların məhv olma səbəblərindən biri kimi meşələrin qırılması faktını da (*göstərirlər, qeyd edirlər*). Məsələn, Mesopotamiya, Aralıq dənizi, Mərkəzi Amerikanın qədim mədəniyyətləri məhz bu şəkildə Yer üzündən silinmiş(lər, dir).

Meşələr nə qədər çox ərazini əhatə edərsə, bəşəriyyətə bir o qədər çox xeyir ver(əcək, ər). Lakin nədənsə biz insanların fəaliyyətində və yaşamında onu əsir etmək və məhv etmək, satmaq və gəlir götürmək xüsusiyyəti daha qabarıq müşahidə edilir. Bu isə o deməkdir ki, təbiətə vurduğumuz ziyanın içərisində meşələrə dəyən (*zərbə, ziyan*) xüsusi yeri tutur. 1

Statistikaya nəzər sal(dıqda, saq) görərik ki, bütün dünyada meşə örtüyünün azalma prosesi gedir. Hər il təxminən 4,3 milyon hektar meşə sahəsi xəritədən silinir. BMT-nin apardığı araşdırmaların nəticələrinə görə, təkcə 2000–2005-ci illər arasında 229 ölkədə 7,3 milyon hektar meşə sahəsi yox olub. Bir sözlə, bir zamanlar Yer kürəsini bürümüş yaşıl meşə zolaqlarının, demək olar ki, yarısı artıq yoxdur. 2

Sizcə, meşələrin böyük hissəsinin yox olması nə ilə bağlıdır?

Tədqiqatlar göstərir ki, insan ayağının dəymədiyi meşələrdə özünübərpa xüsusiyyəti aktiv olur. Elə canlılar var ki, məhz belə meşələrin dərinliklərində yaşaya bilirlər. Məsələn, xal-xal bayquş ancaq qədim meşələrdə, ağacların kəsilmədiyi yerlərdə, yıxılmamış, amma artıq ölmüş ağaclarda yuva qururlar. Bir çox meşələrdə hələ də bir qrup insanlar tərəfindən ağaclar qırıldığı üçün orada yaşayan canlılar azalmağa və sıradan çıxmağa başlayırlar. 3

Çap üçün deyil

Azərbaycan meşələri Yer kürəsində mövcud meşələrin çox az bir hissəsidir. Bir zamanlar, daha doğrusu, 18–19-cu əsrlərdə Azərbaycan ərazisinin 35%-i meşə ilə örtülü idi. Amma indi bu göstərici 11,4% təşkil edir. Azərbaycanın meşə örtüyü ilə bağlı daha bir problemi mövcuddur: respublikamızın 261 min hektar meşə fondu Ermənistan tərəfindən işğal edilib və bilərəkdən ona ziyan (*verilir, vurulur*). Ağdərə və Xankəndindəki fıstıq meşələri, Laçındakı iri gövdəli qırmızı palıd meşələri, Bəsitçay qoruğundakı möhtəşəm çinar və qoz ağacları, Kəlbəcər meşəsindəki ayı fındığı ağacları ermənilər tərəfindən kütləvi qırılaraq xarici ölkələrə satıl(ır, dı).

Buna baxmayaraq, ölkəmizin meşə örtüyü bir çox ağaclarla: daha çox palıd, vələs, qarağac və dəmirağacla zəngindir.

| Nadir ağac kimi dəmirağacla ... dəyər. |
|---|

16-20 m-dək (*hündürlüyü, uzunluğu*) olan bu ağacın adı Qırmızı kitaba düşüb. Möhkəm oduncağa malik olduğundan bir vaxtlar ondan gəmi və maşınqayırmada, toxuculuqda geniş istifadə ediblər. Oduncaq kimi çox qiymətli hesab olunsa da, ciddi mühafizə olunduğundan onun kəsilməsi qəti qadağandır. Bundan başqa, şümşad, nil və ya azad ağacı, qaraçöhrə kimi nadir rast gəlinən ağaclar da meşələrimizin bəzəyidir.

Meşə örtüyünün azalması problemi istər-istəməz onun qorunması məsələsini aktuallaşdırır. Hər ölkə öz milli sərvəti olan meşələri öz imkanları və gücü daxilində qoru(sa, malı), ümumdünya prosesinə dəstək vermiş olar. Bizim ölkəmizdə də bu istiqamətdə xeyli işlər görülür.

Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Qafqaz ofisi 1 mart 2011-ci il tarixindən Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Cənubi Qafqaz ölkələrində meşə ekosistemlərinin transformasiya yolu ilə iqlim dəyişmələrinə qarşı dözümlülüyün artırılması" adlı layihəyə start ver(ir, ib). Layihənin məqsədi Cənubi Qafqazda meşə ekosistemlərinin iqlim dəyişmələrinin təsirinə qarşı dözümlülüyünü artırmaq və biomüxtəlifliyi zənginləşdirməkdir. Layihə çərçivəsində Yevlax və Ağsu rayonlarında hərəsində 75 ha olmaqla şam meşələrində yerli ağac cinsləri əkilir, meşə mütəxəssisləri üçün təlimlər və iqlim dəyişmələrinin mənfi təsirləri haqqında təbliğat tədbirləri həyata keçirilir.

Amma bütün bunlar insanın meşə örtüyünün artırılması istiqamətində edə biləcəklərinin cüzi hissəsidir. Ən başlıca fəaliyyət insanın özündə – meşəyə münasibətində olmalıdır. Bunun üçünsə hər birimiz meşəyə yaşamamıza, nəfəs almamıza, gözəlliyi duymamıza və hər an sığınmamıza qucaq açacaq məkan kimi **yanaş...**, onu, ilk növbədə, özümüzdən **qoru...yıq**.

**Nərgiz Cabbarlı**

Son cümləyə münasibət bildirin.

Çap üçün deyil

1. Bu abzas mətnin nömrələnmiş hansı hissəsinə yerləşdirilsə, düzgün olar?

Dünya Resursları Beynəlxalq İnstitutu Ümumdünya Təbiətiqoruma Monitorinq Mərkəzi ilə birlikdə tədqiqat apararaq son 8000 il ərzində dünyanın meşə örtüyünün dəyişim xəritəsini çıxarmış və aşkar etmişdir ki, bu örtüyün, demək olar ki, yarısı məhv edilib və yerdə qalanların cəmi 22 faizi təbii ekosistemdədir.

Digərləri isə insanların həmləsi ilə ciddi şəkildə dəyişikliyə uğrayıb. Bu faktları sadaladıqca belə bir nəticə meydana çıxır: insan, ilk növbədə, meşəni özündən qorumalıdır. Meşənin xatirinə... Və bəşəriyyətin xatirinə...

2. Mətnin müəllifini hansı məsələlər narahat edir? Narahatlıq doğuran bu məsələlər nə dərəcədə aktualdır?
3. Mətn əsasında 3 sual tərtib edin.
4. Mətnin adına münasibət bildirin. Sizcə, mətn niyə belə adlandırılmışdır?
5. Respublikamızda meşələrin qorunması ilə bağlı görülən işlər barədə kiçik mətn tərtib edib son abzasa əlavə edin.

6. Mətndə mötərizədə verilmiş sözlərdən hansı işlənsə, daha düzgün olar?
7. Bunlardan biri *sivilizasiya* sözünün leksik mənasıdır:
   - Tarixin müəyyən bir anında bir neçə mədəniyyətin birləşməsinin əks etdirilməsi, elm və texnikanın inkişafı nəticəsində həyat rifahının yaxşılaşdırılması;
   - İnsan cəmiyyətinin istehsal sahəsində, ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlərin məcmusu.
8. Sxemi və cümləni tamamlayın.




✓ *Nəticə sözü ...., çünki .......*

9. Mətndə (səh. 67) çərçivəyə alınmış cümlədə nöqtələrin yerinə aşağıdakı sözlərdən hansı yazılsa, daha düzgün olar?

*Öyünmək, fəxr etmək, qürur duymaq*

Çap üçün deyil

10. Mətndə (səh. 66) qırmızı rəngdə verilmiş cümlələrdə hansı norma pozulmuşdur?

11. Altından xətt çəkilmiş cümlədə (səh. 66) mübtəda ilə xəbərin uzlaşmasında hansı səhvə yol verilmişdir?

12. Göy rəngdə verilmiş sözlərdə hansı şəkilçi işlənsə, daha düzgün olar?

13. Son abzasın son cümləsində nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?

14. Şəkillərdən istifadə etməklə "Mən" mövzusunda kiçik mətn (100 söz) yazın. Fikirlərinizi nümunələrlə əsaslandırın.








- ✓ *Mətn formasını (məktub, esse) seçməkdə sərbəstsiniz.*
- ✓ *Mətnin yazı qaydalarına uyğun olmasını yoxlayın.*
- ✓ *Yazdıqlarınızı yoldaşlarınızla müzakirə edin.*
- ✓ *Yazılarınıza şifahi şəkildə rəy verin.*

Çap üçün deyil

15. Xəritədən istifadə etməklə aşağıdakı tapşırıqları yerinə yetirin.

## MEŞƏLƏRİN EKOLOJİ VƏZİYYƏTİ




❖ Meşələrin ekoloji vəziyyəti dedikdə nə nəzərdə tutulur?

❖ Meşələrin ekoloji vəziyyəti barədə müzakirə təşkil etmək üçün səh. 71-də verilmiş şərti işarələrdən istifadə edin. Fikirlərinizi müşahidələriniz əsasında təsdiqləməyə çalışın.

❖ Necə düşünürsünüz, meşələrdə ağacların kəsilməsinin qarşısını necə almaq olar? Bu problemi necə həll etmək olar?

❖ Sizcə, meşəsiz ərazilərdə ağac əkmək olarmı? Əgər “Hərəyə bir ağac əkək!” aksiyası keçirsə idiniz, hansı ağacların əkilməsinə daha çox üstünlük verərdiniz? Nə üçün?

16. 72-ci səhifədəki materialları oxuyun, fikirlərinizi ümumiləşdirin.

Çap üçün deyil

## ŞƏRTİ İŞARƏLƏR

| | |
|---|---|
| **1 Yaxşı** | Əlçatmaz dağlıq və xüsusi mühafizə olunan təbii ərazilərdə yerləşən meşələr əhəmiyyət kəsb etməyən pozuntulara (təbii fəlakətlər) məruz qalsalar da, təbii bərpa qabiliyyətinə malikdir. |
| **2 Orta** | Ağacların kəsilməsi, mal-qara otarılması müşahidə olunan təbii meşə əraziləri pozuntulara az məruz qalaraq təbii bərpa qabiliyyətinə malikdir. |
| **3 Gərgin** | Ağacların kəsilməsi nəticəsində seyrəkləşmiş, qismən təbii bərpa olunan meşələr |
| **4 Çox gərgin** | Güclü antropogen təsirə məruz qalmış meşələr. İntensiv mal-qara otarılması, meşələrin kütləvi kəsilməsi müşahidə olunur. Meşələr seyrəlir, qismən təbii bərpa qabiliyyətinə malikdir. |
| **5 Fəlakətli** | Əkin sahələri arasında, sənaye zavodlarında, yaşayış məntəqələrinin və yolların ətrafında yerləşən, təbii bərpa olunmayan meşələr |
| **6 Meşəsiz ərazilər** | |

**"Azərbaycan Respublikası Milli Atlası"ndan**

**Debat**

Su və meşə həyatın mövcudluğu deməkdir. Ancaq birinin yaşaması digərinin məhvindən asılıdır.

Sağlam yaşamaq üçün insana ekoloji cəhətdən təmiz su, hava və torpaq lazımdır. Gəlin həyat mənbələrimizi qoruyaq.

Yer kürəsinin ekoloji sistemlərini qorumaq üçün hansı işləri görürsünüz?

Çap üçün deyil

## ZƏNGİLAN ÇİNAR MEŞƏSİ

Zəngilan rayonundakı Bəsitçay vadisində 117 hektar sahəni əhatə edən çinar meşəsi 23 ildir ki, erməni işğalçılarının əlindədir. Əsrlərin yadigarı olan çinar ağacları ermənilər tərəfindən qırılır və məhv edilir. Bu isə ekoloji terrordan başqa bir şey deyildir.

Onu da qeyd edək ki, həmin meşənin böyük bir hissəsi Bəsitçay Dövlət Təbiət Qoruğuna məxsusdur. Qoruq 1974-cü ildə akademik Həsən Əliyevin təşəbbüsü ilə yaradılmışdır. Bu qoruq çinar meşələrinin xüsusi rejimlə qorunmasına xidmət edirdi.

Ətrafda sərinlik yaradan çinarın əhəmiyyəti ondan ibarətdir ki, toz, tüstü, zəhərli maddələri özünə çəkərək havanı təmizləyir. Bu ağacın yaratdığı mikroiqlim 15-20 saniyə ərzində vərəm çöplərini məhv edir.

Şərq çinarının məskəni Zəngilan hesab edilir. Nəinki Gəncədə, eləcə də ölkəmizin digər şəhər və rayonlarında Şərq çinarlarının əkilməsi məqsədəuyğundur. Çünki çinar iri yarpaqları vasitəsilə şəhər atmosferinin tozunu və insan orqanizmi üçün zərərli qazları udaraq ətrafda zəngin oksigen mənbəyi yaradır. Bu mikroiqlim insanlarda fiziki yorğunluğu aradan qaldırır, sinir sisteminin fəaliyyətinə müsbət təsir göstərir.

XIX əsrin ikinci yarısında general Həsən Ağalarova məxsus torpaq sahəsinin çinar meşəsi də daxil olmaqla, satılması ilə bağlı müraciət edilir. General Ağalarov torpağın və çinar meşəsinin satılmasına rədd cavabı verir. Sonradan generala çinar meşəsinin bir hissəsinin parket və çəllək düzəldilməsi üçün qırılmasına icazə verilməsi barədə yenidən müraciət edilir. Ağalarov çinar meşəsinin qızına məxsus olduğunu və onun buna razı olmadığını bildirir. Hətta qızı razılıq versəydi də, çinarlardan heç birinin kəsilməsindən söhbət gedə bilməzdi.

***Zəkurə Quliyeva, "Azərbaycan" jurnalından, 2009-cu il***

Zəngəzur Cənubi Qafqazın özünəməxsus füsunkarlığı ilə seçilən son dərəcə gözəl bölgələrindən biridir. Sanki bu diyarın insanları ilə təbiət bir-birini tamamlayır.

Qarabağdan keçib Zəngəzura gedərkən Sağsağanlı dağına qalxanda adamın gözü qarşısında Zəngəzurun insanı heyran edən gözəl mənzərəsi açılır. Zəngəzur dağının ətəyində Artiz, Saliq, Merkz dağları, onlardan aşağıda Kəpəz, Keçəldağ silsiləsi uzanır. Bu dağlar həmişə qarla örtülü olur.

Hələ çinar meşələrini demirəm.

***Akif Muradverdiyevin "Zəngəzur" kitabından***

Çap üçün deyil



# 17. Hekayə yazın

## Hekayənin qəhrəmanı:

- susuzluqdan yaşıl örtüyünü itirmiş çöl, çəmən, düzənlik

*və ya*

- ağaclarının xeyli hissəsi kəsilmiş, hələ də kəsilməkdə davam edən meşə.

## Hekayənin süjet xətti:

- Susuz çöl və ya qırılmış meşə şair və ya yazıçıya müraciət edərək kömək istəyir.
- Çölün (və ya meşənin) harayı sözlərə, cümlələrə çevrilib insanlara çatır.
- İnsanlar çağırışa cavab verir, onların birliyi çölün (və ya meşənin) arzularını çiçəkləndirir.

## Hekayənin ideyası:

- Su və meşə insanın yaşaması üçün vacibdir.

**İstiqamət:**

- nəqli, sual və nida cümlələrindən;
- vasitəsiz nitqin formalarından;
- *həm, həm də, həmçinin, o cümlədən, amma, lakin* bağlayıcılarından;
- səbəb-nəticə, aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdən;
- -*sa*$^2$ şərt şəkilçisinin köməyi ilə əmələ gələn cümlələrdən;
- sual ədatlarından;
- təsdiq bildirən modal sözlərdən istifadə etməyə çalışın.

*Yazınızda epiqraf və sitatlardan istifadə edə bilərsiniz.*



Çap üçün deyil

4

# AZƏRBAYCAN TORPAĞI

1. Şeiri tələffüz qaydalarına uyğun oxuyun.

**ORFOQRAFİYA**

Hansı düzgündür?

- harda – harada
- dağları ilə – dağlarıyla
- üfüqlərin – üfiqlərin

Harda ümman görürəm,
Sən yadıma düşürsən,
Mənim mavi Xəzərim!
Harda liman görürəm,
Sən yadıma düşürsən,
Mənim doğma şəhərim!
Harda sahil görürəm –
Qumlu-qayalı sahil,
Buzovnadır, – deyirəm, –
Bura başqa yer deyil.
Bir qəşəng göl görürəm,
Sanmıram ögey gölü.
Çünki xatırladır o
Mənə bizim Göygölü!

Qarşıma dağ çıxırsa
Başı qarlı, dumanlı,
Ətəkləri yamyaşıl,
Döşü qalın ormanlı –
Şah dağıtək, Kəpəztək,
Əziz bilirəm onu.
Mən Talış dağlarıyla
Əkiz bilirəm onu!
Torpaqları çörəkli,
Bağları barlı edən,
Kəndləri, şəhərləri
Axar-baxarlı edən
Bir çayın sahilindən
Yolum düşürsə haçan,



Çap üçün deyil

Deyirəm ki, o, Kürdür,
Axıb gedir yanımdan.
Nə dildə qanad açsa
Şirin bir nəğmə əgər;
Onunla şadlanarsa,
Qəmlənərsə ürəklər,
Oxşayarsa insanın
Xəyalını, ruhunu,
Azərbaycan nəğməsi
Zənn edirəm mən onu.
Azərbaycan torpağı,
Öpüm, öpüm səni, gəl!
Axı səndə görmüşəm
Hər şeyi əvvəl-əvvəl.
Axı səndə bilmişəm
Nə var, nə yox dünyada.
Axı səndə görmüşəm
Hər şeyin qəşəngini –
Bağçaların barını,
Çayların axarını,
Üfüqlərin rəngini,
Dostluğu, sədaqəti,
Sevgini, məhəbbəti.
Səndən ayırsa belə
Dənizlər, dağlar məni,
Nə xoş gəlsə gözümə,
Qoynuna bağlar məni.
Dünya mənə xoş gəlir
Həyatın hər bir çağı.
Sən bir dünyasan, demək,
Azərbaycan torpağı!

**QABİL**

2. Mətnin bədii üslubda olmasını təsdiq edən bir neçə xüsusiyyəti göstərin.
3. Şairin müqayisələrinə diqqət yetirin. O gəzib gördüyü yerləri nə üçün məhz Azərbaycanla müqayisə edir?
4. Müasir Azərbaycanı, onun təbiətini 2–3 cümlə ilə ifadə edib şairin təsvirləri ilə uyğunlaşdırın.
5. Sxemi tamamlayın:




6. Şairin Azərbaycanı bir dünya hesab etməsinin ən azı 3 səbəbini göstərin.
7. *“Şeirdən aydın olur ki, şair Azərbaycanı, bütün dünyanı və insanları sevir, Yer üzündə dostluğun, mehribanlığın, səmimiliyin bərqərar olmasını arzu edir”* fikri ilə razısınızmı? Niyə? Bu fikir hansı misralarda daha qabarıq görünür?

Çap üçün deyil

8. *Aləmsən, cahansan, kainatsan* sözləri *“Sən bir dünyasan, demək, Azərbaycan torpağı!”* misralarındakı *dünyasan* sözünü əvəz edə bilərmi? Niyə?

9. Sıranı tamamlayın.




10. Altından xətt çəkilmiş cümlələrdən hansında sinonim sözlər işlənmişdir?

11. Göy rəngdə verilmiş cümlələrdə hansı sözləri yerinə görə sinonim hesab etmək olar?

12. Mənasını bilmədiyiniz sözləri seçib onların izahını verin.

13. Məntiqi ardıcıllığa əsasən davam etdirin.

*Nümunə:*




14. *Bağlar, dağlar* sözlərini kök və şəkilçiyə ayırın. Həmin sözlərin qrammatik mənasını müəyyənləşdirin. Şeirdə bunlardan hansı işlənmişdir?

15. Qırmızı rəngdə verilmiş cümlədə durğu işarələrinin düzgün qoyulub-qoyulmadığını deyin. Həmin cümlənin quruluşuna görə növünü müəyyən edin.

*16. Göl, çay, dəniz, liman* sözlərini cümlədə həm ümumişlək söz kimi, həm də termin kimi işlədin.

Çap üçün deyil

17. Şeirdə (səh. 74) ilk iki cümlənin sxemini qurun. Həmin sxemə uyğun digər cümlələri müəyyənləşdirin.

18. Son iki cümlədə suala cavab verməyən sözlərin qrammatik mənasını deyin. Həmin sözlərin cümlədə işlənməsinin hansı rolu vardır?

19. Mətni oxuyun. “Mətn bədii üslubdadır” fikri bu mətnə aid edilə bilərmi?

Torpağı xəzinə, havası gözəl, dağı, qayası əzəmətli, gülü, çiçəyi ətirli, gecəsi sirli, gündüzü hikmətli, övladı qeyrətli Azərbaycan!

Gözəlliyin Səni sevənləri sevindirdi. Düşmənlərini isə kədərləndirdi.

Əzəmətin, vüqarın Səni sevənləri qürurlandırdı, qeyrətləndirdi. Düşmənləri isə qorxuya saldı. Suyunu içib çörəyini yeyənlər Sənə xəyanət etdilər.

Sən təbiətinlə nə qədər zəngin və nə qədər də gözəlsənsə, Səndə yaşayan millətlərinlə də bir o qədər gözəlsən. Ləzgisi, talışı, avarı, tatı, ingiloyu və başqalarını qardaş edən, bir-birlərinə qırılmaz sevgi telləri ilə bağlayan, onları azərbaycanlı edən sənin kimi müqəddəs bir vətəndə qalmaları, yaşamalarıdır.

Sən “Odlar yurdu” olmağınla bərabər, həm də “Sevgi yurdu”, “Qardaşlıq yurdu” oldun.

***M.Mirbaşiroğlu***

✓ *Mətndə **sən** sözünün böyük hərflə işlənməsinin səbəbi nədir?*

✓ *Mətn “Azərbaycan torpağı” şeirindən hansı xüsusiyyətlərinə görə fərqlənir?*

20. Özünüzü xəyalən Azərbaycanın hər hansı bir təbiət guşəsində təsəvvür edin. Düşüncələriniz əsasında 50–60 sözdən ibarət təsviri xarakterli mətn tərtib edin.

Çap üçün deyil

5

# DƏNİZDƏN BÖYÜK

1. Şeiri oxumazdan əvvəl orfoqrafiya və orfoepiya ilə bağlı tapşırıqları yerinə yetirin.

**ORFOQRAFİYA**

Hansı hərf yazılmalıdır?

- 5-ci misrada;
- 9-cu misrada;
- 10-cu misrada.

**ORFOEPİYA**

- Son iki misranı tələffüz qaydalarına uyğun yazın.

Dünya nə kədərli olardı,
dəniz olmasaydı.
Dəniz düşündürür məni.
Dəniz inandırır məni
həyatın **...üçünə**(q, g).
Dəniz aparır məni
ən uzaq,
ən heyranlı
**...əyallar**(h, x) bürcünə.
Dənizdən **sevin...**(c, ç) alıram,
dənizdən kədər alıram.
Ona baxdıqca qürurlanıram
insan olduğuma.
Həm kainata bənzərliyimə,
həm quma.
Mən dənizdən nə istəsəm, alaram
balıqdan tutmuş
şeirin möcüzəsinə qədər.
Mən dənizə nə verirəm!
Heç nə.
Mən dənizsiz qala bilmərəm
dəniz mənsiz keçinər.
Dənizlə gecə söhbətimdə
bu qərara gəlmişik:
qəlbim dənizdən böyükdür,
dəniz qəlbimdən kiçik.

**Rəsul Rza**



Çap üçün deyil

2. Mətndə mötərizədə verilmiş feilləri hansı zamanda işlətsəniz, daha düzgün olar? Altından xətt şəkilmiş feilləri gələcək və ya keçmiş zamanda işlətmək mümkündürmü? Niyə?

**II.** Sahəsi 400 000 km², maksimal dərinliyi 1025 m, suyunun ümumi həcmi isə 77 min km³-ə yaxın olan Xəzər dənizinin suları Azərbaycan, Qazaxstan, Rusiya, Türkmənstan və İran sahillərini (*yumaq*). Adalar nəzərə alınmazsa, Xəzərin sahil xəttinin ümumi uzunluğu 6725 km-dir. Bunun təxminən 750 km-i Azərbaycan ərazisinin (*payına düşmək*). Xəzər dənizinin bu dövlətlərin iqtisadi inkişafında çox mühüm rolu olduğu danılmazdır.

Nadir və zəngin təbiyi ehtiyyatları olan, Avropa və Asiyanın sərhədində yerləşən Xəzər dənizi daxili su hövzəsidir.

Xəzər dənizinin özünəməxsus təbii iqlim şəraiti vardır. Bu iqlim şəraitini Qafqaz dağlarındakı yerli hava kütlələri yaradır. İlin müxtəlif mövsümlərində okeanlarda [?] Şimal Buzlu okeanı, Atlantik okeanının şimal hissəsi və Aralıq dənizində formalaşmış hava kütlələri bura daxil olur.

Xəzər dənizinin şelf zonası və dibi neft və qaz yataqları ilə zəngindir. Xəzər dənizinin sularında, xüsusən ona tökülən çayların mənsəbində çoxlu qiymətli balıq növləri var. Su-gəmi nəqliyyatı dənizin sahillərindəki müxtəlif liman şəhərlərini birləşdirir.

***"Azərbaycan Respublikası Milli Atlası"ndan***

✓ *Kvadrat işarəsi qoyulmuş yerdə hansı durğu işarəsindən istifadə olunmalıdır?*

✓ *1-ci və 2-ci abzaslarda hansı sözlər səhv yazılmışdır?*

**III.** Xəzər! Ey nemət, bərəkət dənizim mənim! Sahilində dayanmışam, sahilində sevmişəm, sahilində şənlənmişəm. Xəstəliyim olubsa, qızılı qumun sağaldıb, dincəlib dalğalarının qoynunda səyahətlərə çıxmışam. *Sən mənim baba yurdum sən mənim damarlarımda axan qanım qədər doğmasan Xəzərim dənizim mənim* Tarixlərdən əvvəlki tariximin yaşıdı dənizim! Atilladan, Tomrisdən, Pompeydən bəri sənə nə qədər adlar qoyublar. Tarixçilərin dediyinə görə, qədim yazılı abidələrdə, kitabələrdə onlarla adın var!

Sahillərindən kimlər keçib, sularında kimlər üzməyib? Neçə cahangirlər at oynadıb, nə qədər vətən oğlu-qızı azadlığını qanı bahasına müdafiə edib? İllər, qərinələr, əsrlərin odlu-soyuq nəfəsi döyəcləyib sahillərini sənin.

Səni coğrafiya kitablarında adicə "duzlu göl" adlandıranlar da olub. Amma mənim üçün, xalqım üçün Xəzərsən. Xəzərim mənim!

***Əzizə Cəfərzadənin "Bakı-1501" kitabından***

Çap üçün deyil

3. Nə üçün R.Rza qəlbini dənizdən böyük, dənizi qəlbindən kiçik adlandırır? Onun bu fikri ilə razısınızmı? Niyə?
4. Şeirdə hansı fikir yoxdur?
   - Şair Xəzərə sonsuz məhəbbət bəsləyir.
   - Xəzər zəngin sərvətlər mənbəyidir.
   - Xəzər dənizi şairi bürclərə səyahətə aparır.
   - Su həyatın mənbəyidir.
5. *Sən Xəzərdən nə ala bilərsən?* sualına necə cavab verərdiniz? Öz cavabınızı şairin *Mən Xəzərdən nə istəsəm, ala bilərəm, balıqdan tutmuş şeir möcüzəsinə qədər* fikri ilə müqayisə edin.
6. Cümləni tamamlayaraq suala cavab verin.

   *Xəzər, əslində, ... . Bəs niyə dəniz adlanır?*
7. R.Rza və Ə.Cəfərzadənin Xəzər dənizi ilə bağlı hansı fikirləri üst-üstə düşür? Hansında tarixi faktlar üstünlük təşkil edir?
8. *Xəstəliyim olubsa, qızılı qumun sağaldıb* fikrini hansı faktlardan istifadə etməklə təsdiqləyə bilərsiniz?
9. Xəzər dənizinin çirklənməsi ekoloji fəlakətə səbəb ola bilərmi? Ekoloji fəlakət nədir?
10. Xəzərlə sərhəd olan dövlətlərin həmyaşıdınız olan şagirdlərinə məktub hazırlayın. Həmin məktubda Xəzər dənizinin çirklənməsinin qarşısını almaq istiqamətində təkliflər verin.

11. Şeirdə hansı söz həm ümumişlək söz, həm də termin kimi işlənə bilər?
12. Uyğunluğu müəyyənləşdirin.

*a* su yığıb saxlamaq üçün daşdan və s.-dən düzəldilmiş sututar

1 hövzə

*c* mədən süxurları yatağı olan yer

*b* böyük süni sututar, dəryaça

*sonradan istifadə etmək üçün su toplanılan yer*

2 hovuz

*d* qolları ilə birlikdə çayın əhatə etdiyi sahə, dənizə, gölə yapışıq ərazi

1 ______ 2 ______

13. Termin nəyə deyilir? II mətndə ancaq termin kimi işlənən sözləri seçin. Ümumişləklik xüsusiyyəti olan hansı sözlər mətndə termin kimi işlənmişdir?

Çap üçün deyil

Dilimizdə elə terminlər var ki, onlar müxtəlif elm sahələrində fərqli mənalarda işlənir. Verilmiş nümunədən istifadə etməklə növbəti sxemi tamamlayın və özünüz də bir neçə belə termin deyin.

***Nümunə:***

morfologiya
- dilçilikdə → nitq hissələrini öyrənən elm sahəsi
- biologiyada → bitkilərin quruluşu

kök
- dilçilikdə → ?
- biologiyada → ?
- riyaziyyatda → ?

14. III mətndə fərqləndirilmiş cümlədə (səh. 79) durğu işarələrini bərpa edin.
15. II mətnin elmi mətn olduğunu sübut edən bir neçə xüsusiyyəti deyin.
16. Aşağıdakı fikirləri tamamlayın və davam etdirin.
    - Mətndə konkret ........................ var.
    - ........................ çox istifadə olunmuşdur.
17. Hər üç mətn (78–79) bir-birindən nə ilə fərqlənir? Hansı mətnin elmiliyi daha çoxdur? Fikrinizi nə ilə sübut edərsiniz?
18. *Elmi mətnlər elmi üslubda yazılmışdır* fikri ilə razısınızmı? Fikrinizi əsaslandırın.

**Elmi üslub əsas üslublardan biridir. Şərh etmək, izah etmək, müəyyən bir məsələ haqqında fikir söyləmək, nəticə çıxarmaq bu üslub üçün səciyyəvidir.**

**Elmi üslubun əsas göstəricisi terminlərdir.**

**Hər elm sahəsinin özünəməxsus terminləri vardır.** Məs: *tənlik, inteqral, prizma (riyaziyyat), ahəng qanunu, mübtəda, söz birləşməsi, cümlə (dilçilik), vektor, qüvvə, ətalət qanunu (fizika)* və s.

**Elmi üslubda yazılan əsərlərin dili çətin olur, burada qrafiklərdən, düsturlardan, mürəkkəb cümlə tiplərindən, ara sözlərdən çox istifadə olunur. Bu üslubda sözlərin çoxmənalılığına yol verilmir.**

Çap üçün deyil

19. Aşağıdakı mətnləri dil xüsusiyyətləri baxımından müqayisə edin. İnsan sözünün hər iki mətndəki üslubi xüsusiyyətlərini fərqləndirin.

■ İnsan canlı aləmin tərkib hissəsi olub, biosferdən kənarda təbii şəraitdə və müəyyən təkamül tipinin canlı maddəsi kimi yaşaya bilməz. İnsanın aid olduğu Hominid ailəsi Yerin ekvatorial hissəsində, İnsan cinsi isə Afrikanın şərqində və Cənubi Asiyada yaranmışdır. İlk dövrlərdə Yer üzərində bir neçə homid növü mövcud olmuşdur; onlar iki yarımailəyə mənsub olmuşlar: avstralopiteklər və adi insanlar. Onlardan yalnız bir növ – Homo sapiyens – şüurlu insan qalmışdır. Bir sıra alimlər Homo sapiyens növünü iki yarımnövə ayırırlar: neandertal və müasir insanlar. Canlı maddənin təkamülündə planetdə bir sıra dönüş nöqtəsi olmuşdur, bu təkamül suksessiyasının sonuncusu insanın (Homo sapiyens) meydana gəlməsi (peyda olması) hesab edilir. Bu hadisə canlı maddənin əmələ gəlməsi ilə müqayisədə yaxın zamanlarda, yəni 3,5–5 mln. il əvvəl baş vermişdir.

***Q.Məmmədov, M.Xəlilov. "Ekologiya, ətraf mühit və insan"***

■ Düz deməsəm, onda məni bağışlayın,
Üz tutaram uşaqlara, qocalara, cavanlara,
Sağlığında qiymət verin insanlara:
Yaxşılara sağ olanda yaxşı deyin,
Sağlığında yaman deyin yamanlara... ***C.Novruz***

20. Aşağıdakı mətnləri oxuyun. Onların elmi mətn olduğunu sübut edən cəhətləri göstərin.

■ Su canlı orqanizmlərin fəaliyyətində mühüm əhəmiyyətə malikdir. O, biokimyəvi reaksiyalar üçün əsas mühit, protoplazmanın vacib tərkib hissəsidir. Qida maddələri orqanizmdə, əsasən, su məhlulu şəklində dövr edir, bu şəkildə də orqanizmdən dissimilyasiya məhsulu yüksək dərəcədə xaric edilir. Su bitki və heyvan orqanizmlərinin əsas kütləsini təşkil edir; toxumalarda onun nisbi miqdarı 50–80%, bəzi növlərdə isə daha yüksək olur. Belə ki meduzaların bədənində 95%-ə, bir çox molyuskların toxumalarında isə 92%-ə qədər su vardır. Hüceyrədaxili və hüceyrələrarası mübadilə, hidrobiontlarda isə xarici mühitlə osmotik qarşılıqlı əlaqə suyun və onun tərkibində həll olan duzların miqdarından çox asılıdır.

***Q.Məmmədov, M.Xəlilov. "Ekologiya, ətraf mühit və insan"***

■ Hərəkət zamanı sürətin qiyməti dəyişərsə, belə hərəkət, bərabərsürətli hərəkətdən fərqli olaraq, sürətin verilmiş sabit qiyməti ilə xarakterizə oluna bilmir. Belə hərəkət ya dəyişən hərəkətin orta sürəti, ya da ani sürəti (trayektoriyanın verilmiş nöqtəsindəki sürət adlanır) ilə xarakterizə olunur. Dəyişən hərəkətin orta sürəti gedilən yolun, maddi nöqtənin həmin yolda olma müddətinə nisbəti ilə təyin edilir:

$$V_{or} = \frac{S}{t}$$

***B.Z.Əliyev. "Ümumi fizika kursu"***

✓ ***Sürət, qiymət, hərəkət*** *sözlərini cümlədə ümumişlək söz kimi işlədin.*

Çap üçün deyil

21. Aşağıdakı qanunla tanış olun, dövlətin ətraf mühitin və Xəzərin mühafizəsi ilə bağlı həyata keçirdiyi tədbirlərdə siz də iştirak edin. (*Qanun ixtisarla verilmişdir, materialları tam şəkildə İnternetdən əldə edə bilərsiniz.*) Qanunların üslubunu elmi üslubun xüsusiyyətləri ilə müqayisə edin. Fərqi gördünüzmü?

## "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" 2003-cü il noyabrın 4-də Tehran şəhərində imzalanmış Çərçivə Konvensiyası təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

## "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" ÇƏRÇİVƏ KONVENSİYASI

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Xəzəryanı dövlətlər:

Azərbaycan Respublikası
İran İslam Respublikası
Qazaxıstan Respublikası
Rusiya Federasiyası
Türkmənistan

Xəzər dənizinin dəniz ətraf mühitinin vəziyyətinin insan fəaliyyəti nəticəsində, həm dənizdə, həm də quruda yerləşən mənbələrdən zərərli, təhlükəli maddələrin, tullantıların və digər çirkləndiricilərin axıdılması, atılması və yerləşdirilməsi nəticəsində pisləşməsini qeyd edərək;

Xəzər dənizinin bioloji ehtiyatlarını indiki və gələcək nəsillər üçün qorumaqda qətiyyətli olduqlarını göstərərək;

quruda həyata keçirilən fəaliyyətin Xəzər dənizinin dəniz ətraf mühitinə ziyan vurmamasının təmin edilməsi zərurətini etiraf edərək;

Xəzər dənizinin səviyyəsinin dəyişməsi probleminin dəniz ətraf mühiti və onun səciyyəvi hidroqrafik və ekoloji xüsusiyyətləri üçün təhlükə törətdiyini dərk edərək;

Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsinin əhəmiyyətini bir daha təsdiq edərək;

Xəzər dənizinin dəniz ətraf mühitinin qorunması və mühafizəsi məqsədilə Razılığa gələn Tərəflərin öz aralarında və müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlığının əhəmiyyətini etiraf edərək;

aşağıdakılar barədə razılığa gəldilər:

Çap üçün deyil

## I. ÜMUMİ MÜDDƏALAR

***Maddə 1. Terminlərdən istifadə***

Bu Konvensiyanın məqsədləri üçün aşağıdakı terminlərdən istifadə ediləcəkdir:

**Fəaliyyət planı** – Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi və davamlı inkişafı üzrə fəaliyyət planı;

**Tullantı** – dəniz ətraf mühitinə Xəzər dənizindəki gəmilərdən, uçan aparatlardan, platformalardan, yaxud digər süni qurğulardan tullantı və ya digər materialların qəsdən atılması və yaxud gəmilərin, uçan aparatların, platformaların və digər süni qurğuların Xəzər dənizində qəsdən batırılması;

**Çirklənmə** – bioloji ehtiyatların və dəniz canlılarının həyatı, insan sağlamlığı üçün təhlükə törədən və ya törədə biləcək və Xəzər dənizinin hüquqauyğun istifadəsinə maneə yaradan və ya yarada biləcək maddələrin, yaxud enerjinin insan tərəfindən birbaşa və ya dolayı yolla dəniz ətraf mühitinə daxil edilməsi;

**Quruda yerləşən mənbələrdən çirklənmə** – quruda yerləşən bütün nöqtəvi və səpələnmiş mənbələrdən su və ya hava vasitəsilə dənizin çirklənməsi, yaxud bilavasitə sahildən və qurudan tunel, boru kəməri, yaxud başqa bir yolla çirkləndirici maddələrin istənilən yolla dəniz ətraf mühitinə atılması;

**İnvaziv yad növlər** – meydana gəlməsi və yayılması Xəzər dənizinin ekosisteminə və ya bioloji ehtiyatlarına iqtisadi və ya ekoloji zərər vura biləcək köçmə növlər deməkdir.

***Maddə 2. Məqsəd***

Bu Konvensiyanın məqsədi Xəzər dənizinin dəniz ətraf mühitinin çirklənmədən qorunması, o cümlədən Xəzər dənizinin bioloji ehtiyatlarının qorunması, mühafizəsi, bərpası, davamlı və səmərəli istifadə edilməsindən ibarətdir.

***Maddə 3. Tətbiq sahəsi***

Bu Konvensiya, Xəzər dənizinin səviyyəsinin dəyişməsi və quruda yerləşən mənbələrdən çirklənmə nəzərə alınmaqla, onun dəniz ətraf mühitinə tətbiq edilir.

## II. ÜMUMİ ÖHDƏLİKLƏR

***Maddə 5. Prinsiplər***

Bu Konvensiyanın məqsədinə nail olmaq və onun müddəalarını yerinə yetirmək üçün Razılığa gələn Tərəflər öz fəaliyyətlərində aşağıdakıları rəhbər tuturlar:

a) ehtiyat tədbirlər görmək prinsipini; bu prinsipə əsasən, Xəzər dənizinin ətraf mühitinə ciddi və ya dönməz təhlükə yaranarsa, dəyəcək zərərin qarşısını almaq üçün səmərəli tədbirlərin təxirə salınmasında tam elmi əsasların olmamasına istinad etmək səbəb kimi istifadə edilə bilməz;

b) "çirkləndirən ödəyir" prinsipini; bu prinsipə əsasən, çirkləndirən çirklənmənin qarşısının alınması, onun azaldılması və ona nəzarət də daxil olmaqla, əlaqədar tədbirlərin görülməsi ilə bağlı xərcləri ödəyir;



Çap üçün deyil

c) Xəzər dənizinin dəniz ətraf mühitinin çirklənməsi barədə məlumatın əldə edilməsi prinsipini; bu prinsipə əsasən Razılığa gələn Tərəflər müvafiq məlumatları bir-birinə tam həcmdə təqdim edirlər.

## III. ÇİRKLƏNMƏNİN QARŞISININ ALINMASI, AZALDILMASI VƏ ONA NƏZARƏT

***Maddə 7. Quruda yerləşən mənbələrdən çirklənmə***

1. Razılığa gələn Tərəflər Xəzər dənizinin quruda yerləşən mənbələrdən çirklənməsinin qarşısını almaq, azaltmaq və ona nəzarət etmək üçün bütün müvafiq tədbirləri görürlər.

2. Razılığa gələn Tərəflər bu Konvensiyaya Xəzər dənizinin quruda yerləşən mənbələrdən çirklənməsinin qarşısının alınması, azaldılması və ona nəzarət üzrə əlavə tədbirləri nəzərdə tutan əlavə protokolların hazırlanmasında əməkdaşlıq edirlər. Həmin protokollar, o cümlədən aşağıdakı tədbirləri nəzərdə tuta bilər:

a) aztullantılı və tullantısız texnologiyaların tətbiqi vasitəsilə çirkləndirici maddələrin mənbədə qarşısını almaq, azaltmaq və onlara nəzarət etmək;

b) çirklənmənin qarşısının alınması, azaldılması və ona nəzarət edilməsi üçün Razılığa gələn Tərəflərin səlahiyyətli milli orqanları tərəfindən quruda yerləşən nöqtəvi mənbələrdən tullantı sularının axıdılmasının lisenziyalaşdırılması;

c) tullantı sularının axıdılmasının ekoloji cəhətdən əsaslandırılmış texnologiyanın tətbiq olunmasının təşviqinə əsaslanan lisenziyalaşdırılması;

d) daxil olan suyun keyfiyyəti, yaxud Xəzər dənizinin təsirə məruz qalmış ekosistemi tələb etdiyi hallarda bu Konvensiyaya əlavə protokollara müvafiq olaraq bu maddənin (b) və (c) yarımbəndlərində nəzərdə tutulmuş tələblərdən daha sərt tələblərin müəyyən edilməsi;

e) şəhər tullantı sularının müxtəlif təmizləmə növlərinin, o cümlədən zəruri olduqda mərhələlərlə tətbiq edilməsi;

f) sənaye və kommunal mənbələrdən üzvi maddələr axınını azaltmaq məqsədilə ekoloji cəhətdən əsaslandırılmış ən yaxşı mümkün texnologiyaların tətbiq edilməsi;

g) səpələnmiş, o cümlədən kənd təsərrüfatı mənbələrindən üzvi maddələrin və təhlükəli maddələrin axınını məhdudlaşdırmaq üçün ən yaxşı ekoloji təcrübəyə əsaslanan müvafiq tədbirlərin inkişaf etdirilməsi və həyata keçirilməsi;

h) sahildə yerləşən və Xəzər dənizinin dəniz ətraf mühitinə mənfi təsirini davam etdirən bəzi çirklənmə mənbələrinin konservasiyası və tam ləğv edilməsi üzrə tədbirlər.

**Azərbaycan Respublikasının müəyyən etdiyi qanunlara əməl etmək hər birimizin vətəndaşlıq borcudur.**

Çap üçün deyil

22. “Şəhər bulvarları” mətnini oxuyub məzmununa münasibət bildirin.

Sahil bulvarı şəhərin ən iri bulvarı idi. Dəniz havası almaq və yayın isti aylarında sərinlənmək üçün sahildə bulvar yaradılması Bələdiyyə idarəsini çoxdan düşündürürdü. Bu barədə ilk addım 1909-cu ildə atılmışdır. Bulvarın salınması təşəbbüsçüsü Bakının görkəmli mühəndisi Məmmədhəsən Hacınski olmuşdur. Hacınski bu illərdə Bələdiyyə idarəsində inşaat şöbəsinə başçılıq edirdi. Onun səyi ilə bulvarın salınması məsələsi Dumanın iclasına qaldırıldı. Duma bu iş üçün 60 min manat vəsait ayırmağı qərara aldı. Hacınski şəhər memarlarından Adolf Eyxerin yaxından köməyi ilə bulvarın salınması layihəsinin hazırlanması ilə məşğul oldu. Onlar təkcə bulvarın salınması, orada meyvə və bəzək ağaclarının əkilməsini deyil, qəşəng pavilyon və binaların tikilməsi barədə də müsabiqə elan etdilər. Müsabiqədə 30 nəfərədək memar və mühəndis iştirak edirdi. Müsabiqədə birinci mükafatı memar Q.M.Termikelov almışdı. Şəhər idarəsi bulvarın salınması, orada pavilyonların, restoran və dəniz hamamının tikilməsi ilə sahilin yalnız gözəlləşməsini deyil, eyni zamanda əldə edilən gəliri də nəzərdə tuturdu. Bulvarın yaradılması şəhər idarəsini daha bir çətin məsələ ilə qarşılaşdırmışdı. Bu da məhəllələrdən dənizə doğru çirkab sularının axıdılması idi.

***Qılman İlkinin “Bakı və bakılılar” kitabından***

✓ *Sizcə, şəhər idarəsi bu məsələni necə həll edə bilərdi? Müasir dövrdə bu məsələ necə həll olunur?*

23. Şəkillərdən istifadə etməklə mətn tərtib edin. Mətni hansı üslubda tərtib edəcəyinizi özünüz düşünün. Mətn tərtib etmək üçün 87-ci səhifədə verilmiş plandan istifadə edə bilərsiniz.



Çap üçün deyil

**Plan**

- Dənizkənarı bulvarın müasir görkəmini təsvir edin, fikirlərinizi "Şəhər bulvarları" mətni ilə əlaqələndirib bütün dövrlər üçün aktual olan məsələyə münasibət bildirin;
- Xəzər dənizini təsvir edin;
- Xəzər dənizinin gözəlliyini tərənnüm edin;
- Verilmiş şəkilləri iki istiqamətdən təsvir edin:

| Bizə gözəllik bəxş edən Xəzər | Çirkləndirdiyimiz Xəzər |
|---|---|

✓ *Tərtib edəcəyiniz mətndə "Biz Xəzərimizi qorumaq üçün nə edirik" sualına cavab verməyə çalışın.*

✓ *Tərtib etdiyiniz mətnin və "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının üslubunu müqayisə edin.*

***Yazılarınızın orfoqrafik və qrammatik cəhətdən düzgün olmasına diqqət yetirin.***

***Məktəbinizdə "Xəzərimizi mühafizə etmək üçün nə etməliyik" mövzusunda dəyirmi masa keçirin.***

***Dəyirmi masada müzakirələr təşkil edin, problemin həlli yollarını təklif edin.***



**Bölgələrdə yaşayan şagirdlər!**

***Yaşadığınız ərazidə göl, çay, mineral sular, bulaqlar haqqında maraqlı məlumatlar toplayıb təqdimatlar hazırlayın, kiçik mətnlər şəklində sosial şəbəkələrdə yerləşdirin.***

Çap üçün deyil

6

## QARTAL

(*nağıl-hekayə, ixtisarla*)

Qartal havada qanad açıb məğrur-məğrur süzürdü. İndi doğma yurd onu daha çox çəkirdi. Baxdıqca doymaq bilmirdi bu yerlərdən. Elə diqqətlə baxırdı ki, sanki (...) hər qarış torpağını, daşını belə yaddaşına həkk edib, özü ilə bərabər əbədiyyətə aparacaqdı. Ona görə də gücü (...) tükənənə qədər uçmaq istəyirdi. Arabir amansız əcəl haqqında düşüncələr könlünü (...) sıxsa da, doğma yurdun füsunkarlığı, əzəməti qəlbini dağa döndərirdi. Qartal fəxr edirdi. O, fəxr edirdi ki, belə əsrarəngiz bir yurdda dünyaya göz açıb, boya-başa çatıb və burada da ömrünü bağışlayır.

Qartalın gəlişi ilə quşların bir-birinə qarışmış səs-küyü kəsildi. O, uca qaya başındakı sevimli yerinə qondu. Kənarları sıldırım olan bu yalçın qaya Çənlibelin ən hündür (...) yeri idi. Buradan hər tərəf əl içi kimi aydın görünürdü.



*Adəti üzrə Qartalı birinci Şahin qarşıladı*
*Ey ulu şahımız göy üzü aydındırmı*

İlk dəfə idi, Qartal bu suala cavab verə bilmədi. Dərk edirdi ki, ucsuz-bucaqsız səmalar artıq onun üçün əlçatmazdır. İllər uzunu ənginliklərin döşünü dələn sivri qanadları bir də heç vaxt səmanı yarmayacaq. Qartal bu sonuncu (...) uçuşunda doğma yerləri doyunca seyr edərək vidalaşmışdı. İndi ömrünün son anlarını dostlarının arasında sakitcə keçirə bilərdi.

Qartalın nəzərləri (...) üfüqlərdə dolaşırdı. Baxışlarından yenilməz vüqar, qürur duyulmaqda idi. Dağlar sakini məğrur duruşu, iti baxışı ilə hamını heyran qoyurdu.

Ortalığa çökmüş sual dolu sükut Qartalın gur səsi ilə dağıldı. Səsinin gücü dağı-daşı lərzəyə salırdı:

– **Ey əziz dostlar, azad quşlar! Həyat, həqiqətən, şirindir.** Hərə yalnız bir kərə gəlir bu həyata. Və hər kəsdən sonra bu dünyada iki ad qalır: birincisi, onu sağlığında çağırdıqları ad, ikinci adı isə hər kəs gördüyü əməllərinə görə qazanır və bu adla da ölümündən sonra yad edilir. Mən bütün ömrüm boyu səmamızın aydınlığı

Çap üçün deyil

üçün çalışmışam. İstərdim ki, məndən sonra da sizin – azad quşların belə aydın və təmiz səması olsun...

Son kəlmələri söyləyəndə Qartalın səsi xırıldasa da, Göyərçindən başqa, ətrafdakılar bunu, demək olar ki, heç hiss etmədilər də.

Səsi yenə də dağı-daşı yerindən oynadan Qartalın xırıltısını eşidərkən kədərlənən Göyərçinin qəlbində məftunluqla yanaşı, gizli bir qibtə hissi də oyanmışdı: doğrudan da, qartal kimi yaşanan bir gün qarğanın taleyindəki üç yüz ildən qat-qat üstün idi. Göyərçin bunları bütün varlığı ilə dərk etdikcə qəlbi fərəhdən uçunurdu. Sevinirdi. Sevinirdi ki, nə yaxşı ki bu dağların Qartalı varmış. Yoxsa qəribsəyərdi dağlar.

**Sadiq Zamanın "Qızıl balıq" kitabından**

1. Mətnin məzmunu ilə bağlı 3 sual tərtib edin.

2. 1-ci cümlədə qırmızı rəngdə verilmiş sözü aşağıdakılardan hansı ilə əvəz etmək olar?

   *səmada, göydə, asimanda*

3. Mötərizədəki nöqtələrin yerinə əvvəlki sözlərin elə sinonimlərini seçin ki, məzmuna xələl gəlməsin.

4. Altından xətt çəkilmiş cümlələrdə söz sırasını bərpa edin. Cümlələri müqayisə edin.

5. Kursivlə verilmiş hissədə durğu işarələrini bərpa edin. Vasitəsiz nitqin sxeminə əsasən həmin cümlələrin sxemini qurun.

6. Tünd şriftlə verilmiş cümlədə durğu işarələrinin düzgün işləndiyini əsaslandırın.

7. Mətndən aşağıdakı sxemlərə uyğun tabeli mürəkkəb cümlələri seçin.

   □ + ki, + ○　　　□ , + ○　　　○ + sa da, + □

8. Qartal haqqında məlumat toplayıb kiçik elmi təqdimat hazırlayın. Hekayədə rast gəldiyiniz hansı faktlar elmi təqdimatda da öz əksini tapdı?

Çap üçün deyil



**Dəli bir ağlamaq keçir könlümdən**
(*ixtisarla*)

Baxıram dünyanın bu gərdişinə
Dəli bir ağlamaq keçir könlümdən.
Fələk rəvac verdi naмərd işinə
Dəli bir ağlamaq keçir könlümdən.

Torpaqda haqqı var axan qanın da,
Bir nərin qolları düşüb yanında.
Müqəddəs Şəhidlər xiyabanında
Dəli bir ağlamaq keçir könlümdən.

Yanmadım ömrümdən keçən illərə
Baxıb məzarlarda solan güllərə.
Söykəyib üzümü qərənfillərə
Dəli bir ağlamaq keçir könlümdən.

Dünyanın sükutu bu daş qəfəsdə
Köksümdə qövr edib hıçqıran səs də.
Toy libası geymiş bu qəbrin üstə
Dəli bir ağlamaq keçir könlümdən.

***Alı Mustafayev***

Şəhidlər xiyabanına gedirsinizmi? Şəhidlərin qəbri önündə nə düşünürsünüz?

Elə hesab edin ki, sizə 20 Yanvar hadisələri ilə bağlı məqalə yazmaq (tədbir hazırlamaq) tapşırılıb.

Yazının oxunaqlı və düşündürücü olması üçün nə edərdiniz? Həmin tarixi faciəni necə təqdim edərdiniz?

Çap üçün deyil



## At o qara örpəyi!

Gecədən yağan qar, az qala, dizə çatırdı. Hər tərəf dümağ idi. Ağacların budağına ağırlıq edən qar bəzi budaqları sındırmışdı.

Ağ qarın üstünə düşən qara bir örpəyi külək o tərəf-bu tərəfə aparırdı. Qara örpək hərdən ağacların gövdəsinə ilişir, sonra yenə açılıb küləyin istiqamətində gedirdi. Şaxta qılınc kimi kəsirdi.

Ağsaçlı qadın yaşına yaraşmayan iti addımlarla gedirdi. Hara getdiyini təkcə özü bilirdi. Küçədə heç kim yox idi. Külək və yağan qar onun üzünə çırpılır, getməsinə mane olurdu. Qadın bütün qüvvəsini toplayıb inadla addımlayırdı. Uzaqda hündür hasardan boylanan qara mərmərlər görünməyə başladı. Ana addımlarını bir az da yeyinlətdi. Hiss edirdi ki, nəfəsi çatmır, zorla nəfəs alır. Ana pıçıltı ilə öz-özünə dedi: "Çatmışam, lap az qalıb. Darvazaya çatsam, rahat nəfəs alaram".

Amma güclü külək onun darvazaya çatmasına mane olurdu. Ana irəlilədikcə külək onu geri atır, yolunu çətinləşdirirdi. Nəhayət, ana dəmir darvazaya çatdı. Məzarlığa daxil olanda bir an onu vahimə hissi bürüdü. Sonra özünə təsəlli verib dedi:

– Burada yatanlar hamısı mənim balalarımdır, nədən vahimələnirəm ki…

Ana yorğun addımlarla məzarların arası ilə keçib oğlunun məzarına yaxınlaşdı. Bir müddət sakitcə dayanıb qara mərmərdən ona baxan oğlunun gülümsər surətinə tamaşa etdi. Sonra başdaşına yanaşıb onu tumarladı, yavaşca pıçıldadı:

– Üşüyürsənmi?

Ana bilirdi ki, sualının cavabı olmayacaq. O, əlləri ilə sinə daşının üstünə yağan qarı təmizlədi. Dəsmalını çıxarıb mərmərin üzərində olan şəkli sildi. Sonra dodaqlarını lap şəklə yaxınlaşdırıb pıçıltı ilə dedi:

– Bu gündən qara örpəklə vidalaşdım. Onu küləyin səmtinə tulladım, daha heç vaxt başıma qara örpək bağlamayacağam. Bu gündən mən yasdan çıxdım. Sənin məzarına and içirəm ki, bizə qara örpək örtdürənlərin qara gününü görənə qədər başıma qar kimi ağ örpək bağlayacağam. Qoy düşmən bizi başı qaralı görüb sevinməsin! Ağ örpək bağlayaq ki, ağ günə çıxaq!

Ana bu sözləri deyib oğlunun şəklini öpdü və sakitcə məzarlıqdan çıxıb kəndə tərəf getməyə başladı. Külək hələ də əsirdi. Əsən güclü külək özü ilə qara bir örpəyi gətirib məzarlığın dəmir darvazasına ilişdirmişdi…

***Gülarə Munis***

"Dəli bir ağlamaq keçir könlümdən" şeiri ilə "At o qara örpəyi" hekayəsinin məzmununu qarşılaşdırın.

Baş vermiş faciədən kədərlənən şair → Kədər rəmzi olan qara örpəyini atan Ana

Obrazları müqayisə edin. Sizcə, müqayisə hansı baxımdan aparılmalıdır?

Çap üçün deyil

1 MƏTN

2 UŞAQ QALMAQ İSTƏYİRƏM...

3 MƏNİ XALQIMIN DİLİNDƏ DANIŞDIR

4 BİR ANA QUCAĞINDA BİR KÖRPƏ APARIRDI

5 PƏNCƏRƏ

6 BİLMƏK ƏN BÖYÜK XƏZİNƏDİR

7 NOBEL MÜKAFATI ALMIŞ İLK AMERİKALI QADIN

8 MİLLƏTİN XEYİRXAH ANASI


# İnsan və cəmiyyət

Çap üçün deyil



**İnsanları sevməyi bacarırsansa...**

Bir nəfər məşhur cərrah Albert Şveytzerdən:

– Əgər cərrah olmasaydınız, özünüzü insanlara necə həsr edərdiniz? – deyə soruşdu.

Şveytzerin cavabı isə bu idi:

– Əgər insanları sevməyi bacarırsansa, peşənin nə əhəmiyyəti var? Əgər insanları sevməyi bacarmırsansa, peşənin nə əhəmiyyəti var?..

- *Cərrahın fikrinə münasibət bildirin. Onun cavabında hansı hikmət gizlənmişdir? Peşə ilə insana olan hörmət və məhəbbətin nə kimi əlaqəsi vardır?*

Bölmədəki mətnlərlə tanış olarkən aşağıdakı sualları cavablandırmağa çalışın:

- *Nə üçün bölmə "İnsan və cəmiyyət" adlandırılmışdır?*
- *İnsanın cəmiyyətlə qarşılıqlı əlaqələri necə qurulur?*

Çap üçün deyil

# 1

Fikirləri oxuyub müzakirə edin.

Vaxtınızın bir hissəsini digər insanlara yardım etmək üçün ayırın. Başqasına qarşılıqsız olaraq nə isə edərkən nə qədər çox şeyə sahibləndiyinizi və yardımın necə də zövqverici bir iş olduğunu anlayırsınız.

**Xeyriyyə işlərində fəal olun.**

Gələcək haqqında düşünərkən böyük planlar qurmaqdan qorxmayın. Uğursuzluqlarla rastlaşsanız da, geri çəkilməyin. Çətinliklər və xoşagəlməz hadisələr sizi yolunuzdan saxlamasın, çünki sizin yerinə yetiriləsi daha vacib məqsədləriniz var.

**Böyük planlar qurun.**

Gözlərinizi qapayın, məşğul olmaq istədiyiniz işlərlə hal-hazırda məşğul olduğunuzu təsəvvür edin. Əgər qalib idmançı olmaq istəyirsinizsə, özünüzü idman zalında məşq edirmiş kimi təsəvvür edin. Əgər müəllim olmaq istəyirsinizsə, özünüzü sinifdə dərs keçən sevimli müəllim kimi təsəvvür edin və s.

**Gələcəyinizi təsəvvür edin.**

10-12 cümlə ilə istədiyiniz gələcək həyatınızı yazın: nə ilə məşğul olacaqsınız, harada yaşayacaqsınız? Əldə etdiyiniz uğurdan necə faydalanacaqsınız? Ancaq yazılarınızı gələcək haqqında deyil, artıq həmin gələcəkdə yaşayırmış kimi yazın.

**Şəxsi hekayənizi yazın.**

Amerikanın motivasiya üzrə tanınmış eksperti Ceyson Qarsia motivasiyanı uğur qazanmağın bir pilləsi hesab edir və bununla bağlı məsləhətlər verir.

Çap üçün deyil

**Təmizliyə riayət edin.**

Təmiz və rahat iş yeri, ev, ofis (və həyat!) yuxarı qalxmaq üçün əsas tələblərdən biridir. Ətrafdakı zir-zibil öz daxilimizin çirklənməsinə gətirib çıxarır. Həyatınızı qaydaya salsanız, hər bir gününüz daha aydın və enerjili keçər.

**Həmfikirlərinizi tapın.**

Ətrafınıza baxın, öz üzərində çox işləyən bir dostunuz varmı? Həmfikirlərinizi axtarıb tapın. Qarşılıqlı dəstək, məsləhətlər və kömək hər birinizə öz məqsədinizə çatmaqda yardımçı olacaq.

**Uğur hekayələri oxuyun.**

Sizi əhatə edən insanların uğur hekayələri ilə tanış olun. Adi qəzetdə sizi motivasiya və gələcək addımları atmaqda kömək edə biləcək onlarla hekayə tapmaq olar. Kitabxana və internetdə qeyri-adi uğurlar əldə etmiş insanlar haqqında istədiyiniz qədər kitab və məqalə tapa bilərsiniz.

**Gəzintiyə çıxın.**

Yaşadığınız yerin ətrafında gəzin və ya avtomobillə gəzintiyə çıxın, fikrinizi problemlərdən yayındırın. Gəzinti fikirlərin aydınlığı üçün ən yaxşı vasitədir.

**Yeni biliklər öyrənin.**

Bu ən əsas məsləhətdir. Heç bir zaman ətraf dünyanı öyrənmək üçün dayanmayın. Sizin üçün maraqlı olan hər bir şey haqqında oxuyun, qulaq asın və öyrənin. Sizdən nə isə soruşanda “bilmirəm” deməyin, “hələ öyrənməyə macal tapmamışam”, – deyərək yenilikləri öyrənməyə cəhd edin.

Çap üçün deyil

2

# UŞAQ QALMAQ İSTƏYİRƏM...

(*ixtisarla*)

**ORFOQRAFİYA**

➤ Mətndə göy rəngdə verilmiş sözlərdən hansı defislə yazılmalıdır?

**ORFOEPİYA**

➤ Misraların sonunda *-acaq*[2] şəkilçili feillərin tələffüzünə diqqət yetirin.

*Əgər bir gün yolunuzu itirsəniz, bir uşağın gözlərinin içinə baxın. Çünki bir uşağın bir yetkinə hər zaman öyrədə biləcəyi üç şey vardır:*

*1. Səbəbsiz yerə xoşbəxt olmaq;*
*2. Hər zaman məşğul ola biləcək bir şey tapmaq;*
*3. Əldə etmək istədikləri üçün var gücü ilə çalışmaq.*

***Paulo Koelyo, Braziliya şairi***

Dizlərim qanayacaq deyə, ağaclara çıxmayacağamsa...
Məni isladar deyə, (*yağışdan, qardan*) qorxacağamsa...
Qar dənəciklərinin üzümə toxunmasından sevinməyəcəyəmsə...
Göy üzündəki ulduzlara heyran qalmayacağamsa...
Balıqların nəfəs almadan suda necə üzdüklərinə heyrətlənməyəcəyəmsə...
Bir tırtılın necə kəpənək olması məni düşündürməyəcəksə...
Uzun?uzadı suallar verməkdən bezəcəyəmsə...
Əllərim kirlənəcək deyə, qumdan qala (*qurmayacağamsa, tikməyəcəyəmsə*)...
Quşları oxşamaqdan doyacağamsa…
Buludların məni ən uzaq diyarlara apara biləcəyinə inanmayacağamsa...
Ayın sırf gecə uşaqlar qorxmasın deyə, doğduğunu düşünməyəcəyəmsə...
Anama yol kənarından çiçək dərməyi unudacağamsa…
Böyük (*ürək, könül, qəlb*) şəkli çəkdiyim kağızları qeyri?adi bir şey kimi atama göstərməyəcəyəmsə...
Nənəmlə diz?dizə oturub saatlarla söhbət etməyəcəyəmsə…
Bayramları neçə gün əvvəldən böyük bir həyəcanla gözləməyəcəyəmsə...
Ac pişik balasını doyurmaq üçün bütün “var?dövlət”imi verməkdən çəkinəcəyəmsə...
Dostlarım arasında ciblərindəki pula görə fərq qoyacağamsa...

Çap üçün deyil

Hər?gün yeni bir şey öyrənməkdən əl çəkəcəyəmsə…
İnciklikərim, küskünlüklərim uzanacaqsa…
**Ətrafımı şübhələr, qorxular bürüyəcəksə…**
Haqlı da olsam, susmağa səbrim olmayacaqsa…
Həyatın "qara rəngləri"nə dözə bilməyəcəyəmsə…

Hər gecə məni, dünyanı və bütün insanları ilanlardan, əqrəblərdən, bir?də qaranlıqlardan qorusun deyə, Allaha dua etməyəcəyəmsə...

Yalnız mənə yaxşılıq edənləri "sevəcəyəmsə"... (*böyümək, yekəlmək*) istəmirəm, uşaq qalmaq istəyirəm. Həm?də yaşım neçə olursa-olsun, uşaq qalmaq istəyirəm...

1. Mətni oxuyun, məzmununu "Uşaq qalmaq istəyirəm" mətninin məzmunu ilə müqayisə edin. Eyniliyi müəyyənləşdirin.



Uşaq ailənin sevinci, fərəhi və ümid daşıyıcısıdır. Nəslin, soyun davamı, ailə ocağının istiliyi daha çox onun varlığına bağlıdır. *Ana və ata bir-birinə uşaq vasitəsilə yenidən bağlanırlar: uşağın sevinci onları sevindirir, üzüntüsü də kədərləndirir.*

Sevgi və şəfqəti ilə uşağı sevindirən, üzünü güldürən, qəlbini nəşələndirən valideynlər olduğu kimi, onunla sərt davranıb incə qəlbini incidən, tez-tez təhdid edərək küsdürən, qorxudan ata-analar da az deyil. Bəs tərbiyədə sevgi və qorxunun yeri necə olmalıdır? Ümumiyyətlə, tərbiyə daha çox qorxununmu, yoxsa sevgininmi üzərində qurulmalıdır? **Madam ki tərbiyə uşaq yetişdirmə sənətidir, bəs bu sənətin sənətkarı öz vəzifəsini sevgi, yoxsa qorxu iləmi yerinə yetirməlidir?**

Uşaq bir əmanətdir. Pak qəlbi, tərtəmiz ruhu, saf duyğuları, aydın zəkası ilə möhtəşəm bir aləmdir. Bu əmanətin sağlam yetişməsi, şəxsiyyətinin düzgün formalaşması, həyat yolunda vüqarla hədəflərinə qovuşması, nailiyyətlərə çatması öncə doğru tərbiyəsinə, sonra da təliminə bağlıdır.

***Ağa Hacıbəylinin "Tərbiyədə qoşa qanad: sevgi və qorxu" məqaləsindən***

- ✓ *J.Sesbornun "Sevgi görməyən uşaq uşaqlığını yaşaya bilmir. O, müdafiəsiz böyüyə çevrilir" fikri ilə razısınızmı?*
- ✓ *Kursivlə fərqləndirilmiş cümlədə qoşa nöqtə işarəsinin işlənmə səbəbini deyin.*
- ✓ *Mətndə tünd şriftlə verilmiş cümlədə hansı söz tələffüz formasındadır?*
- ✓ *Qırmızı rəngdə olan cümlədəki fikri müzakirə obyektinə çevirin. Siz bu suala necə cavab verərdiniz?*

Çap üçün deyil

2. Epiqrafla (səh. 96) mətnin məzmununun əlaqəsini əsaslandırın.

3. Sizcə, mətn böyüklərin, yoxsa kiçiklərin dilindən verilmişdir?

4. Mətnə (səh. 96) münasibət bildirin. Mətn uşaqların daxili aləmini necə xarakterizə edir? Həmin xüsusiyyətləri seçib yazın. Cavablarınızı mətndən götürülmüş nümunələrlə əsaslandırın.

Nümunə:

| | |
|---|---|
| 1-ci cümlədə<br>2-ci cümlədə | → dəcəl |
| ? | → hər şeylə maraqlanan |

5. Mətnin (səh. 96) tipini müəyyənləşdirin.

6. Mətnin (səh. 96) bədii üslubda yazıldığını demək olarmı? Niyə?

7. Mətnin (səh. 96) dili üçün xarakterikdir:

• elmilik • obrazlılıq • aydınlıq • konkrektlik

8. Hansı hikmətli kəlam mətnin məzmunu ilə səsləşir?

- Uşaqlıq görməyən insan gələcəkdə pis vətəndaş olacaq. (*F.Dostoyevski*)
- Övladlarınızı dövrümüz üçün deyil, onların dövrü üçün yetişdirin. (*Həzrət Əli*)
- Uşaqların nəsihətdən çox yaxşı nümunəyə ehtiyacı var. (*J.Jubert*)
- Uşaqlar olmasa idi, insanlığı bu qədər sevə bilməzdik. (*F.Dostoyevski*)

✓ *Özünüz də belə aforizmlər, atalar sözləri toplayıb qəzet maketinizdə yerləşdirin.*

9. Qırmızı rəngdə verilmiş sözün (səh. 96) mətndəki mənası hansıdır?

a) bənzəmək b) əzizləmək

10. Mətndə (səh. 96) mötərizədə verilmiş sözlərdən hansı işlənsə, daha düzgün və dəqiq olar?

Çap üçün deyil

11. Məntiqi ardıcıllığa əsasən davam etdirin.




12. *Böyük* sözünü həqiqi və məcazi mənada cümlələrdə işlədin. Altından xətt çəkilmiş cümlədə həmin söz hansı mənadadır?

13. *Göy üzündə* ifadəsi *göy üstündə* işlənərsə, hansı normanın tələbi pozular?

14. *Diyar, şəhər, respublika, vilayət* sözlərinin leksik mənalarını oxlarla düzgün birləşdirin.




Çap üçün deyil

15. Sizcə, cümlələrin (səh. 96-97) sonunda qoyulan üç nöqtə işarələrindən düzgünmü istifadə olunmuşdur? Fikirlərinizi əsaslandırın.
16. Mətndə (səh. 96) çərçivədə verilmiş sözlərin qrammatik mənasını fərqləndirin.
17. "Uşaq qalmaq istəyirəm" mətnində (səh. 97) tünd şriftlə verilmiş cümlədə hansı norma pozulmuşdur?
18. Sizcə, mətndə neçə cümlə vardır? Həmin cümlələrin sonunda hansı durğu işarəsi çatmır?
19. Mətnin son cümləsinin tabeli, yoxsa tabesiz mürəkkəb cümlə olduğunu deyin, cümlənin sxemini qurun.

20. Verilmiş söz, söz birləşmələri və cümlələrdən istifadə etməklə mətn tərtib edin. Mətni elə tərtib edin ki, bədii üslubda olmasın. Təsvir etdiyiniz hadisələrə öz münasibətinizi də bildirin.

*oyuncaq mağazası, balaca qız, imkanlı ailənin uşağı olmaq, atası ilə oyuncaq mağazasına getmək, rəngarəng oyuncaqlar, gəlincik, oyuncağın alınması üçün pulunun uyğunluğu, mağazadakı kasıb oğlan uşağı, qarşılaşmaq, oğlanın oyuncaq almaq arzusu, çarəsizlik, boyama kitabları, yaxınlaşmaq, kassaya pul ödəmək, mininci müştəri, oğlanın sevinci, səxavətli qız, xoşbəxtlik.*

*Cümlələr.*

Qız: Ata, əlimdəki pullar bu gəlinciyə çatar?

Oğlan: Ata, əlimdəki pullar bu oyuncağa çatar?

Kassadakı qız: Bu günün mininci müştərisi kimi bu hədiyyəni qazandınız.

Ata: Qızım, bunu nə üçün etdin?

Qız: Bu pulu mənə verəndə "səni ən çox xoşbəxt edən bir şeyi al" demədinmi?

Çap üçün deyil

**Plan**

- Oyuncaq mağazasında imkanlı ata və qız;
- Oyuncaq mağazasında imkansız ata və oğul;
- Qızın ata ilə oğulun danışığını eşitməsi;
- Atanın oğluna boyama kitabı alması;
- Qızın kassadakı qızla “işbirliyi”;
- İstədiyi oyuncağa sahib olan oğlanın hədsiz sevinci;
- Xoşbəxt qız;
- Hadisəyə münasibətiniz;
- Son sözünüz.

**İSTİQAMƏT:**

- Məqsəd və intonasiyaya görə sadə cümlənin növlərindən;
- Tabesiz və tabeli mürəkkəb cümlələrdən;
- Səbəb-nəticə əlaqəli cümlələrdən;
- Vasitəli və vasitəsiz nitqli cümlələrdən;
- Birləşdirmə və qarşılaşdırma bağlayıcılarından və s. istifadə edə bilərsiniz.

✓ *Yazdığınız mətnlər içərisində seçim edib ən yaxşı mətni qəzet maketinizdə yerləşdirin. Oxucularınızı müzakirəyə dəvət edin.*

**Mətndə əsas xətt:**

Xoşbəxt olmağın ən yaxşı yolu başqasını sevindirməkdir.

Çap üçün deyil

3

# MƏNİ XALQIMIN DİLİNDƏ DANIŞDIR

(*ixtisarla*)

**ORFOQRAFİYA**

Hansı səhv yazılmışdır?

- qırmızı rəngdə verilmiş cümlədə
- 1-ci abzasın son cümləsində
- altından xətt çəkilmiş cümlədə

**ORFOEPİYA**

Tələffüzü verilmiş sözlərin mətndən düzgün yazılışını tapın.

- [çətinnix́nən] [haḱında]
- [günnəri] [soyux]
- [onunnan] [səhi:fəlix́]



1973-cü ilin ilk günləri idi. O vaxtlar respublika radiosunun baş musiqi redaksiyası ilə sıx yaradıcılıq əlaqəsi saxlayırdım. Bir gün mənə Rəşid Behbudov haqqında böyük veriliş hazırlamaq tapşırıldı. Sözün doğrusu, bu, mənim üçün çox gözlənilməz oldu. Dedim görəsən burda nə sirr var, redaksiyanın özündə yaxşı qələmli adamlar ola-ola bu mövzunu mənə tapşırıblar Yaxından tanıdığım qələm dostlarımdan biri zarafata salıb bu suala belə cavab verdi: həmin mövzunu səni çox istədikləri üçün yox, Rəşid Behbudovun çox çətin və ərköyün təbiəti olduğuna görə sənə tapşırıblar. Gec-tez özün də bunun şahidi olacaqsan. Səni o qədər get-gələ salacaq ki, axırda onunla görüşməyinin peşimançılığını çəkəcəksən...

Qələm dostum necə demişdi, eləcə də oldu. Çox çətinliklə yanvarın 8-də onu tapdım, iş yerində – A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının binasında görüşdük. Məni çox soyuq qarşıladı. Mətləbə keçməzdən əvvəl ordan-burdan, havanın soyuqluğundan, mahnı teatrı üçün ürəyi istəyən – məşq zalının olmamasından danışdı. Elə ki onun həyat və yaradıcılığının ayrı-ayrı dövrlərindən konkret faktlar əsasında söhbət saldım, özü də hiss etmədən qızışdı. Xatirələr cığırı ilə uzaq-uzaq illərə gedib çıxdı. Babası Behbudalının Şuşadakı kiçik bəzzaz dükanından, atası Məcid Behbudovun xanəndəlik məharətindən, anası Firuzə xanımın müəllimlik fəaliyyətindən, qayğıkeşliyindən, özünün sənətə gəlişindən, dəmir yol texnikumunda oxumasından, Tiflisdə "Müştəyid" bağında müğənnilik etməsindən, ordu ansamblında, qonşu respublikanın caz orkestrində, opera teatrı səhnəsində uğurlu çıxışlarından danışdı. Müasir musiqinin, ifaçılıq sənətinin problemlərindən söz açdı. Bir sözlə,

Çap üçün deyil

üç saat davam edən görüşümüz zamanı onun həyat və yaradıcılığına ayrı-ayrı aspektlərdən nəzər saldıq.

Ayrılanda bir-iki məsləhət verdi. Dedi ki, verilişi yazmazdan əvvəl onun səsi yazılmış lentlərə qulaq asım. Və yazını mütləq ona göstərim. Razılaşıb necə demişdi, eləcə də etdim. Yazı hazır olanda zəng vurub görüşdük. İyirmi səhifəlik yazını oxuyub, azı, iyirmi yerdə sual işarəsi qoydu. Ən çox da orada onunla olan müsahibəyə ilişdi.

– Ə, bu nədir yazmısan?

– Müsahibədir, Rəşid müəllim.

– Ə, məni lap filosof etmisən. Heç mən belə danışıram?

– Çalışmışam ki, veriliş elmi-populyar və yüksək intellektual səviyyədə olsun.

– Ə, məni dağa-daşa salma. Xalqım necə danışır, eləcə danışdır.

– Rəşid müəllim, siz böyük müğənnisiniz. Gərək hər şeyə elmi mövqedən yanaşıb qiymət verəsiniz.

– Qurtardı! Apar bunları düzəlt, sonra gətir.

Vəziyyətdən çıxmaq üçün tez belə variant təklif etdim:

– Rəşid müəllim, bəlkə mən sualları hazırlayım, siz necə istəyirsiniz, elə cavab verin.

Həmişə gülümsəyən çöhrəsi dəyişdi. Hirslənib hücuma keçdi.

– Ə, niyə hamınız asan yolla getməyə çalışırsınız? Nə olar, bir az əziyyətə qatlaşın də. Mən ömrüm boyu əziyyət çəkmişəm. Bu əziyyətlər məni bədbəxt yox, xoşbəxt eləyib… İnandırım, zəhmətə qatlaşsanız, siz də xoşbəxt olarsınız. Amma asan yolla getsəniz, axırınız heç nədir...

**Möhbəddin Səmədin “Yaddaşımızın yaşıdları” kitabından**

1. C.Məmmədquluzadənin aşağıdakı fikirləri ilə R.Behbudovun fikirlərini müqayisə edin. Hansı oxşarlığı gördünüz?

Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram, özümdən soruşuram ki:

– Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

– Mənim anam rəhmətlik Zəhrəbanu bacı idi.

– Dilim nə dilidir?

– Azərbaycan dili!

– Yəni Vətənim haradır?

– Azərbaycan vilayətidir.

Deməк, çünki dilimin adı türk-Azərbaycan dilidir, belə məlum olur ki, Vətənim də Azərbaycan vilayətidir.

Çap üçün deyil

2. Mətnə əsasən Rəşid Behbudovun ana dilinə olan münasibətini müəyyənləşdirin.

3. Bu fikirlərdən biri mətndə ifadə olunan əsas fikirdir:
   - İnsan ucuz şöhrət dalınca qaçmamalıdır.
   - Uğur əldə etmək üçün insan mütləq zəhmət çəkməlidir.
   - R.Behbudov çətin xarakterə malik olsa da, qeyri-adi istedada malik sənətkardır.
   - Hər bir şəxs ana dilində səlis yazmağı bacarmalıdır.

4. Mətndə danışıq dilinə məxsus hansı xüsusiyyətləri gördünüz?

5. Mətnin dili üçün xarakterik olan xüsusiyyətləri müəyyənləşdirin:
   - dəqiqlik – dolaşıqlılıq
   - mücərrədlik – konkretlik
   - faktikilik – emosionallıq
   - qısa – ətraflı
   - aydın – şifrəli

6. Mətndən hansı faktları toplaya bildiniz?

7. Mətnin sonluğu C.Qarsianın hansı fikirləri ilə (səh. 94-95) üst-üstə düşür?

8. Mətn üçün açar sözlər seçin.

9. Birinci cümlədəki *ilk* sözünü aşağıdakı sözlərdən hansı biri ilə əvəz etmək olar? Niyə?




10. *Müsahibə* və *mübahisə* sözlərinin leksik mənalarını müəyyənləşdirib onları fərqləndirin.

11.




*Sxem əsasında demək olar ki, bina sözü ....... çünki ........*

Çap üçün deyil

12. Qırmızı rəngdə verilmiş cümləni düzgün yazın. Həmin cümlədə durğu işarələrinin işlənməsində buraxılmış səhvi düzəldin.

13. Altından xətt çəkilmiş cümlələrdə durğu işarələrinin işlənməsi ilə bağlı səhvi müəyyən edin. Səbəbini izah edin.

14. Dialoq şəklində verilmiş hissəni elə dəyişin ki, 3-cü şəxsin dilindən verilsin.

*Nümunə:*

– Ə, bu nədir, yazmısan?
– Müsahibədir, Rəşid müəllim!

Müsahibəni oxuyan müğənni jurnalistdən nə yazdığını soruşur və cavabında: “müsahibədir” sözünü eşidir.

**Azərbaycan ədəbi dilinin üslublarından biri publisistik üslubdur. Publisistik üslubda hamı üçün eyni dərəcədə anlaşılan, mənası aydın olan söz və ifadələrdən istifadə edilir.**

**Bu üslub xalq dilinə çox yaxındır.**




15. Rəşid Behbudov haqqında məlumat toplayıb təqdimat hazırlayın.

Çap üçün deyil

4

# BİR ANA QUCAĞINDA BİR KÖRPƏ APARIRDI



Küçələrdən keçənlər durub
Boylanırdılar,
Cavan qızlar, gəlinlər gizlicə yanırdılar.
Göz qoyurdu qarılar köks ötürüb dərindən,
Seyr edirdi uşaqlar, seyr edirdi gəlinlər.
Bütün şəhər elə bil bu lövhəyə dalırdı:
Bir ana qucağında bir körpə aparırdı…

Ona ad gəzirdilər, beşik axtarırdılar,
Başına dönürdülər, qadasın alırdılar.
Nənəsi yor...anını bərk-bərk
Quca...lamışdı,
Xalası bələ...inə göy muncuq bağlamışdı,
Əmisi əsgər kimi yeriyirdi dalınca,
Osa sakit, astaca baş qoymuşdu balınca…
Xırda qara gözləri açılır, qapanırdı,
Bir ana qucağında bir körpə aparırdı…

**Büsbütün arzuları**
**Uşaq təzələmişdi,**
**Tamam düz eləmişdi.**
Nə qədər *istək, murad* gətirmişdi özüylə,
Nənə kimi fəxri ad gətirmişdi özüylə,
Ata istəyi üçün, ana harayı üçün,
Qaynar, gur, təlatümlü ailə çayı üçün
Bir dayaq aparırdı, bir körpü aparırdı.
Bir ana qucağında bir körpə aparırdı…

Dünya bir nəğmə idi,
Dünya bir yuxu idi,
Elə bil yer üzündə
Bir tifil də yox idi.
Muzeylərə dönmüşdü sanki yetimxanalar,
Dəyişmişdi elə bil nankor ata-analar,

**ORFOQRAFİYA**

Düzgün yazın:

- çərçivəyə alınmış sözləri
- nöqtələrin yerinə buraxılmış hərfləri

**ORFOEPİYA**

- Orfoepiya ilə bağlı tapşırıqları özünüz hazırlayın.

Çap üçün deyil

Elə bil hər tərəfdən süd qoxusu gəlirdi,
Analar şərəfinə alqışlar yüksəlirdi,
Bütün dillər elə bil xoş bir layla çalırdı,
Bir ana qucağında bir körpə aparırdı…

İşı...lanmışdı sanki zülmət-zülmət ölkələr,
Nur içində üzürdü uzaq, yaxın qitələr,
Hər an artan ordular azalmışdı elə bil,
Seyrəlmişdi elə bil,
Bütün hərbi bazalar yumşalmışdı elə bil,
Kövrəlmişdi elə bil,
Elə bil ki ölənlər, itənlər tapılırdı,
Bir ana qucağında bir körpə aparırdı.

Bu misrada şairin hansı fikirləri ifadə olunmuşdur?

Demə balaca idi demə ki kiçik idi
O mənim yurdum üçün lap əsl kişi idi,
Böyük bir nəsil idi o mənim xalqım üçün,
O bir bərəkət idi süfrəmdə ocağımda
Mənə elə gəlirdi o ana qucağında
Bir ordu aparırdı bir ölkə aparırdı
Bir ana qucağında bir körpə aparırdı.

**Cabir Novruz**

1. Cümləni tamamlayın.

   *Mətn bədii üslubdadır, çünki ....*

2. Şair nankor ata-analar deyəndə nəyə işarə edir?
3. Çərçivəyə alınmış cümlədə şairin hansı arzusu öz əksini tapmışdır? Necə düşünürsünüz, bu arzular təsdiqini tapa bilərmi?
4. Lirik qəhrəman ananın qarşısında hansı tələbləri qoyur?
5. “Şeir şairin daxili aləmi, düşüncələrini bizə çatdırmaq üçün ünsiyyət vasitəsidir” fikri ilə razısınızmı? Niyə?
6. Şairin “Bir ana qucağında bir körpə aparırdı” fikrini hər dəfə təkrarlamaqda məqsədi nədir?
7. Şairin müharibələrə nifrəti hansı misralarda daha qabarıq görünür?
8. Sizcə, C.Novruzun qəhrəmanı olan körpə nəyin simvoludur?

Çap üçün deyil

9. Sxemi şərh edin.




10. Qırmızı rəngdə verilmiş sözləri (səh. 106) sinonim hesab etmək olarmı? Niyə?

11. Məntiqi ardıcıllığı davam etdirin.

Qaynar → isti → soyuq

Dayaq → ? → ?

Azalmaq → ? → ?

12. Şeirin 2-ci bəndinin ilk misrasındakı *gəzirdilər* sözünü hansı sözlə əvəz etsəniz, daha dəqiq olar?

13. Altından xətt çəkilmiş cümlələrdə (səh. 107) durğu işarələrini bərpa edin. Fikirlərinizi əsaslandırın.

14. Tünd şriftlə verilmiş cümləni (səh. 106) söz sırasına uyğun yazın. Sonra hər iki cümləni müqayisə edin.

15. Şeirlə "Məni xalqımın dilində danışdır" mətninin üslub xüsusiyyətlərini aşağıdakı cədvəl əsasında müqayisə edin.

| | Bir ana qucağında bir körpə aparırdı. | Məni xalqımın dilində danışdır. |
|---|---|---|
| oxşar cəhətləri | | |
| fərqli cəhətləri | | |

Çap üçün deyil

16. Mətni oxuyub aşağıdakı tapşırıqları yerinə yetirin.

- ✓ *Mötərizədəki sözləri sinonimləri ilə əvəz edin.*
- ✓ *Altından xətt çəkilmiş cümlələrdə durğu işarələrini bərpa edin, həmin cümlələrin sxemlərini qurun.*
- ✓ *Sözləri nöqtələrin yerinə düzgün yerləşdirin.*
  *sərnişinlər, 20 qəpik düzəldib, bir hadisənin, sürücüsü, gözləri yaşaranlar*
- ✓ *Təxəyyülünüz əsasında çərçivəyə alınmış cümləni tamamlayın. Sizcə, sürücü həmin qadına nə deyə bilər?*

Bu gün avtobusda ... şahidi oldum. Təqribən 20–25 yaşlı ... olan avtobusa 65–70 yaşlarında yaşlı bir qadın mindi. Boş yer tapıb oturdu. Dəsmalını çıxarıb arasındakı qəpikləri saydı. ... sürücüyə uzatdı və zəif səslə parkın yanında saxlamağı xahiş etdi.

Sürücü pulu götürmədi. Avtobusu parkın yanında saxlayıb: "İki dəqiqə gözləyin, gəlirəm", – deyib mağazaya tərəf (*götürüldü*). Süd, xama, makaron, düyü, ət, çörək alıb qayıtdı. Qadın utancaq səslə Mənim pensiyam bunları almağa çatır dedi. Sürücü nəvazişlə israr etdi. Qoca qadın doluxsundu. Avtobusda ... da az deyildi. Qadın (*sumkaları*) götürüb sürücünün alnından öpdü, uğur arzuladı və getdi. Bu vaxt 40 yaşlarında kök bir qadın bir çox sağ ola görə bu qədər pul xərcləməyə və bizi burada gözlətməyə dəyərdimi deyə qışqırdı

Oğlan qapını açaraq: "...", – dedi. Avtobusdakı ... sürücünü alqışladılar, qadın (*qaça-qaça*) avtobusdan düşüb gözdən itdi.

Cəmiyyətimizə belə gənclər, belə sürücülər lazımdır!

***Böyük əksəriyyətiniz, demək olar ki, hər gün ictimai nəqliyyatdan istifadə edirsiniz. Belə hadisələrlə rastlaşmısınızmı? Münasibətiniz necə olub?***

***Siz özünüz ictimai nəqliyyatda yaşlı insanlara qarşı necə hərəkət edirsiniz?***

17. Bir anlıq uşaq evlərinin, qocalar evlərinin olmadığı bir dünya təsəvvür edin. Bu mövzu ilə bağlı düşüncələrinizi, duyğularınızı əks etdirən esse yazın.

Çap üçün deyil

# XOCALI – FACİƏLİ TARİXİMİZ



## Yanan qapılar

Qapılar...

Taybatay açılan qapılar. Ahəstə açılıb, ahəstə bağlanan qapılar. Şad gündə qollarını geniş açıb gələnləri bağrına basan qapılar. Belə günlərdə qapıların sevinci hədsiz, fərəhi nəhayətsiz olur.

İndi isə qəmə qərq olub bu qapılar. Dərd içində boğulur, dərdini deməyə bir kimsə də tapmır bu qapılar. Yandırılmış qapılar...

Külə dönən qapılar. Boynubükük qapılar. Ətrafa boylananda qonşu qapılar da elə həmin gündə idi.

Niyə bəxti qara gəldi bu qapıların?

Təzə tikilən bu evin qapıları hələ sahibinin hərarətindən doymamışdı. Od vurdular bu evə, bu qapılara. Qapının bir tayının bağrı yandı, harayına gələn də olmadı. Açıq qalan o biri tay odu söndürmək üçün çox çalışdı, sağa-sola yelləndi, amma odu söndürə bilmədi. Qapı o qədər dartındı ki, yerindən qopdu, amma yenə də yanan yoldaşına kömək edə bilmədi.

Qapının biri alovdan yandı, o biri qəzəbdən.

Amma bu yanan qapılar bilirdi ki, bir gün bu evlərin sahibləri geri qayıdacaq. Onlar yanan evlərin, dağılan tifaqların, viran olan yurdun qisasını düşmənlərdən alacaqlar!

***Gülarə Munis, "Füyuzat" jurnalından, 2011-ci il, №3***

• Sizcə, müəllif qapı obrazını yaratmaqla hansı hadisələrə münasibət bildirmək istəyir? Müəllif "yanan qapılar"la kimin bədii obrazını yaratmağa çalışıb?

• Əsəri oxuyarkən hansı hissləri keçirdiniz? İlk anda nə düşündünüz?

• Siz Xocalı faciəsini yaşamış insanların bədii obrazını necə yaradardınız?

Çap üçün deyil



*Xocalı dərdi!*

*Hopdur*
*qəlbimizə*
*hünəri,*
*qeyrəti,*
*əzmi.*
*Yanğınla*
*sevgini*
*doldur*
*ruhumuza.*

# Xocalı

Xocalı mühasirədə idi. Ermənilər rus hərbi bölmələrinin köməyi ilə Xocalının mühasirəsini get-gedə daraldırdılar. Zülmətə bürünmüş şəhər acı bir sükuta qərq olmuşdu. Şəhərin kənarında toplaşan ermənilərə məxsus tank və BMP-nin gurultusu bu sükutu hədələyirdi.

Təxminən gecə saat 22:00 radələrində ermənilər güclü texnikaya malik 366-cı motoatıcı alay və muzdlu qatillərlə birlikdə xüsusi amansızlıqla bir neçə istiqamətdən Xocalıya hücum etdilər. Qarşıya çıxan evləri yandırıb sakinlərini vəhşicəsinə qətlə yetirən düşmən qocalara, qadınlara, bələkdəki körpələrə belə güzəştə getmədi.

✓ *Hər iki mətn arasında məzmun baxımından oxşarlığı hansı məqamlar təsdiq edir?*

*Bir anlıq təsəvvür edin ki, jurnalistsiniz. Sizə Xocalı hadisəsi ilə bağlı məqalə yazmaq tapşırılıb.*

- *Siz bu faciəni necə təqdim edərdiniz?*
- *Yazınızın oxunaqlı və təsirli olması üçün nə edərdiniz?*

Çap üçün deyil

5

# PƏNCƏRƏ

Xoşbəxtliyi öz daxilində tapa bilmirsənsə, onu başqa yerdə axtarma.

***Fransua de Laraşfuko, fransız yazıçısı***

İki çarpayı və həyatla ölüm arasında mübarizə aparan iki xəstə... Çarpayılardan biri pəncərənin qarşısında, o biri isə divarın dibindədir. Pəncərə qarşısında yatan xəstə səhərdən axşama qədər bayıra baxaraq gördüklərini yoldaşına danışırdı: “Bu gün dəniz dünənkindən daha sakitdir. Külək də dünənki kimi əsmir. *Dənizdə üzən ağ yelkənlər sanki su sonalarıdırlar.* Parkda hələ ki heç kim yoxdur. Yelləncəklər də boşdur. Budur, keçən həftə gələn sevgililər yenə buradadırlar. Skamyalardan birində əyləşdilər. Gözlərini bir-birlərindən çəkmirlər. Oğlan pıçıltı ilə qıza nəsə danışır. Nə qədər də bir-birlərinə yaraşırlar. Kaş ki öz gözlərinlə görəydin. Qızılgüllər bu gün sanki bayram edirlər. Elə açıblar ki, hər tərəf qırmızı rəngə boyanıb. Alça ağacları da gəlin kimi başdan-ayağa ağa bürünüb. İndi də parkın bəzəyi uşaqlar gəldilər. Əllərində rəngbərəng çərpələnglər var. Sanki çərpələngləri yox, ümidlərini uçururlar. Bu gün qağayıların da kefi kökdür. Mavi dənizin üzərində o yan-bu yana uçurlar...”

Günlər beləcə keçib gedir, xəstə isə hər gün pəncərədən gördüklərini yoldaşına danışırdı.

Bir gün pəncərənin yanındakı xəstənin ürəyi tutdu. Əgər palatadakı xəstə düyməni basıb həkimi çağırsa idi, bəlkə də, yoldaşını xilas edə bilərdi. Ancaq o, bunu vaxtında etmədi. Düşündü ki, yoldaşı öləndən sonra pəncərənin qarşısındakı çarpayı boşalacaq və onu bu çarpayıya köçürəcəkdilər. Beləcə, o, bu günə qədər qulaqları ilə eşitdiklərini gözləri ilə görəcəkdi. Çox keçmədi ki, yoldaşı öldü. Ertəsi gün onu pəncərənin qarşısındakı çarpayıya köçürdülər. Artıq gözlədiyi an gəlib çatmışdı.

Həyəcanla pəncərədən bayıra baxdı. Ancaq... Ancaq bayırda qapqara divardan başqa heç bir şey yox idi...

**“Ailəm” jurnalından, 2008-ci il**

**ORFOEPİYA**

*-lər* şəkilçisinin tələffüzünə diqqət yetirin. Fərq müşahidə etdinizsə, səbəbini izah edin.

- yelkənlər – [ ]
- yelləncəklər – [ ]
- sevgililər – [ ]

***Hadisələrin sonluğunu təxmin edin.***

Çap üçün deyil

1911-ci ilin baharı idi. Eşitdim ki, istedadlı şairimiz Sabir bərk xəstələnmişdir. Mirzə Cəlil ona məktub yazıb müalicə üçün Tiflisə dəvət edir. Sabir dəvəti qəbul edib təşrif buyurdu. Biz onun müalicəsi üçün əlimizdən gələni əsirgəmirdik.

Sabir nurani, mehriban bir şəxs olmaqla yanaşı, baməzə söhbətlər edən biri idi.

Mirzə Cəlil həkimləri çağırıb konsilium təşkil etdi. Məlum oldu ki, Sabirin böyrəyində daş vardır. Daşı çıxarmaq üçün təşrih etmək məsləhət görüldü.

Nə qədər dilə tutduqsa, Sabir buna razılıq vermədi. Həkimlərə: “Mən portmanat deyiləm ki, məni açasınız, baxasınız, yenidən bağlayasınız”, – cavabını verdi.

2 ay bizdə yaşadıqdan sonra onu böyük təəssüflə yola saldıq.

***Həmidə Məmmədquluzadənin***
***“Mirzə Cəlil haqqında xatirələrim”dən***

1943-cü ilin yazında Kuban uğrunda gedən döyüşlərin birində əsgər Nurqaliyev ağır yaralanmışdı: düşmənin 48 millimetrlik partlamamış mərmisi onun sağ baldırını dəlmiş və uc hissəsi onun qanlı yarasından kənara çıxmışdı. Huşunu itirən döyüşçünün çatdırıldığı tibb məntəqəsində dərhal qərara gəldilər ki, aşağı ətraf mina ilə birlikdə amputasiya ediləcək, sonra isə zərərsizləşdiriləcək.

– Oğlan lap cavandır, bəlkə, ayağını xilas eləməyə çalışaq? – deyə baş həkim Vəli Axundov təklif etdi.

Bu, asan qərar deyildi – həkimlər həyatlarını riskə atırdılar. Axı əməliyyat zamanı mina partlaya da bilərdi. Əməliyyat otağında Vəli Axundovdan başqa, gənc həkimə könüllü şəkildə kömək etməyə gələn yalnız bir tibb bacısı vardı. Bütün bu vaxt ərzində əməliyyat otağından aralıda minaaxtaranlar növbə çəkirdilər. Əməliyyat zamanı yaradan uğurla çıxarılan mina sarğı materiallarına büründü və xüsusi qaba qoyulandan sonra zərərsizləşdirilmək üçün minaaxtaranlara təhvil verildi.

Maraqlıdır ki, qəzetdə məqalə çıxandan bir ay sonra Baykal-Amur magistralında işləyən gənc bir həkim ona reaksiya verdi. Qəzetdə gedən yazı onu tamamilə sarsıdıbmış, çünki təsvir olunan hadisəni o, hələ uşaq ikən anasından eşidibmiş. O qadın Yelizaveta Suqak imiş və döyüşçü Nurqaliyevin xilası üzrə unikal əməliyyat zamanı Vəli Axundova tibb bacısı kimi kömək edirmiş.

***Nigar Axundovanın***
***“Zamanın işığında canlanan portret – Vəli Axundov” kitabından***

1. Hər üç mətni məzmun və üslub baxımından müqayisə edin. Mətnlərdəki hansı fakt müqayisə olunmalıdır?

Çap üçün deyil



- *Rəssam işinə münasibət bildirin. Sizcə, şəkil mətnin (səh. 112) məzmununu mənimsəməyə xidmət edirmi?*
- *Şəklin hansı müsbət və mənfi cəhətləri vardır? Təsəvvür edin ki, sizə şəkillə bağlı rəy yazmaq tapşırılıb. Rəydə nə yazardınız?*
- *Necə düşünürsünüz, yalnız şəkil əsasında mətn tərtib etmək olarmı?*
- *Şəklin məzmununu daha dərindən əks etdirən şəkil çəkməyə siz də çalışın.*

2. Bunlardan biri mətnin (səh. 112) tipidir:

   • *Nəqlidir.* • *Təsviridir.* • *Mühakimə xarakterlidir.*

3. Pəncərə yanındakı xəstə hansı məqsədlə hər gün “gördüklərini” xəstə yoldaşına danışırdı?

4. Mətnə əsasən hər iki xəstəni xarakterizə edin.




5. Mətndə (səh. 112) təsvir edilən hadisənin nə dərəcədə real olması ilə bağlı mühakimə yürüdün.

Çap üçün deyil

6. Mətndəki (səh. 112) hansı cümlə ikinci xəstənin pəncərə qarşısındakı çarpayıya keçmək məqsədini əks etdirir?
7. Sizcə, nə üçün palatanın aşağı tərəfində yatan xəstə pəncərəyə yaxınlaşa bilmirdi?
8. Mətnlər (səh. 112-113) əsasında xalqımıza məxsus keyfiyyətləri sadalayın.

9. Mətndə (səh. 112) çərçivəyə alınmış sözləri daha uyğun ifadə ilə əvəz edin. Sizcə, əvəz etdiyiniz ifadə mürəkkəb feil, yoxsa frazeoloji birləşmə olmalıdır?
10. *Yoldan çıxardı* frazeoloji birləşməsini həm həqiqi, həm də məcazi mənada cümlədə işlədin.
11. Mətnin (səh. 112) ilk cümləsində antonim sözləri müəyyənləşdirin.
12. Altından xətt çəkilmiş cümlədə (səh. 112) hansı ifadənin işlənməsi leksik normanın pozulmasıdır?
13. *Düymə* sözünün aşağıdakı mənalarından hansı mətndə işlənmişdir?
    - Qapının cəftəsi
    - Paltarı bağlamaq üçün müxtəlif materiallardan düzəldilən əşya
    - Tumurcuq
    - Müxtəlif mexanizmləri işə salmaq üçün mütəhərrik düyməcik
14. *Kök* sözünün omonimliyini və çoxmənalılığını əsaslandırıb sxemi tamamlayın.




Çap üçün deyil

15. Sxemi tamamlayın. *An* sözünün qrammatik mənalarını müəyyənləşdirib omonimliyini nümunələrlə əsaslandırın.

? ← an → ?

16. Mətndə (səh. 112) qırmızı rənglə verilmiş sözü təsdiq bildirən hansı sözlə əvəz etsəniz, məzmuna xələl gəlməz?

17. Kursivlə fərqləndirilmiş cümlədə (səh. 112) qrammatik normanın pozulması halını müəyyənləşdirin. 1-ci abzasda bu hal daha hansı cümlələrdə müşahidə olunur?

18. Mətnin (səh. 112) sonundakı cümlələrdən sonra üç nöqtə işarəsinin qoyulma səbəbini deyin.

19. Mətnlərin publisistik üslubda olduğunu sübut edin.

20. Vasitəsiz nitqin tələbinə uyğun olaraq durğu işarələrini bərpa edin.

Hər əməlin arxasında bir niyyət dayanır. İnsan kimə və niyə yaxşılıq etdiyini yaxşı bilməlidir. Əslində, yaxşılıq da, pislik də müəyyən mənada insanın xarakteridir. Bir dəfə Həzrət Əlidən soruşurlar

Əgər siz birinə yaxşılıq etsəniz və o bunun əvəzində sizə pislik etsə, nə edərdiniz

İmam cavab verir

Əlbəttə, yaxşılıq edərdim

Əgər o yenə pisliklə cavab versə

Yenə yaxşılıq edərdim

Əgər o yenə pisliklə cavab versə

Yenə yaxşılıq edərdim

Bu necə olur ki, siz onun hər pisliyinə yaxşılıqla cavab verirsiniz

Həzrət Əli suala sualla cavab verir

✓ *Altından xətt çəkilmiş cümlələrdə vergülün işlənmə səbəbini izah edin.*

1 çəkindirə bilmirəm,

2 pis olduğu halda

3 olduğum halda

4 çəkindirsin.

5 mən yaxşı

6 o isə

7 məni yaxşılığımdan

8 onu pisliyindən

Çap üçün deyil

21. Verilmiş xüsusiyyətləri aid olduğu üslubla düzgün birləşdirin. Cavab variantını özünüz hazırlayın.

- Bu üslubda yazılan əsərlərin dili çətin olur.
- Fikrin ifadəsi üçün iki formasından istifadə edilir.
- Məcazi mənalı sözlərdən geniş istifadə olunur.
- Bu üslubda ideoqrafik yazıdan istifadəyə geniş yol verilir.
- Xalq dilindən götürülmüş söz və ifadələrdən istifadəyə yol verilir.
- Terminlərdən geniş istifadə olunur.

- bədii üslub
- elmi üslub
- publisistik üslub

22. Mətnin (səh. 112) ardını yazın. Bunun üçün sonluğa fərqli yanaşın. Aşağıdakı cümlələrdən istifadə edin.

- Mətnin ikinci abzasını təsiredici sonluqla bitirin.

*Tibb bacısı xəstənin kor olduğunu deyir.*

- Mətnin ikinci abzasını nikbin sonluqla bitirin.

*İkinci xəstə dərhal düyməyə basır, ...*

Çap üçün deyil

6

# BİLMƏK ƏN BÖYÜK XƏZİNƏDİR

**1** Bundan sonra kitabda uzaq bir ölkədəki xəzinədən bəhs edilirdi. İlk (*səhfələrdəki, səhifələrdəki*) fars dilində olan mətn bir qədər sonra ərəbcə davam edirdi. Artıq özünü dünyanın ən var...ı(r, l) adamı hesab edən gənc başqalarının bu sirri bilməməsi üçün kitabı tərcümə etdirmək istəmədi. Buna görə də böyük bir həvəslə ərəb dilini öyrənməyə başladı. Ərəb dilini öyrəndikdən sonra kitabı yeni... oxu... başladı. Ancaq bir qədər sonra kitab Çin dilinə keçdi.

**2** Daha sonra kitabda texniki mövzu... danış.... Bununla da o, böyük daş qapıları necə açmağı, necə yol çəkməyi, tarixi abidələrin sirrini açmağı və s. öyrəndi.

Beləliklə, gəncin şö...rəti(h, x) padşaha qədər gedib çatdı. Əvvəllər ona kiçik vəzifələr verən padşah, **nəhayət**, onu böyük bir şəhərin va...isi(r, l) təyin etdi.

**3** Qədim dövrlərdə dul bir qadın yaşayırdı. Qadının tək bir oğlu var idi. Bir gün (*ölümünün, ölmünün*) yaxınlaş... hiss edən ana (*oğlunu, oğulunu*) yanına çağırdı və: "Çox çətin günlər yaşadıq. Çünki çox yoxsul idik. ■ Ancaq mən sənə bir kitab qoyub gedirəm. İçində böyük bir xəzinəni tapmaq üçün hər şey var. Onu sənə əmanət edirəm", – dedi.

**4** Az keçməmiş ana dünyasını dəyişdi. Onu (*dəfin, dəfn*) etdikdən sonra oğul kitab... oxumaq... başladı.

*Kitabın əvvəlində bu sözlər var idi Xəzinəni tapmaq üçün bütün kitabı oxumalısınız Əgər əvvəlini oxumamış axırına keçmək istəsəniz kitabı birdəfəlik itirməli olacaqsınız*

**5** Gənc qısa vaxtda sayılan və seçilən bilik... bir insan... çevrildi. **Nəhayət**, padşah onu özünə vəkil təyin etdi.

Daha sonra da vəzir...iyə(r, l) qədər yüksəldi. Artıq növbə son səhifəyə çatmışdı. Həm də o gün gəncin padşahın qızı ilə toyu idi. Və son səhifəni çevirib, son cümləni oxudu: "Bilmək ən böyük xəzinədir…"

Çap üçün deyil



**6** Daha sonra başqa dillər gəldi. Gənc isə xəzinə... sirri... başqasına vermək istəmir və böyük bir (*səbirlə, səbrlə*) bütün bu dilləri öyrənirdi. Bir tərəfdən də, işsiz qalmasın deyə tərcüməçiliyə başladı. Çox keçməmiş ölkənin ən yaxşı tərcüməçilərindən biri oldu. Buna baxmayaraq, o oxumaqda davam edirdi. Daha sonra kitabda xəzinənin necə idarə olunmasından bəhs edilirdi. Beləliklə, gənc iqtisadiyyatı və ticarəti də öyrəndi. Sonrakı səhifələrdə isə qiymətli daşlara və metallara qiymət qoymaqdan söhbət gedirdi.

**“Rəvayətli ifadələr” kitabından**

### ORFOQRAFİYA

Hansı düzgündür?

- mötərizədə verilmiş sözlərdən
- göy rəngdə verilmiş sözlərə aid mötərizədəki hərflərdən

### ORFOEPİYA

- keçmək istəsəniz – [...............]
- bilikli insan – [...............]
- böyük həvəslə – [...............]

Çap üçün deyil

1. Nöqtələrin yerinə hansı Azərbaycan şairinin təxəllüsü yazılmalıdır?

**Mətnin məzmunu "Bilmək ən böyük xəzinədir" mətninin məzmunu ilə necə əlaqələnir?**

### Hər oxuyan Molla Pənah olmaz

Bu məsəl böyük Azərbaycan şairi .........adı ilə bağlıdır. Qazax rayonunun Qıraq Salahlı kəndində anadan olmuş şair XVIII əsrin ikinci yarısından etibarən o dövrdə Azərbaycanın görkəmli mədəniyyət ocaqlarından biri olan Şuşa şəhərinə köçüb müəllimlik və şairliklə məşğul olmuş, çox az bir müddətdə bütün Qarabağda şöhrət tapmışdır.

Xalqın böyük hörmət və məhəbbətini qazanmış, dövrünün məşhur şair və alimi olan ..... Qarabağ xanı İbrahim xan sarayına dəvət etmiş və ..... öz istedad və qabiliyyəti sayəsində xanın baş vəziri rütbəsinə qədər yüksəlmişdir.

Vaqifin şirin qoşmaları, sadə və səmimi şeirləri, mübarizə ilə dolu həyatı onun şöhrətinin geniş xalq kütləsi içərisində əbədiləşdirmişdir. Heç də təsadüfi deyildir ki, xalqımız onun bilik və qabiliyyətini əks etdirərək "Hər oxuyan Molla Pənah olmaz" zərbi-məsələni yaratmışdır.

İbrahim xanın Murad adlı mötəbər bir qatırçısı varmış. Buna görə xalq arasında çox zaman "Hər oxuyan Molla Pənah olmaz, hər qatırçı Murad" ifadəsi bir yerdə işlənir.

***Musa Adilovun "Niyə belə deyirik" kitabından***

2. Mətndəki (səh. 118-119) abzasların ardıcıllığını bərpa edin. Bunun üçün aşağıdakı cavablardan birini seçin.

A) 3, 5, 1, 6, 2, 4 C) 3, 4, 2, 2, 6, 5
B) 3, 4, 1, 6, 2, 5 D) 3, 6, 4, 1, 2, 5

3. Kvadrat işarəsi qoyulmuş yerə elə cümlə əlavə edin ki, fikirlər arasında əlaqə yaratsın.

4. Sizcə, oxunan kitab oğlanda hansı mənfi xüsusiyyəti aradan qaldırır və onu yetkin bir insana çevirir? Mətndəki hansı cümlə onun mənfi xüsusiyyətini əks etdirir?

5. Ana obrazını təhlil edin.

Çap üçün deyil

6. Mətn C.Qarsianın hansı tövsiyəsi ilə (səh. 94-95) üst-üstə düşür?
7. Sizcə, oğulun həyatda özünü təsdiqində hansı obyektin rolu böyükdür?

   ✓ *Niyə belə hesab edirsiniz?*




8. Atalar sözlərini məzmun baxımından uyğunlaşdırıb tamamlayın.

| | |
|---|---|
| **1** Bir işi bitirməyincə | **a** soruşmamaq eyibdir |
| **2** Bilməmək eyib deyil | **b** hər şeydən mənfəət götürər |
| **3** Tənbəl deyər Bu gün oynaram sabah oxuyaram | **c** o biri işə başlama |
| **4** Ağıllı baş | **ç** ağıllı deyər Bu gün oxuyaram, sabah oynaram |

✓ *Hansı atalar sözü mətnin məzmununa daha uyğundur?*

✓ *Durğu işarələrini bərpa edin.*

✓ *Hansı atalar sözü vasitəsiz nitqə nümunədir? Həmin cümlənin sxemini qurun.*

9. Siz mütaliə edirsinizmi? Siz öz mütaliə səviyyənizdən razısınızmı?
10. Oxumaq üçün hansı mövzuda yazılmış əsərlərə üstünlük verirsiniz? Oxuduğunuz kitablar sizə necə təsir edir? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

Çap üçün deyil

11. Mətndə (səh. 119) altından xətt çəkilmiş ifadədə *idarə olunmaq* sözünü hansı sözlə əvəz etsək, daha düzgün olar?

12. Uyğunluğu düzgün müəyyənləşdirin.




✓ ***Tarixin səhifələri*** *birləşməsində səhifə sözünün həqiqi və ya məcazi mənada işləndiyini deyin.*

13. 2-ci və 5-ci çərçivədə (səh. 118) *nəhayət* sözünün işlənmə məqamlarına diqqət yetirin. Hansı söz yerində işlənmişdir və yaxud işlənməmişdir? Fikrinizi sübut edin. 2-ci çərçivədə *nəhayət* sözünü hansı sözlə əvəz etsəniz, daha düzgün olar? 5-ci çərçivədəki *nəhayət* sözü yerinə düşürmü?

14. Sözlərin antonimlərini tapın.




15. *Bir dul qadın, dul bir qadın* birləşmələrindəki *bir* sözünün qrammatik mənalarını fərqləndirin.

16. Qırmızı rəngdə verilmiş sözlərə uyğun şəkilçilər artırıb cümləni tamamlayın.

17. Çərçivədə verilən cümləni elə dəyişin ki, o, tabesiz mürəkkəb cümlə olsun və aşağıdakı sxemə uyğunlaşsın.




18. Fərqləndirilmiş cümlənin sxemini qurun. Cümləni sadə cümləyə çevirmək olarmı? Niyə?

Çap üçün deyil

19. *Ana ilə oğulun, padşahla oğulun* münasibətlərini dialoq şəklində yazın. Hər iki dialoqu müqayisə edin. Oğulun ana və padşahla danışığında fərq olacaqmı? Sizcə, o fərq özünü nədə göstərəcək?

✓ *Obrazlara ad verə bilərsiniz.*

**Gündəlik həyatda, ailədə insanların istifadə etdikləri ədəbi dil məişət üslubuna aid edilir.**

**Şifahi şəkildə mövcud olan məişət üslubunun əsas əlaməti sərbəstlik və təbiilikdir. Şəxs məişət üslubunda istədiyi kimi danışmamalı, hər söz və ifadəni işlətməməlidir.**

**Digər üslublar kimi, məişət üslubu da ədəbi dilin qayda-qanunlarına tabe olmalıdır.**

20. Danışıq dili üçün səciyyəvi olan dil vahidlərinin altından xətt çəkin və növünü müəyyənləşdirin.

- Mən on yaşında, ya bəlkə, bir qədər də artıq olardım. Xalam azarlamışdı. (*C.Məmmədquluzadə*)
- Burada Şirəli mənə hər nə desə idi, genə qulaqardına vurub özümü yetirərdim evə. (*C.Məmmədquluzadə*)
- Noruzəli cavab verdi:
  – Ay xan, mən kətdi adamam, mən nə bilirəm, poçtxana nədi?
  – Çox əcəb, nəçərnik divanxanasını ki tanıyırsan? (*C.Məmmədquluzadə*)
- Ayaq dedim, ayağım yadıma düşdü. Şoqəribin qanı dayanmırdı ki, dayanmırdı. (*C.Cabbarlı*)
- Ş ə r i f. Siz, xala, savsim bespakoys olmayın, mən özüm buradayam. Hər bir işi subutalni, dakumentalni düzəldərəm. (*C.Cabbarlı*)

✓ *Bədii ədəbiyyatdan özünüz də belə nümunələr seçin.*

Çap üçün deyil

7

## NOBEL MÜKAFATI ALMIŞ İLK AMERİKALI QADIN

(*ixtisarla*)

*Amerikanın gələcəyi məktəb və evlərimiz tərəfindən müəyyən ediləcək. Uşaq öyrəndiyini və gördüyünü edər. Odur ki biz nə öyrətdiyimizə və necə yaşadığımıza diqqət etməliyik.*

***Laura Ceyn Adams***



**ORFOQRAFİYA**

Necə yazılmalıdır:
defislə, bitişik, yoxsa ayrı?

- mətndə göy rəngdə verilmiş sözlər

**ORFOEPİYA**

Hansı düzgündür?

- [təşgilat] – [təşkilat]
- [dəsdək] – [dəsdəx́]
- [ictimai] – [ictimayi]
- [tətbiḱ] – [tətbiq]

Laura Ceyn Adams Amerika Birləşmiş Ştatlarının tarixinə Nobel mükafatı almış ilk amerikalı qadın kimi daxil olmuşdur. *O, həmçinin ABŞ-ın ictimai-filosof adını almış ilk qadını kimi də öz adını tarixə yazdıra bilmişdir.*

Ceyn 1883-cü ildə rəfiqəsi Helen Starla birlikdə Avropa səyahətinə yollanır. Səyahət zamanı onlar Londonda xeyriyyəçiliklə məşğul olan "Toynbi-Holl" təşkilatına baş çəkir. Oksford Universiteti tələbələrinin xidmət göstərdiyi bu yer Ceyndə sosial problemlərə qarşı maraq oyadır və məhz bu səyahətdən sonra o, həyatda nə etmək istədiyini anlayır.

Çap üçün deyil

Adam və Star ABŞ-a qayıtdıqdan sonra belə qərara gəlirlər ki, "həyatı elə həyatın özündən öyrənə biləcəkləri bir yer" tapsınlar. Ciddi axtarışlar onları Çikaqonun 19 məhəlləsinə – yoxsullar rayonuna, mühacirlər yaşayan yerlərə gətirib çıxarır. Onlar böyük bir binanı icarəyə götürürlər. Beləliklə, Çikaqonun kasıb bir məhəlləsində Ceyn Adams "Hull-House" xeyriyyə təşkilatını yaradır. Bu təşkilat Şimali Amerikanın ilk xeyriyyə təşkilatlarından olur. Təşkilatın məqsədi yoxsul insanlara yardım etmək və onlara təhsil verməkdən ibarət idi. "Hull-House" xeyriyyə təşkilatı kimi qısa zamanda bir çox böyük işlərə imza atır…

Ceyn Adams və rəfiqəsi Helen Star ehtiyacı olanlar üçün pul toplayır, yüksək təbəqəyə məxsus gənc qadınları onlara maddi dəstək verməyə, uşaqların qayğısına qalmağa, xəstələrə kömək etməyə səsləyirdilər. Məhz bu uğurlu başlanğıcın nəticəsi idi ki, "Hull-House" təşkilatı fəaliyyətinin ikinci ilində artıq həftəyə 2000 nəfər qəbul edirdi…

"Hull-House təşkilatında səhər az?yaşlılar üçün məşğələlər keçirilir, günün ikinci yarısında orta?yaşlı uşaqlarla görüşlər təşkil edilir, axşamlar isə gecə məktəbi xarakterini almış bir sıra dərslər tədris olunurdu.

**"Hull-House" durmadan inkişaf edir və bir sıra yeni layihələr reallaşdırırdı.** Belə ki onlar Çikaqoda uşaq bağçası, məktəb, kafe, idman zalı, qızlar üçün internat?klub, cavan qadın işçilər üçün istirahət yerləri, cildləmə emalatxanası, musiqi məktəbi, işədüzəltmə bürosu və əmək muzeyi yaradırlar.

Vətəndaşlıq məsuliyyətinin nə olduğunu dərk edən Ceyn Adams vətənpərvər, yüksək mədəni görüşləri olan, müasir inkişafın bir parçası olduqlarını anlayan liderlərin yetişməsinə də çox böyük sərmayə yatırır. O deyirdi: "Sivilizasiya elə bir həyat metodudur ki, orada hər?kəs bərabər hüquq və hörmətə layiqdir". Onu da qeyd edək ki, "Hull-House" təşkilatında təhsil alan və ya çalışan şəxslər sonradan ABŞ-ın təhsil həyatında mühüm liderlər olmuşlar.

"Hull-House" təşkilatının köməkliyi ilə sosial işlər professional səviyyəyə qaldırılır. Təşkilatın şöhrəti artdıqca Adamsı şəhərin sosial işlərinə dəvət edirlər. Belə ki o, 1905-ci ildə təhsil üzrə müşavir təyin edilir, bir müddət sonra isə məktəblərin idarəsi üzrə komitənin nümayəndəsi seçilir.

1908-ci ildə C.Adams Çikaqoda vətəndaşlıq dəyərləri üzərində qurulan məktəbin ərsəyə gəlməsində yaxından iştirak edir. Növbəti ildə isə o, milli sosial işlər üzrə ilk qadın prezident seçilir.

Sosial həyatdakı problemlərin həlli yollarını böyük bir həvəslə araşdırıb tapmaq və onları tətbiq etmək Ceyn Adamsın başlıca məqsədi olmuşdur. Məhz bu səbəbdən o, XX əsrdə bütün dünyada reformizm cərəyanının ilk nümayəndəsi, "Hull-House" xeyriyyə təşkilatının yaradıcısı kimi adını Amerika tarixinə qızıl hərflərlə yazdırmağa müvəffəq olmuşdur...

**Səbinə Vahidqızı,**
**"İşıq" jurnalından, 2012-ci il**

Çap üçün deyil

1. Aşağıdakı faktlardan istifadə edərək kiçik mətn tərtib edin. Əsas mətnin üslubunu qorumağa çalışın.




2. *Vətəndaşlıq dəyərləri üzərində qurulan məktəb* fikrini necə başa düşürsünüz? İlk növbədə *vətəndaşlıq dəyərləri* ifadəsinin leksik mənasını izah edin.
3. *Sosial işlər* dedikdə nə nəzərdə tutulur?
4. Mətnin giriş, əsas və nəticə hissələrini müəyyənləşdirib hər hissəni 1-2 cümlə ilə ifadə edin.
5. Hansı hikmətli kəlam mətnin məzmunu ilə səsləşir?
   - İnsanlığı yüksəldən ülvi düşüncələri ilə birgə onların iradələridir. (*L.Vinçi*)
   - Xəzinə kəşf etmək istəsən əgər,
     Hər bir çətinliyə tab et, sinə gər. (*N.Gəncəvi*)
   - Müəllim bir şama bənzər: özünü əridərək başqalarına işıq verər. (*P.Ruffini*)
   - Məsləhətli don gen olar. (*Atalar sözü*)
6. Mətn üçün xarakterikdir:
   - bədiilik • obrazlılıq • aydınlılıq • anlaşıqlılıq
7. C.Adamsın fikrinə (səh. 124) münasibət bildirin və onun fəaliyyətini qiymətləndirin.

Çap üçün deyil

8. Xeyriyyəçiliyin nə olduğunu müəyyənləşdirin. Aşağıdakı sxemdən istifadə etməklə “Xeyriyyəçilik nədir?” mövzusunda müzakirə keçirin.

**Xeyriyyəçilik**

- millətin xeyrinə xeyirli işlər görməkdir.
- bayramlarda və digər bu kimi günlərdə imkansızlara kömək etməkdir.
- küçədə dilənənlərə, qocalara, əsasən də yeniyetmə və gənclərə kömək etməkdir.

9. Mətndə (səh. 125) qırmızı rəngdə verilmiş sözlərin leksik mənalarını düzgün müəyyənləşdirin.

- bir şey üçün qoyulan və ya lazım olan pul, kapital.
- xeyir iş, yardım məqsədini güdən.
- nəyə isə olan tələbat.

10. *Vətəndaş, vətəndaşlıq, vətənpərvər* sözlərinin leksik və qrammatik mənalarını fərqləndirin.

11. *Ehtiyac* sözünün hansı mənası mətndə işlənmişdir?

- Hər hansı bir şeyə olan və onsuz keçinmək mümkün olmayan tələbat
- Yoxsulluq, kasıblıq

12. Məntiqi ardıcıllığı tamamlayın.

| | | |
|---|---|---|
| yüksək → | uca → | alçaq |
| ? → | ? → | son |
| ? → | xəstə → | ? |

Çap üçün deyil

13. Mətndə (səh. 124) fərqləndirilmiş cümlədə vergül işarəsi səhv qoyulmuşdur. Sizcə, səhv nədədir?

14. Mətndə (səh. 125) altından xətt çəkilmiş cümlələri bir cümlə şəklində yazın. Cümlələri elə qurun ki, xeyriyyə və təşkilat sözlərinin hərəsindən yalnız bir dəfə istifadə olunsun.

15. Mətndə (səh. 125) tünd şriftlə verilmiş cümləni sintaktik təhlil edin.

16. Mətnin (səh. 125) sonunda üç nöqtə işarəsinin qoyulma səbəbini izah edin.

**Üç nöqtə durğu işarəsidir. Ondan aşağıdakı hallarda istifadə olunur:**

- **Fikrin bitmədiyini bildirmək məqsədilə cümlənin sonunda üç nöqtə qoyulur.**
- **Cümlənin əvvəlində qoyulan üç nöqtə mətnin müəyyən hissəsinin ixtisar edildiyini bildirir.**
- **Yüksək hiss-həyəcanla deyilən nəqli cümlələrdən sonra üç nöqtə qoyulur.** Məsələn:

  *On manat, bəlkə... (Ə.Haqverdiyev)*

**Sitatlar da ixtisarla verildikdə onlardan əvvəl və sonra üç nöqtə qoyulur.**

17. Bədii ədəbiyyatdan üç nöqtə işarəsi ilə işlənmiş cümlələr seçin və onların nə məqsədlə işləndiyini deyin.

18. Oxuyun. Məzmun baxımından eyni olan atalar sözlərini qruplaşdırın.

1. Qalan işə qar yağar. 2. Nə əkərsən, onu biçərsən. 3. Sonrakı peşmançılıq fayda verməz. 4. İş insanın cövhəridir. 5. Özgəyə quyu qazan özü düşər. 6. Ağac dibindən su içər. 7. Qələmin ucu, qılıncın gücü. 8. Əldən qalan əlli il qalar. 9. Bu günün işini sabaha qoyma. 10. Ağıl ağıldan üstündür. 11. Dil var, bal gətirər, dil var, bəla. 12. Qələm qılıncdan itidir. 13. Quyuya su tökməklə sulu olmaz. 14. Nə

Çap üçün deyil

tökərsən aşına, o da çıxar qaşığına. 15. Daldan atılan daş topuğa dəyər. 16. Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir. 17. Dəmir işləndikcə paslanmaz. 18. Dil yarası qılınc yarasından yamandır.

| Atalar sözü | Qarşılığı |
|---|---|
| Sonrakı peşmançılıq fayda verməz.<br>....... | Daldan atılan daş topuğa dəyər.<br>....... |

✓ *Bütün atalar sözlərinin qarşılığını müəyyənləşdirə bildinizmi?*

19. *Qrupla iş*

Qruplara bölünüb aşağıdakı tapşırıqları icra edin.

| I qrup | II qrup | III qrup |
|---|---|---|
| Təsəvvür edin ki, yaxın dostunuz, tanışınız və ya bir başqası ilə C.L.Adams haqqında danışırsınız. Həmin danışığı yazı vasitəsilə canlandırmağa çalışın. Mətni elə tərtib edin ki, o, məişət üslubunun tələblərinə cavab versin. | C.L.Adamsın həyat və fəaliyyətini əks etdirən kiçik bir hekayə yazın. | Mətnin (səh. 124-125) üslubunu qorumaqla onu yığcam şəkildə yazın. |

✓ *Yazdığınız mətnlər əsasında bədii, publisistik və məişət üslubunu müqayisə edin.*

| | Bədii üslub | Publisistik üslub | Məişət üslubu |
|---|---|---|---|
| oxşar cəhətlər | | | |
| fərqli cəhətlər | | | |

Çap üçün deyil

8

# MİLLƏTİN XEYİRXAH ANASI

*(ixtisarla)*

1. Mətni tələffüz qaydalarına uyğun oxuyun.

Tarix boyu xalqımızın yaddaşında öz fədakarlığı, sosial xidmətləri, xeyriyyə işləri ilə dərin iz buraxmış çox şəxsiyyətlərimiz olmuşdur. Bunlardan kimisi maddi vəsaiti, kimisi sənətkarlıq qabiliyyəti, kimisi də, ümumiyyətlə, əlindən nə gəlirsə, onunla xalqa xidmət göstərməyə çalışmışdır. Belə şəxsiyyətlərdən biri babalarımızın "Tikmədim, özüm qalam, tikdim ki, izim qala" kəlamını həyatının şüarı etmiş millətin fədakar anası, 117 yaş yaşamış Nabat xanım Aşurbəylidir.



1. əsilzadə ailənin
2. ən böyük məscidindən ikisini
3. 1795-ci ildə
4. xeyriyyəçilər bəxş etmiş
5. Aşur xan Avşarın
6. Aşurbəylilər ailəsində
7. Təzəpir məscididir

2. Yuxarı çərçivədəki sözlərdən istifadə etməklə cümlələri tamamlayın.

- Nabat Aşurbəyli ____ Bakı şəhərində məşhur _____ dünyaya gəlmişdir (...).
- Kökü türk avşar (əfşar) tayfasına gedib çıxan bu ____ soyadı ulu babaları _______adı ilə bağlıdır.
- Tarix boyu xalqımıza ictimai xadimlər, alimlər, xüsusən də _______ bu əsilzadə ailənin millətimizin qarşısında böyük xidmətləri olmuşdur.
- Nabat xanımın xidmətlərindən danışarkən bunlardan ən böyüyü, şübhəsiz, onun inşa etdirdiyi ________.
- Onu da qeyd edək ki, Bakının 3 _______ Aşurbəylilər tikdirmişdir.

Çap üçün deyil

Təzəpir məscidinin tikintisinin maraqlı tarixçəsi vardır. **1893-cü ildə Bakı camaatı şəhər quberniyasına müraciət edərək İçərişəhər qala divarının yanında, indiki Sabir bağının yerində məscid tikintisinə icazə verilməsini xahiş edir.** *Lakin ovaxtkı çar hökuməti Bakının bu baxımlı yerində möhtəşəm bir müsəlman abidəsinin ucaldılmasına icazə vermir məscidin o vaxt şəhərin kənarı sayılan Yuxarı Dağlı məhəlləsində tikilə biləcəyi bildirilir.* Beləliklə, Yuxarı Dağlı məhəlləsində tikiləcək məscidin – Təzəpirin yeri müəyyənləşdirilir. Hazırda həmin küçə ______ adlanır.

> Aşağıdakı məlumatlardan istifadə etməklə rəngli çərçivənin yerinə lazım olan adı yazın.
> - XIX əsrdə yaşamışdır.
> - Azərbaycan dramaturgiyasının banisidir.
> - 6 komediyası vardır.

Layihəyə əsasən tikiləcək məscid Şərqin ən görkəmli dini abidələrindən biri olacaqdı. O, şəhərin hər yerindən görünməli, uca minarələri Bakı günəşinin parlaq şüaları altında bərq vurmalı idi. Lakin burada da imperiyanın iç üzü özünü göstərir. Hazırlanan layihə quberniya dini işlər idarəsi pravoslav ruhanilərinin fitvası ilə qəbul olunmur və memar Zivər bəyə ciddi xəbərdarlıq edilir ki: “Məscid yaxınlıqda yerləşən Aleksandr Nevski kilsəsindən hündür olmamalıdır”. Quberniya idarəsi minarənin ancaq bir mərtəbəsinin tikilməsinə icazə verir.

| |
|---|
| Əgər, o, minarə, ikimərtəbəli, olmaq, o, öz, hündürlük, və, yaraşıq, görə, elə, həmin, dövr, 1897-ci il, məscid, yaxınlıq, tikilmək, xalq arasında, “Qızıl kilsə”, adlanmaq, “Aleksandr Nevski”, pravoslav kilsə, kölgə, qoymaq. |

> Ardıcıl verilmiş sözlərə uyğun şəkilçilər artırıb cümləri düzgün qurun.

Bu xəbərdarlıqdan sonra Zivər bəy layihədə ciddi dəyişiklik etmək məcburiyyətində qalır və Təzəpirin indiki layihəsini hazırlayır. Uzun çətinlikdən sonra, nəhayət, 1905-ci il iyulun 3-də məscidin təməli qoyulur.



Deyilənə görə, Nabat xanım hər gün tikinti yerinə gələr, hər gəlişində də fəhlələrə pul, ərzaq paylatdırarmış. H.Z.Tağıyev məscidin tikinti

Çap üçün deyil

xərclərinin bir hissəsini öz üzərinə götürmək istəsə də, Nabat xanım Əgər məscid tikdirmək istəyirsinizsə gedin özünüzə ayrı bir məscid tikdirin deyərək buna qəti etirazını bildirmişdir

Nabat xanımın xeyriyyə işləri təkcə Təzəpir məscidinin inşası ilə məhdudlaşmır. Səxavəti və xeyirxahlığı ilə ad qazanmış bu böyük insan Şollar su kəmərinin çəkilməsinə külli miqdarda pul ayırmışdır. Sabunçu xəstəxanasında kasıb və yetimlərin müalicəsini öz üzərinə götürmüş (...), ovaxtkı Tatar küçəsində (indiki A.Topçubaşov küçəsi) hamam tikdirmişdir. Həmin hamam həftənin bir gününü kasıb və kimsəsizlər üçün pulsuz işləyərmiş. Nabat xanım həftənin cümə günləri öz evinin qapısını taybatay açar və bir ana qayğısı ilə kasıb camaatı qonaq edərmiş. Qonaq olan ehtiyac sahiblərinə təkcə yemək verməklə kifayətlənməz, gedərkən pul, yaxud da ərzaqla onlara yardım edərmiş (...). Bütün bu köməkliyi göstərərkən simasındakı təbəssümə xələl gətirməyən bu təvazökar xanım insanlara son dərəcə qayğı və mehribanlıqla yanaşarmış.

**Əsəd Aslanoğlu, "İşıq" jurnalından, 2012-ci il**

3. *Təzəpir məscidini Nabat xanım, el arasında Göy məscid kimi tanınan Əjdərbəy məscidini isə Əjdər bəy Aşurbəyli tikdirmişdir* cümləsini hansı abzasa əlavə etsək, özündən əvvəlki cümləyə aydınlıq gətirər?
4. 1-2 cümlə yazıb mətnin sonuna əlavə edin. Elə cümlələr yazın ki, yekun fikir kimi səslənsin.
5. Hansı xüsusiyyət mətnin publisistik üslubda olmasını deməyə əsas verir?
6. Mətndə hansı suala cavab yoxdur?
   - N.Aşurbəyli nə üçün H.Z.Tağıyevə müraciət edir?
   - Təzəpir məscidinin İçərişəhər qala divarının yanında tikilməsinə kim icazə vermir?
   - Nabat xanımın xalqı qarşısında ən böyük xidməti nədir?
   - Təzəpir məscidinin əvvəlcə harada tikilməsi planlaşdırılmışdı?
   - Təzəpir məscidi hansı kilsədən hündür olmamalı idi?
7. Mətnə əsasən N.Aşurbəylinin vəfatı tarixini müəyyən edin.
8. Nabat xanımla Ceyn Adamsın fəaliyyətini müqayisə edin və aşağıdakı cümləni tamamlayın.

   *Millətindən, irqindən asılı olmayaraq,* ______________________

   ______________________________________________

   ✓ *Mətnin məzmununa uyğun atalar sözü söyləyin.*
9. Mətndən hansı tarixi faktları öyrəndiniz?

Çap üçün deyil

10. Mətn üçün açar sözlər seçin.

11. Sözlərin leksik mənalarını izah edin və yaxınmənalı sözlə əvəz edin.

| | |
|---|---|
| bərq vurmaq | ? |
| inşa etmək | ? |
| əlindən gəlmək | ? |

12. Mətndə (səh. 132) nöqtələrin yerinə söz və ifadələrin sinonimini tapın.

13. Məntiqi ardıcıllığı davam etdirin.

təməl → ? → ?

✓ *Sonra həmin sözləri cümlədə işlədin.*

14. Altından xətt çəkilmiş cümlədə (səh. 131) hansı söz yerində işlənməmişdir?

15. Qırmızı rəngdə verilmiş cümlədə vasitəsiz nitqin tələblərini nəzərə almaqla durğu işarələrini bərpa edin.

16. Fərqləndirilmiş cümlədə (səh. 131) durğu işarəsini bərpa edin.

17. Mətndə (səh. 131) tünd şriftlə verilmiş cümləni elə dəyişin ki, □ + *ki*, + O sxeminə uyğun olsun.

18. Aşağıdakı mövzulardan birini seçib işləyin:

- Təzəpir məscidinin müasir görkəminin təsvirini verən kiçik inşa yazın. Arzu edənlər görüntülü təqdimat hazırlaya bilərlər.
- 2014-cü ildə xalqın istifadəsinə verilmiş Heydər məscidi haqqında məlumat toplayıb publisistik üslubda kiçik mətn yazın.

Çap üçün deyil

Tutaq ki, sizə *“Gəlin yaxşılıq edək”* devizi altında aksiya keçirmək tapşırılıb.

- Aksiyanın məqsədini müəyyənləşdirin.
- Aksiyanın planını tərtib edin.
- Planı məktəb rəhbərliyi ilə müzakirə edin.
- Aksiyanı hansı formada keçirəcəyinizi düşünün.
- Daha çox şəxsin iştirakını təmin edin.
- Vəzifə bölgüsü aparın.
- Keçirilmiş aksiya ilə bağlı məruzə hazırlayın. Məruzəni qəzet maketinizdə yerləşdirin.
- Məruzənizin orfoqrafik cəhətdən düzgünlüyünə əmin olun.

Məruzə yazmaq üçün aşağıdakı ardıcıllığa riayət edin.

1. Məruzənin mövzusu (seçmək)
2. Mövzuya aid ədəbiyyat:
   *a) biblioqrafik məlumat*
   *b) ədəbiyyat üzərində işləmək*
3. Məruzənin planını tutmaq
4. Məruzəni hazırlamaq:
   *a) giriş*
   *b) əsas hissə*
   *c) nəticə*
5. Məruzənin edilməsi
6. Məruzənin müzakirəsi
   Son söz (düzəliş və əlavələr)

Çap üçün deyil

Filologiya üzrə fəlsəfə doktoru Nərgiz Cabbarlının ixtisarla verilmiş məruzəsindən istifadə edin və özünüz də məruzə yazın.

**Məruzənin adı**

"Müasir uşaq poeziyası"

**Məruzənin mövzusu**

Müasir uşaq şeirində dil, üslub xüsusiyyətləri

**Mövzuya aid ədəbiyyat**

- Qara Namazov. "Azərbaycan uşaq ədəbiyyatı"
- İlyas Tapdıq. "Köşək"
- Mobil Quluzadə. "Mənim gül balam"
- Vaqif Bəhmənli. "Əlifba"
- Korney Çukovski. "Seçilmiş əsərlər"

**Məruzənin planı**

- Müasir dövrdə yaranan Azərbaycan uşaq poeziyasının müsbət və mənfi cəhətləri
- Uşaq şeirinin formaları
- Müasir uşaq şeirlərində dil-üslub xüsusiyyətləri
- Uşaq şeirində obrazlar
- Nəticə

**Qeyd**

Məruzə müzakirə edilmiş, müəyyən düzəlişlər və əlavələr daxil edilmişdir.

Çap üçün deyil

## Giriş hissə

Uşaqlar üçün şeir yazmaq ağırdır, çətindir, məsuliyyətlidir... Amma nədənsə, müasir ədəbiyyatımıza nəzər saldıqda uşaqlar üçün yazanların əksəriyyətinin belə düşünmədiyini fikirləşirsən. Sanki kiçik oxucu bir az ciddi qəbul edilmir. Uşaq şeirinin bazar təqdimatı (nəşr görünüşü, rəssam işi, dizayn-tərtibat və s.) üzərində daha çox işlənilir. Mətn keyfiyyəti isə arxa plana keçir.

Halbuki istər ümumilikdə Azərbaycan ədəbiyyatının, istərsə sovet dövrü ədəbiyyatının təcrübəsində gözəl uşaq şeirləri yaradanlar "Uşaq şeirindən nə tələb olunmalıdır?" sualının cavabını yetərincə dəqiq bilirdilər. Belə olmasaydı, yaddaşlarımıza köçən Sabir, Abbas Səhhət, Abdulla Şaiq, Səməd Vurğun, Mirvarid Dilbazi, Xanımana Əlibəyli və s. ... şeirləri olmazdı...

## Əsas hissə

Biz müstəqillik illərində yazılmış Azərbaycanda uşaq şeirləri haqqında danışmağa çalışacağıq. Əlbəttə, bu məsələ dəfələrlə müzakirə predmetinə çevrilib. Elmi səviyyədə də, yaradıcılıq təşkilatlarının iştirakı ilə də, mətbuatda da... Hər kəs bu yaradıcılıq sahəsinin də, növünün də vacibliyindən bəhs edir. Amma... gəlin baxaq görək, "müstəqillik illərinin uşaq şairi" dedikdə ilk olaraq kimlər yada düşür? Yenə də İlyas Tapdıq, yenə də Zahid Xəlil, sonrakı nəsildən Ələmdar Quluzadə, Rafiq Yusifoğlu, daha sonrakı nəsildən Sevinc Nuruqızı...

Biz yenə də uşaq şairi dedikdə ilk olaraq İlyas Tapdıq və Zahid Xəlilin adları üzərində dayanmalı oluruq. Bu, sadəcə, nostalji hissi, ya da, sadəcə, tanınmış imza məsələsi deyil. O yaradıcılıqlara yenidən qayıtdıqda, yaxud son illərdə dərc olunan mətnlərinə nəzər saldıqda professionallıq bir yana, uşaq şeirinin gözəlliklərini görə bilərik (əlbəttə, bu fikri bütün yaradıcılıq nümunələri deyil, əsərlərinin çoxu haqqında söyləyirik). Məsələn, Zahid Xəlilin hələ 1979-cu ildə dərc olunan "Torağaylar oxuyur" kitabına nəzər salaq. Şeirləri təsadüfi seçimlə müəyyən etsək də, bir qənaətimiz dəqiqdir: bu şeirlər bu gün belə aktualdır, müasirdir. Şairin yaradıcılığı təbiətin, onun çalarlarının, rənglərinin, təbiət hadisələrinin, ətraf mühitin və orada yaşananların təsviri baxımından çox dəyərli xüsusiyyətlərə malikdir. O uşaqda elə bir obrazlı təfəkkür formalaşdıra, təbiət hadisəsini elə bir şəkildə yaddaşa köçürə bilir ki, bunun unudulması mümkün deyil. Eyni zamanda uşaq bu şeirlərlə təbiəti duymağı öyrənir.

Oxşar fikirləri İlyas Tapdığın yaradıcılığı haqqında da söyləyə bilərik. Bütün yaradıcılığını, həyatını bu istiqamətdə fəaliyyətə sərf edən şairin əvvəlki deyil, son illərə aid bir kitabına da nəzər saldıqda təəssürat, qənaət dəyişməz qalır.

Çap üçün deyil

Mətnlər yalnız yüngül, axıcı ritmi, bitkin forması, sadə dili ilə deyil, həm də məntiqi əsaslılığı, öyrətmək istəyi ilə də diqqət çəkir.

Amma yeri gəlmişkən qeyd edək ki, əlifba üçün şeir yazmaq ənənəsində çox uğurlu nümunələr Vaqif Bəhmənlinin "Əlifba", Sevinc Nuruqızının "Əlifba"sında var. Məsələn,

*Dədə Qorqud dədəmiz –*
*Əcdadımın adıdı.*
*"D" – dağ, "D" – daş, "D" – dəniz,*
*"D" – dilimin dadıdı.*

Mobil Quluzadənin "Mənim gül balam" adlı kitabına nəzər salaq. "Yarpaq" şeirində deyilir:

*Səhər olcaq üstünə*
*Şeh tökülür yarpağın.*
*Günəşi görən kimi*
*Üzü gülür yarpağın.*

*Bu yarpaqlar görünür*
*Ağacların şalıtək*
*Quşlar sərir yuvaya*
*Yarpaqları xalıtək.*

Bir obrazın bu qədər fərqli çalarını qeyd etmək, ona bu qədər fərqli yöndən yanaşmaq, xarakterini yaratmaq müəllifin istedadının göstəricisidir. Amma şeirdə redaktə qüsurunun, fikir-məntiq qüsurunun olmaması bir yandan istedadla bağlıdırsa, digər tərəfdən də söz qarşısında duyulan məsuliyyətlə, hər misranın, hər fikrin ölçüyə salınması prosesində çəkilən zəhmətlə bağlıdır.

## Nəticə

Məqsədimiz "Uşaqlar üçün necə yazmaq lazımdır?" sualı üzərində daha əsaslı düşünməyə, göstərilən qüsurların varlığına göz yummamağa, işin məsuliyyətini və ağırlığını özümüzə bir daha xatırlatmağa çalışmaqdır. Biz buna cəhd göstərdik. Düşünmək isə şeir müəlliflərinə qalır...

Biz, sadəcə, Kornel Çukovskinin hər bir uşaq yazarının əzbər bilməli olduğu bir neçə fikri yada salmaq istərdik. Uşaq şeirində "hər misrada rəssam üçün material olmalıdır, çünki kiçik uşaqların təfəkkürü istisnasız olaraq obrazlıdır". Uşaq şeirində "obrazların dinamikliyi", "ritmin dinamikliyi", "poetik nitqin musiqililiyi", "hər sətrin öz həyatını yaşaması və ayrıca bir orqanizm olması", "şeirin həm də bir oyun olması", "şeirin həm də böyüklər üçün olması" və ən nəhayət, "bizi uşaqlara doğru deyil, uşaqları bizə uyğunlaşdırmaq məqsədi daşıması" vacibdir.

***"Aydın yol" qəzeti, 2014-cü il***

Çap üçün deyil

1 QANUN
2 MƏTN
3 BAKI KƏNDLƏRİ
4 QOŞA MƏZAR
5 ŞAHABLI QIRĞINI
6 ÇAYTİKANI
7 TOPONİMLƏR – DİLİMİZİN "TARİX KİTABI"
8 ŞƏKİ

# Vətən, torpaq, yurd...

Çap üçün deyil



Erməni təbliğatı nəticəsində belə bir yanlış rəy var  ki, guya Dağlıq Qarabağ tarixi baxımdan erməni torpağıdır. Amma bu, tamamilə yanlış bir məlumatdır. Qarabağ Azərbaycanın əzəli torpağıdır. Onun bütün toponimləri, tarixi Azərbaycanla bağlıdır. Ermənilərin oraya gəlməsi ancaq XIX əsrin əvvəllərində başlamışdır. Onlar başqa ölkələrdən oraya köçürülmüşlər.

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***

- *Vətən Yerin bir xalqa, millətə mənsub olan hissəsidir, əcdadlarımızın məskunlaşdığı məkandır. Onu qorumaq hər birimizin müqəddəs borcudur.*
- *Biz onu qorumaq üçün nə edirik?*

Çap üçün deyil

1

# “COĞRAFİ OBYEKTLƏRİN ADLARI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında coğrafi obyektlərə ad verilməsi, onların adlarının dəyişdirilməsi, dəqiqləşdirilməsi, işlədilməsi, qeydiyyatı, uçotu və qorunub saxlanılması sahəsindəki fəaliyyətin hüquqi əsaslarını müəyyən edir.

***Maddə 1. Əsas anlayışlar***

1.0. Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edirlər:

1.0.1. coğrafi obyektlər – təbii və antropogen mənşəli, bütöv və nisbətən sabit ərazi törəmələri: materiklər, okeanlar, dənizlər, körfəzlər, boğazlar, adalar, yarımadalar, dağlar, zirvələr, meşələr, çaylar, göllər, buzlaqlar, səhralar, vulkanlar və digər təbiət obyektləri; milli parklar, təbiət qoruqları və bu kimi digər obyektlər; şəhərlər, rayonlar, şəhər rayonları, qəsəbələr və kəndlər; hava və dəniz limanları, dəmiryol stansiyaları;

1.0.2. coğrafi obyektlərin adları – coğrafi obyektlərin tanınması və bir-birindən fərqləndirilməsi məqsədilə onlara verilən adlar;

1.0.3. coğrafi obyektlərin adlarının müəyyənləşdirilməsi – coğrafi obyektlərin mövcud adlarının aydınlaşdırılması, coğrafi obyektlərə ad verilməsi və onların adlarının dəyişdirilməsi;

1.0.4. coğrafi obyektin adının dəqiqləşdirilməsi – coğrafi obyektin daha çox istifadə edilən adının seçilməsi və həmin adın yazılışının Azərbaycan Respublikasının dövlət dilinin normalarına uyğunlaşdırılması;

1.0.5. ekzonim – Azərbaycan Respublikasının ərazisində yerləşən coğrafi obyektin adının xarici dillərdə istifadə edilən və Azərbaycan Respublikasının dövlət dilindən fərqli olan forması.

***Maddə 3. Qanunun əhatə dairəsi***

3.1. Bu Qanun Azərbaycan Respublikasının ərazisində yerləşən coğrafi obyektlərin, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa cür nəzərdə tutulmayıbsa, Azərbaycan tədqiqatçıları tərəfindən kəşf edilmiş coğrafi obyektlərin adlarının müəyyənləşdirilməsi, dəqiqləşdirilməsi, işlədilməsi, qeydiyyatı, uçotu və qorunub saxlanılması üzrə fəaliyyətə şamil edilir.

Çap üçün deyil

3.2. Bu Qanun habelə digər dövlətlərin ərazisində yerləşən coğrafi obyektlərin, eləcə də hər hansı dövlətin suverenliyinin və yurisdiksiyasının şamil edilmədiyi coğrafi obyektlərin adlarının Azərbaycan Respublikasında işlədilməsi ilə bağlı münasibətləri tənzimləyir.

***Maddə 4. Coğrafi obyektlərin adlarının müəyyənləşdirilməsi, dəqiqləşdirilməsi, işlədilməsi, qeydiyyatı, uçotu və qorunub saxlanılması sahəsində dövlətin əsas vəzifələri***

4.0. Coğrafi obyektlərin adlarının müəyyənləşdirilməsi, dəqiqləşdirilməsi, işlədilməsi, qeydiyyatı, uçotu və qorunub saxlanılması sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:

4.0.1. coğrafi obyektlərin adları ilə bağlı dövlət siyasətinin müəyyən edilməsi;

4.0.2. coğrafi obyektlərin adlarının Azərbaycan Respublikasının dövlət dilinin normaları nəzərə alınmaqla müəyyənləşdirilməsinin və dəqiqləşdirilməsinin təmin edilməsi;

4.0.3. coğrafi obyektlərin adlarının qeydiyyatının və uçotunun aparılmasının təşkili;

4.0.4. coğrafi obyektlərin adları lüğətlərinin və soraq kitablarının nəşrinin təşkili;

4.0.5. coğrafi obyektlərin adlarının dövlət kataloqunun yaradılması və aparılmasının təşkili;

***Maddə 5. Coğrafi obyektlərin adlarının müəyyənləşdirilməsi***

5.1. Coğrafi obyektin mövcud adı müvafiq dövlət orqanlarının və yerli özünüidarə orqanlarının sənədlərinə, rəsmi kartoqrafiya, soraq nəşrlərinə və digər mənbələrə, müvafiq ərazilərin əhalisinin, habelə mütəxəssislərin rəyinə əsaslanmaqla aydınlaşdırılır və bu Qanunun 5.5.1–5.5.4-cü maddələrində nəzərdə tutulan hallar olduqda dəyişdirilir.

5.2. Coğrafi obyektə verilən ad həmin coğrafi obyektin xüsusi əlamətlərini əks etdirməli və ad verilərkən ümumdövlət və ümumxalq mənafeyi, bu obyektin yerləşdiyi ərazinin coğrafi, tarixi, təbii və digər xüsusiyyətləri, həmin ərazidə yaşayan əhalinin rəyi nəzərə alınmalıdır. Coğrafi obyektin adı üç sözdən artıq olmamalıdır.

5.3. Coğrafi obyektə onun kəşfində, öyrənilməsində, yaxud əsasının qoyulmasında bilavasitə iştirak etmiş şəxslərin, görkəmli dövlət, ictimai, elm və mədəniyyət xadimlərinin, dövlət qarşısında xüsusi xidmətləri olmuş şəxslərin adları, bir qayda olaraq, ölümündən sonra və adı olmayan coğrafi obyektə verilə bilər.

5.4. Bir ərazi vahidi hüdudları daxilində eyni növlü bir neçə coğrafi obyektin eyni adla adlandırılmasına yol verilmir.

5.5. Coğrafi obyektin adı aşağıdakı hallarda dəyişdirilə bilər:

Çap üçün deyil

5.5.1. bir ərazi vahidi hüdudları daxilində eyni növlü coğrafi obyektlərin adları təkrarlandıqda;
5.5.2. coğrafi obyektin tarixi adını bərpa etmək zərurəti yarandıqda;
5.5.3. coğrafi obyektin funksiyası və ya təyinatı əhəmiyyətli dərəcədə dəyişdikdə;
5.5.4. coğrafi obyektin adı bu Qanunun 5.2-ci maddəsində göstərilən tələblərə uyğun olmadıqda.

5.6. Coğrafi obyektin adının dəyişdirilməsi zamanı müvafiq ərazinin əhalisinin rəyinin nəzərə alınmasına dair tələb coğrafi obyektin tarixi adının bərpa edilməsi, habelə coğrafi obyektin iki və daha çox inzibati ərazi vahidləri ərazisində yerləşdiyi hallarına şamil edilmir.

5.7. Coğrafi obyektə ad verilərkən müvafiq ərazinin əhalisinin rəyinin nəzərə alınmasına dair tələb coğrafi obyektin iki və daha çox inzibati ərazi vahidi ərazisində yerləşdiyi hallarına şamil edilmir.

***Maddə 6. Coğrafi obyektlərə adların verilməsi və coğrafi obyektlərin adlarının dəyişdirilməsi qaydası***

6.1. Coğrafi obyektlərə adların verilməsi və ya coğrafi obyektlərin adlarının dəyişdirilməsi haqqında təkliflər müvafiq icra hakimiyyəti orqanına Azərbaycan Respublikasının dövlət orqanları, yerli özünüidarə orqanları, qeyri-hökumət təşkilatları, hüquqi şəxslər və Azərbaycan Respublikasının vətəndaşları tərəfindən verilə bilər.

6.2. Coğrafi obyektlərə adların verilməsi və ya onların adlarının dəyişdirilməsi haqqında təkliflər və həmin təklifləri əsaslandıran sənədlər müvafiq normativ hüquqi aktlara uyğun hazırlanır.

6.3. Müvafiq icra hakimiyyəti orqanı bu Qanunun 6.1-ci maddəsində göstərilən təkliflərə baxır və onları məqbul hesab etdikdə bu Qanunla tələb olunan hallarda müvafiq ərazidə yaşayan əhalinin rəyini öyrənir və əhalinin müsbət rəyi olduqda coğrafi obyektə ad verilməsi və ya coğrafi obyektin adının dəyişdirilməsi barədə qərar qəbul edir.

***Maddə 7. Coğrafi obyektlərin adlarının dəqiqləşdirilməsi və işlədilməsi***

7.1. Coğrafi obyektlərin adlarının dəqiqləşdirilməsi zamanı tarixi, mədəni, etnik, dil və digər xüsusiyyətlər, habelə xüsusi elmi tədqiqatların nəticələri nəzərə alınmalıdır.

7.2. Coğrafi obyektlərin adlarının dəqiqləşdirilməsi “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

7.3. Azərbaycan Respublikasının ərazisindəki yol nişanlarında, reklamlarda, lövhələrdə və digər göstəricilərdə coğrafi obyektlərin adları dövlət dilində yazılır.

Çap üçün deyil

7.4. Azərbaycan Respublikasının ərazisindəki beynəlxalq avtomobil yollarındakı yol nişanlarında coğrafi obyektlərin adları dövlət dilindən başqa, beynəlxalq sazişlərə uyğun olaraq xarici dillərdə də yazıla bilər.

***Maddə 8. Coğrafi obyektlərin adlarının qeydiyyatı və uçotu***

8.1. Coğrafi obyektlərin mövcud və yeni verilən adları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınır və onların uçotu aparılır.

8.2. Azərbaycan Respublikasının ərazisində yerləşən coğrafi obyektlərin adlarının eyni cür və sabit işlədilməsinin təmin edilməsi və həmin adların qorunub saxlanılması məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Coğrafi obyektlərin adlarının dövlət kataloqu yaradılır.

8.3. Müvafiq icra hakimiyyəti orqanı coğrafi obyektlərin adları lüğətlərini və soraq kitablarını, habelə Azərbaycan Respublikasının xəritə və atlaslarını hazırlayır və nəşr edir.

8.4. Coğrafi obyektlərin adlarının qeydiyyatı və uçotunun aparılması qaydası, coğrafi obyektlərin adları lüğətlərinə və soraq kitablarına dair tələblər, Coğrafi obyektlərin adlarının dövlət kataloqunun yaradılması və aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi Əsasnamə ilə tənzimlənir.

***Maddə 9. Coğrafi obyektlərin adlarının işlədilməsi və qorunub saxlanılması***

9.1. Dövlət və yerli özünüidarə orqanları, hüquqi şəxslər, kütləvi informasiya vasitələri tərəfindən, habelə tədris, kartoqrafiya, soraq, ensiklopedik nəşrlərdə, elanlarda, reklamlarda, lövhələrdə, yol göstəricilərində, poçt göndərişlərində və digər sahələrdə coğrafi obyektlərin adlarına istinad edilərkən onların bu Qanuna uyğun olaraq müəyyənləşdirilmiş adlarından istifadə edilməlidir.

9.2. Azərbaycan Respublikasının ərazisində yerləşən coğrafi obyektlərin adlarının təhrif olunmasına yol verilmir.

9.3. Azərbaycan Respublikasının ərazisində yerləşən coğrafi obyektlərin adları dövlət tərəfindən mühafizə olunur.

***Maddə 10. Qanunun pozulmasına görə məsuliyyət***

Bu Qanunun tələblərinin pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə səbəb olur.

***Maddə 11. Qanunun qüvvəyə minməsi***

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 18 dekabr 2007-ci il
№ 512-IIIQ

Çap üçün deyil

1. Sizcə, verilmiş mətn (səh. 140–143) hansı üsluba aiddir?

A) elmi B) publisistik C) rəsmi

2. Mətndə (səh. 140–143) altından xətt çəkilmiş feillərin zamanlarını və şəkillərini müəyyənləşdirin.
3. Mətndəki cümlələrə əsasən rəsmi-işgüzar üslubun xüsusiyyətləri haqqında fikir yürüdün.

**Rəsmi və işgüzar sənədlərin dili rəsmi-işgüzar üsluba aid edilir. Rəsmi-işgüzar üslubda fikir (informasiya) müəyyən standart formalarda və yığcam şəkildə olur. Bu üslubda artıq sözlər, obrazlı ifadələr və fərdi nitq ünsürlərindən istifadə edilmir.**

**Rəsmi-işgüzar üslubun lüğət tərkibi yığcamdır.**




- Rəsmi sənədlər mühüm hüquqi məzmuna malikdir və tarixi əhəmiyyət daşıyır.
- İşgüzar sənədlər xüsusi dövlət əhəmiyyəti daşımır, hər hansı bir məsələ ilə bağlı tərtib edilir.

**Orfoqrafik səhvlərin və qüsurlu cümlələrin yol verildiyi sənəd nöqsanlı hesab olunur.**

Çap üçün deyil

4. Mətndə qırmızı rəngdə verilmiş cümlədə (səh. 140) hansı normanın pozulduğunu deyin və cümlədə düzəliş edin.
5. Mətndən (səh. 140–143) bir neçə söz seçib aşağıdakı cədvəl əsasında onları müxtəlif üslublarda işlədin. Cümlələri müqayisə edib fərqləri deyin.

***Nümunə:***

| Rəsmi üslubda | Danışıq dilində | Bədii üslubda | Publisistik üslubda |
|---|---|---|---|
| **Maddə 75.**<br>Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə: bayrağına, gerbinə və himninə hörmət etməlidir.<br>*Azərbaycan Respublikasının Konstitusiyası* | Bayrağımız necə də qürurla dalğalanır! | Üçrəngli bayrağın<br>kölgəsində mən<br>Qaraca torpağı Vətən<br>görmüşəm…<br>Bayraq kimliyimdir,<br>bayraq mənliyim,<br>Bayraq öz yurduma<br>öz hakimliyim.<br>*(B.Vahabzadə)* | Ginnes Dünya Rekordları Təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan Dövlət Bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq etmişdir.<br>*“Dövlət Bayrağı Meydanı” məqaləsindən* |

6. Erməni işğalı nəticəsində məhv edilmiş muzeylərimiz, talan edilmiş sərvətlərimiz barədə məlumat toplayıb qəzet maketinizdə yığcam şəkildə dərc edin.

Çap üçün deyil

S.Vurğunun “Azərbaycan” şeiri dillər əzbəridir. O qısa sözlərdə o qədər dərin məna var ki, həmin sözləri hər bir insan dilinə gətirib təkrar edərkən öz xalqına, ölkəsinə bir daha öz məhəbbətini, sevgisini, sədaqətini ifadə edir.

***Heydər Əliyev***
***Ümummilli lider***

Min Qazaxda köhlən ata,
Yalmanına yata-yata,
At qan-tərə bata-bata,
Göy yaylaqlar belinə qalx,
Kəpəz dağdan Göygölə bax!

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan.
Axşamüstü qoy uzaqdan
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi.

**El bilir ki, sən mənimsən,**
**Yurdum, yuvam, məskənimsən,**
**Anam, doğma vətənimsən!**
**Ayrılarmı könül candan?**
**Azərbaycan, Azərbaycan!**




Çap üçün deyil




Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır.
Böyük bir keçmişin vardır;
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin.

Bir dön bizim Bakıya bax,
Sahilləri çıraq-çıraq,
Buruqları hayqıraraq
Nərə salır boz çöllərə,
İşıqlanır hər dağ, dərə!

Bir tərəfin bəhri-Xəzər,
Yaşılbaş sonalar gəzər;
Xəyalım dolaşar gəzər
Gah Muğanı, gah Eldarı.
Mənzil uzaq, ömür yarı!

Lənkəranın gülü rəng-rəng,
Yurdumuzun qızlarıtək.
Dəmlə çayı tök ver görək
Anamın dilbər gəlini!
Yadlara açma əlini.

- Azərbaycanın xəritəsini nə üçün məhz uçan qartala bənzədirlər?
- “Qartal” (səh. 88) hekayəsini xatırlayın. Müqayisələr aparın.

Çap üçün deyil

1. Şeiri tələffüz qaydalarına uyğun və ifadəli oxuyun.

## AZƏRBAYCAN

Od ürəkli, od nəfəsli diyarımsan
Ocağına canım qurban, Azərbaycan!
Əzilsən?də, əyilməyən vüqarımsan,
Bu çağına canım qurban, Azərbaycan!

Savaşlardan alnı?açıq çıxan zaman
Tarixlərə bağışladın neçə qurban.
Hər qonşuda bir parçası əsir qalan
Torpağına canım qurban, Azərbaycan!

Neçə gizli sərvət yatır qucağında,
Neçə ölkə od aparır ocağından,
Azadlığın al rəmzi var bayrağında,
Bayrağına canım qurban, Azərbaycan!

Hər uğurun gələcəyə bir yol açır,
Hər dost elə xoş niyyətin işıq saçır.
Hər millətə, hər məzhəbə isti, açıq
Qucağına canım qurban, Azərbaycan!

Başım üstdə məğrur?məğrur dalğalanan
Bayrağına canım qurban, Azərbaycan!
Ruhuma büt, cismim üçün vətən olan
Torpağına canım qurban, Azərbaycan!

**Nəriman Həsənzadə**

### ORFOQRAFİYA

Necə yazılmalıdır:
defislə, bitişik, yoxsa ayrı?

- Göy rəngdə verilmiş sözlərin yazılış qaydasını müəyyənləşdirin.

### ORFOEPİYA

- isti – [....]
- üstdə – [....]
- azadlıq – [....]

Çap üçün deyil

2. Şair niyə Azərbaycanı od ürəkli adlandırır?
3. Şair qonşu dedikdə kimləri nəzərdə tutur? *Hər qonşuda bir parçası əsir olan Azərbaycan* misrası ilə şair hansı tarixi hadisələrə işarə edir?
4. Şeirin mövzu və ideyasını müəyyənləşdirin. Bunun üçün *şair oxucuya hansı hisləri aşılayır?* sualı ətrafında düşünün və fikir mübadiləsi aparın.
5. Şair nəyi əsas obyekt kimi seçmişdir?

   a) vətəni  b) milləti  c) mənəvi sərvətləri
6. Şair seçdiyi obyektə necə münasibət bəsləyir? Hansı duyğularını ifadə edir?
7. Necə bilirsiniz, “Azərbaycan” şeirində surət varmı? Fikirlərinizi əsaslandırın.
8. Şeir sizdə hansı duyğular oyatdı? Şeiri oxuyarkən hansı hisləri keçirdiniz?
9. Azərbaycanın dünəni və bu günü şeirdə öz əksini necə tapıb?
10. Şeirin hansı misrasında şair Azərbaycanı tolerant bir ölkə kimi təqdim edir?

11. 1-ci misradakı *od* sözü ilə 3-cü bəndin 2-ci misrasındakı *od* sözünün fərqi varmı? Əgər varsa, bu fərqi nədə görürsünüz?
12. *Yol* sözünün omonimliyini və çoxmənalılığını sxem əsasında müəyyənləşdirin.




13. Cümləni tamamlayın.

*__Məğrur__ və __vüqar__ sözlərinin sinonim olması üçün onların ... mənası ... .*

Çap üçün deyil

14. *Azadlıq* sözünün sinonimlər cərgəsini tamamlayın.

? ← Azadlıq → ?

✓ *Hansı söz azadlıq sözünün antonimi ola bilər?*

15. Sxemi tamamlayın və şərh edin.

***Ocaq*** sözlərinin misralarda hansı mənada işləndiyini izah edin.

Ocağına canım qurban, Azərbaycan!

Neçə ölkə od aparır ocağından

?

16. Həm rəsmi sənəddə, həm də bədii nümunədə *rəmz* sözündən istifadə olunmuşdur. Sizcə, həmin sözlərin işlənməsində üslubi fərq varmı? Niyə?

Müqayisə edin:

Azərbaycan Respublikasının Konstitusiyasının 75-ci maddəsi "Dövlət rəmzlərinə hörmət" adlanır. Bu maddədə yazılır:

I. Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə: bayrağına, gerbinə və himninə hörmət etməlidir.

II. Dövlət rəmzlərinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

N.Həsənzadə:

"Azadlığın al rəmzi var bayrağında"

17. Necə düşünürsünüz, rəsmi sənəddə "bayrağımıza qurban olmalıyıq" ifadəsi işlənə bilərmi? Niyə? Səbəbini izah edin.

18. Nəriman Həsənzadənin "Azərbaycan" şeirindən aldığınız təəssürat əsasında yoldaşlarınızla dialoq qurun.

Çap üçün deyil

19. S.Vurğun və N.Həsənzadənin şeirlərini məzmun baxımından müqayisə edin. Azərbaycan onların əsərlərində necə təqdim olunur?

✓ *Hər iki şeiri oxuyub qısa rəy hazırlayın. Bunun üçün aşağıdakı formadan istifadə edin.*

"Azərbaycan" şeirləri ilə bağlı
_______________

Hər iki şeiri oxuyub bu nəticəyə gəldim ki, ____________________________
Hər iki şeirin məzmunu tərbiyəvi əhəmiyyətə malikdir. Belə ki ___________
__________________________________________________________________.
Ancaq mənim Səməd Vurğunun (Nəriman Həsənzadənin) şeiri __________,
çünki burada ________________________________________________
__________________________________________________________________.
Hər iki şeir bədii cəhətdən ___________________________________________.
__________________________________________________________________.
*İmza:*_______________ *Tarix:*_______________

20. Hər hansı bir obyekt və ya hadisə seçin. Obyektdən aldığınız təəssürat əsasında inşa və ya esse yazın.

Bunun üçün:
- Seçdiyiniz obyekt və ya hadisə haqqında düşünün, onunla bağlı məlumat toplayın.
- Onun sizin qəlbinizdə yaratdığı hisləri təsvir edin.
- Topladığınız məlumatları sistemləşdirin.
- Yazınızı zənginləşdirmək üçün bədii nümunələrdən (şeir, aforizm və s.) istifadə edin.

21. Aşağıdakı mövzulardan birini seçməklə təqdimat hazırlayın.

1. Azərbaycanın dünəni, bu günü və sabahı.

2. Hər qonşuda bir parçası əsir qalan.
   Torpağına canım qurban, Azərbaycan! (*N.Həsənzadə*)

Çap üçün deyil

## 3

# BAKI KƏNDLƏRİ

*(ixtisarla)*

Deyilənə görə, qədim zamanlarda indiki **Şüvəlanın** ərazisində bahar aylarında o qədər gölməçə yaranarmış ki, burada dəniz quşları və vəhşi ördəklər əlindən tərpənmək olmazmış. Buna görə də Şirvan şahları tez-tez buraya ova gələrmişlər. Guya o vaxtdan bu yer "Şaholan" adlanmış və zaman keçdikcə "Şüvəlan"a çevrilmişdir. Ancaq bu ehtimal əsassızdır. Çünki tarixdən məlumdur ki, şirvanşahların, sonralar isə Bakı xanlarının ov məskəni Zirə tərəf olmuşdur. Əslində, "Şüvəlan" sözü buranın coğrafi şəraiti ilə əlaqədar olaraq yaranmışdır. Şüvəlanda, demək olar ki, hər tərəfdən dənizə tərəf enişlər başlayır. Həmin enişlərə görə bu yer Şüvəlan adlanır. Farsca "şiv" sözünün mənası "eniş" deməkdir. Həmin sözün (*sonuna, axırına*) məkan bildirən "lan" şəkilçisini artırmaqla "Şüvəlan" sözü yaranmışdır.

Vaxtilə içmək üçün ən yararlı su Şüvəlanda olmuşdur. Burada su qayanın (*altından, dibindən*) çıxırdı. Buna görə də bu ərazidə çoxlu pambıq əkilirdi. Abşeronda əkilən pambığın çox hissəsi Şüvəlanın hesabına düşürdü. Pambıqla (*birlikdə, yanaşı*) bu yerdə zəfəran da əkilərdi. Hələ Bakı xanlıqları dövründə burada salınmış üzüm bağlarının şöhrəti hər yerə yayılmışdı. Bakılılar üzümdən doşab, sirkə, abqora, mövüc hazırlayırdılar. Şüvəlanın (*təmiz, saf*) iqlimi, şirin suyu sonralar adamların bu yerlərdə məskən salmalarına səbəb oldu. XIX əsrin ortalarından başlayaraq, bakılılar bu yeri özləri üçün yaylaq yeri seçdilər.

**Qılman İlkinin "Bakı və bakılılar" kitabından**



**ORFOEPİYA**

Davam etdirin.

- yararlı – [yarar...]
- şirvanşahların – [şirvanşa...]
- hazırlayırdılar – [hazır...]

1. Mətnin əvvəlinə giriş xarakterli 1-2 cümlə əlavə edin.
2. Hansı cümlələr arasında rabitə yoxdur? Əlaqə yaratmaq üçün uyğun sözlər və cümlələrdən istifadə edin.
3. Mətnin məzmunu üzərində iş aparmaq üçün suallar tərtib edin.
4. Mətndə mötərizədə verilmiş sözlərdən hansı işlənsə, leksik normanın tələblərinə əməl edilmiş olar?
5. Nümunəyə əsasən sxemləri tamamlayın.

qədim → müasir    eniş → ?    ? → qışlaq



Çap üçün deyil

**Mərdəkan** kəndi də (*keçmişdə, qədimdə*) çox (*kiçik, balaca*) olmuşdur. XIX əsrin başlanğıcında/başlancığında burada cəmi yüz nəfərədək adam yaşamışdır. "Mərdəkan" sözü iki sözdən (*düzəlmişdir, yaranmışdır*): "Mərd" kişi, "kan" isə yer deməkdir, yəni "mərdlərin yaşadığı yer". Deyilənə görə, Şirvanşah II Mənuçöhrün oğlu I Axsitanın dövründə, yəni 1175-ci ildə Şüvəlan və Mərdəkan sahillərindən Şirvan torpaqlarına basqın/baskın etmiş düşmənin 70 gəmidən ibarət donanmasının darmadağın edilməsində mərdəkanlılar da böyük mərdlik göstərmişlər. Ola bilsin ki, kəndə Mərdəkan adının verilməsi bu hadisə ilə bağlı olsun.

Mərdəkanda qədim zamanlardan iki qala mövcuddur. Bunlardan biri XII əsrdə şirvanşah Mənuçöhrün oğlu Axsitan tərəfindən tikilmiş dördkünclü qaladır. Görünür, bu qala Axsitanın düşmən üzərindəki parlaq qələbəsi şərəfinə (*ucaldılmışdır, yüksəldilmişdir*). Qalanın hündürlüyü təxminən 22 metrdir. Bundan başqa, onun ətrafında təxminən 6-7 metr hündürlüyündə hasar da olmuşdur. Qala divarının qalınlığı aşağıda 2,1 metr, yuxarıda isə 1,6 metrdir. İçəri tərəfdən qala 5 (*yarusa, mərtəbəyə*) bölünür. Qalanın ətrafında qayada qazılmış 30-a qədər quyu tapılmışdır ki, bu quyular qalanın müdafiəçiləri üçün taxıl anbarları imiş. Qalanın yuxarısına daş pillələrlə qalxılır. Aşağıdakı pilləkən yerdən təxminən 2 metr hündürdədir ki, bunun da _________.

Məntiqinizə əsaslanıb cümləni tamamlayın.



**İkinci qala dairəvi qaladır. Şıx qalası adlanan bu qalanın hündürlüyü 15,5 metrdir. Qalanın içərisi 3 yarusdan ibarətdir.** Qalanın üstündəki ərəb dilində olan tarixdən məlum olur ki, o, 1203-1204-cü illərdə tikilmişdir. Qalanın üstündəki 2-ci yazılı daş isə onun memar Əbdülməcid Məsud oğlu tərəfindən inşa edildiyini göstərir.

**Qılman İlkinin "Bakı və bakılılar" kitabından**

1. Sizcə, qalalar nə məqsədlə tikilirdi?
2. Mətnin tipini və üslubunu müəyyənləşdirin.
3. Mətndən əsas faktları seçin.
4. Tünd şriftlə verilmiş cümlələri bir cümlə şəklində yazın. Çalışın ki, cümlədə *qala* sözündən bir dəfə istifadə edəsiniz.
5. Mətndə mötərizədə verilmiş sözlərdən hansı işlənsə, leksik normanın tələblərinə əməl edilmiş olar?
6. Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün suallar tərtib edin.

**ORFOQRAFİYA**

Hansı yazılış düzgündür?

- mətndə qırmızı rəngdə verilmiş sözlər

**ORFOEPİYA**

Davam etdirin.

- mərdlik – [mərt...]
- xanlıq – [xan...]
- dördkünclü – [dört...]

Çap üçün deyil

Dəniz sahilində daha iki kənd vardır: **Bilgəh və Nardaran.** 1813-cü ilin məlumatlarına əsasən, Bilgəhə nisbətən Nardaranda əhali çox olub. Həmin illərdə Bilgəhdə cəmi 93 nəfər adam yaşayırdısa, Nardaranda 139 nəfər əhali olub. Bilgəh xan hüququnda olan Qayıb bəy tərəfindən, Nardaran isə Kərim bəy tərəfindən idarə olunurdu. Bu iki qonşu kənd öz coğrafi şəraiti və əhalisinin məşğuliyyəti etibarilə də bir-birinə yaxın idi. Hər iki kənd başlıca olaraq **zəfəran** əkirdi.

Xəzri külәkləri Abşeronun bu kəndlərində çox gü...lü (c, ç) olurdu. Xəzri küləkləri hündürlüyü üç-dörd metrə çatan narın qum təpələrini tez-tez bir yerdən başqa yerə sovururdu. Yay aylarında yerlilər bağlara köçdükləri zaman evləri, *demək olar*, qazıb qumun altından çıxarırdılar. Bu kəndlərin balıqçılıqla məşğul olan əhalisi dənizdə həmişə ölüm-dirimlə əlbəyaxada idi. Lakin bu kəndlərin fərqi orasında idi ki, Nardaranda çoxlu **nar** ağacları əkildiyi halda, Bilgəhdə barama bəsləməklə məşğul olan əhali **tut** və **cökə** ağacları əkməyə məcbur idilər. Kəndlərin adları da əhalisinin məşğuliyyətinə müvafiq olaraq adlanırdı. "*Nardaran*" iki sözdən "*nar*" və "*daran*" sözlərindən düzəlmişdir. "*Daran*" farsca "*olan*" mənasında işləndiyindən kəndin adı "*nar olan yer*" kimi tanınmışdı.

Bilgəh kəndində vaxtilə çoxlu tut ağacları əkildiyi və əhali baramaçılıqla məşğul olduğu üçün etnoqraf N.Zeytlits iddia edir ki, "Bilgəh" sözü mənası baramaqurdu olan "pilə" və "gah" sözlərindən əmələ gəlmişdir. O vaxtlar Bilgəhdə baramaçılıq, doğrudan da, çox inkişaf etmişdi. Hasil edilən ipək Bakı və Şamaxı şəhəri vasitəsilə bazarlara çıxarılır, ya da gəmiləri Bilgəh sahillərinə yan alan tacirlərə birbaşa satılırdı.

1301-ci ildə Nardaranın şimal hissəsində ustad Mahmud ibn Səad tərəfindən dairəvi bir qala tikilmişdi. Qala dördbucaqlı olub və hər kün...ündə (c, ç) bür...ü (c, ç) olan hasar içərisinə alınmışdı. Qala 3 yarusdan ibarət olub, təxminən 12 metr hündürlüyündədir. Usta Mahmud ibn Səadın adına Şıx kəndinin məscidi və İçərişəhərdəki "Molla Əhməd" məscidinin divarlarında da rast gəlirik. Bu tikililər eyni usta tərəfindən qaldırılmışdır.

**Qılman İlkinin**
**"Bakı və bakılılar"**
**kitabından**





**ORFOQRAFİYA**

*c*, yoxsa *ç* ilə yazılmalıdır?

- mətndə göy rəngdə verilmiş sözlər

**ORFOEPİYA**

Davam etdirin.

- dairəvi – [da...]
- şərait – [şər...]
- dördbucaqlı – [dört...]

Çap üçün deyil

1. Mətndə altından xətt çəkilmiş sözləri hansı sözlərlə əvəz etsəniz, məzmun dəyişməz?
2. Mətndə (səh. 152) kursivlə fərqləndirilmiş ifadələrdə durğu işarələrinin düzgün işləndiyini əsaslandırın.
3. Mətndə (səh. 152) birinci abzasda hansı cümlələrdən sonra əlavə cümlələrə ehtiyac var?
4. Mətndə (səh. 154) qırmızı rəngə verilmiş cümlədə hansı söz artıqdır?
5. Mətndə (səh. 154) tünd şriftlə verilmiş sözlərin ismin hansı halında olduğunu müəyyənləşdirin.
6. Bilgəh və Nardaran haqqındakı məlumatları seçib qruplaşdırın. Qruplaşdırdığınız məlumatlar əsasında hər iki kənd haqqında ayrıca mətn tərtib edin.
7. "Tərtib edəcəyiniz mətn rəsmi üslubda olacaq" fikri ilə razısınızmı? Niyə? Mətnin dilini 140-143-cü səhifədə abidələrin qorunması ilə bağlı verilmiş qanunun dili ilə müqayisə edin. Hansı fərqli və oxşar cəhətləri gördünüz? Fikrinizi nümunələrlə əsaslandırın.

- Adı çəkilən ərazilərin müasir görkəmi haqqında məlumat toplayıb "Bunları bilmək maraqlıdır" başlığı altında mətn tərtib edin. Həmin mətnləri qəzet maketinizdə yerləşdirin.
- Azərbaycan toponimlərinin toplanması, sistemləşdirilməsi ilə bağlı bir layihə keçirin.

**Toponim** – hər hansı bir yerin coğrafi adıdır.

- Əziz şagirdlər! Yaşadığınız bölgənin, şəhərin, rayonun, kəndin adı ilə bağlı məlumat toplayıb təqdimat hazırlayın, kiçik mətnlər tərtib edin.
- Əgər bu barədə elmi məlumat əldə edə bilmirsinizsə, yer adları ilə bağlı əfsanə və rəvayətlər toplayın.
- Yazılarınızın üslub, dil normaları baxımından düzgünlüyünə əmin olduqdan sonra sosial şəbəkələrdə paylaşın, yaşadığınız yerlə bağlı fikirlərinizi, düşüncələrinizi hamı ilə bölüşün.

Çap üçün deyil

4

# QOŞA MƏZAR

*Vətən uğrunda ölüm həyatın davamıdır.*

***Cambul Cabayev, qazax şairi***

*Məndən yəhərimi istəyin, verim, atımı istəyin, verim. Lakin heç kəs vətənimdən bir qarış torpaq istəməsin, verməròm.*

***Mete xan, Hun hökmdarı***

Təbiətin gözəl vaxtları idi. Necə deyərlər, gül gülü, bülbül bülbülü çağırırdı. Hər tərəfdə bir oyanış, bir təntənə var idi. Çöllər, düzlər yaşıl dona (*bürünmüşdü, bürünmüşdür*). Ağacdan-ağaca, budaqdan-budağa atılan quşlar civ-civ civildəyib ətrafa səs salırdı. ...Bu gözəlliyi seyr edən Məryəm kəndə çatmağa az qalmış Cəmil kişiyə oğlunun məzarına gedən yolu göstərdi. Sürücü torpaq yolla kənddən bir az aralıda olan yüksəkliyə yaxınlaşdı. *Məryəm Zəhmət olmasa burada saxlayın dedi.*

*Cəmil kişi ətrafa göz gəzdirsə də qəbiristanlıq görmədi.* Sakitcə yaxınlıqdakı təpəyə tərəf addımlayan ananın ardınca getdi. *Ona çatıb soruşdu*

*Ay Məryəm bacı, bəs uşağın məzarı hansı tərəfdədir Axı heç buralarda qəbiristanlıq yoxdur*

**Məryəm əlini bir az irəlidəki təpənin arxasına tərəf uzadıb: "Oğlumun məzarı bax oradadır", – dedi.**

...Məzar daşından ona qartal baxışlı bir oğlan boylanırdı. Sürücü onun ad-familiyasını oxudu: "Bayramov Vüqar Tapdıq oğlu 1972–1993". Sonra hesablayıb

**ORFOQRAFİYA**

Hansı sait yazılmalıdır?

- göy rəngdə verilmiş sözlərdə

**ORFOEPİYA**

Hansı düzgündür?

- [yaxınlıxdakı] – [yaxınnıxdakı]
- [atdımlıyan] – [addımlıyan]
- [komisarlıxdan] – [kamissarlıxdan]

Çap üçün deyil



gördü ki, yazıq uşaq həyatda cəmi-cümlətanı 21 il ömür sürüb. Bunu ürəyində götür-qoy edib köks ötürdü. Göz yaşları içində dərindən ah çəkdi.

Bir neçə dəqiqə dinib-danışmadılar. Hər ikisi sakitcə oturub baxışlarını Vüqarın qəbrinə dikdi. Araya çökmüş s...kutu (ü, u) Cəmil kişi pozaraq dedi:

– Məzarın ətrafı tərtəmizdir, səliqə-sahmanlıdır. Deyəsən, bizdən əvvəl burada kimsə olub.

– Kürdmahmudlu kəndinin camaatı da, məktəbliləri də oğlumun qəbrini ziyarət edirlər, Vüqarı unutmurlar.

– Məryəm bacı, siz özünüz şəhərdə yaşayırsınız, amma oğlunuzun məzarı burada – Füz...lidədir (ü, u). Məgər Vüqar şəhid olanda onun meyitini Bakıya aparıb Şəhidlər xiyabanında dəfn etmək olmazdı ki?

– Vüqar elə bir şəraitdə şəhid (*oldu ki, olub ki*) onun meyitini götürüb başqa yerdə dəfn (*edə bilmədik, edə bilməzdik*).

Sürücünün Vüqarın taleyini öyrənməyə marağı daha da artdı:

– Məryəm bacı, bilirəm ki, övladınız haqqında nə isə demək sizə çətindir. Amma çalışın, özünüzü ələ alın, Vüqar haqqında bir az ətraflı danışın.

Çap üçün deyil

Ana istəyirdi ki, başqaları da Vüqarı tanısın. Bilsinlər ki, bu təpənin ətəyində dəfn olunan şəhid kimdir? Nə üçün o məhz burada – Kürdmahmudlu kəndinin yaxınlığında torpağa tapşırılıb. Bütün bunları fikrindən keçirən Məryəm söhbətinə əvvəlki illərdən başladı:

– Oğlum həmişə cəbhəyə can atırdı. Əvvəllər ona yalvarırdım ki, ay bala, bəs sən getsən, mən kiminlə qalacam? Anana yazığın gəlsin, getmə. Xocalı faciəsindən sonra isə Vüqarın yolundan çəkildim. Fikirləşdim ki, qoy gedib vuruşsun, ermənilərdən qisas alsın. Bir neçə gündən sonra o, hərbi komissarlığa getdi. Oradan isə onu Füzuli tərəfə göndərdilər. Tez-tez oğlumdan məktub alırdım. Yazdığı məktublardan övladımın qoxusunu alır, sağ olduğunu bilirdim.

Döyüşlərə getdiyi gündən səkkiz ay sonra sağ-salamat evə qayıtmışdı. Elə bildim, həmişəlik gəlib. Vüqarın gəlişinə nə qədər sevindim, ilahi! Sən demə, onu şəhərə zabitlik kursunda oxumağa göndəriblər. Bildim ki, Vüqarı fikrindən döndərə bilməyəcəm. Odur ki day heç nə deməyib, xeyir-dua verdim. Bir neçə ay oxuyandan sonra yenidən Füzuliyə qayıtdı. Əvvəl döyüşlərə əsgər kimi getmişdi, ama indi onun çiyinlərində zabit paqonları var idi. Oğlumu böyük (*sevinc içində, sevinclə*) cəbhə bölgəsinə yola saldım. Çalışırdım ki, yol üstündə ağlayıb onun ovqatını korlamayım. Sevincinə acı göz yaşları qatmayım. Bu, Vüqarımın son gedişi oldu…

– Bir neçə dəfə evə məktub yazdı. Sonra isə məktubların arası seyrəldi. Daha oğlumdan əvvəlki kimi tez-tez kağız almırdım. Düşünürdüm ki, yəqin, yazmağa vaxt tapa bilmir. Sonra isə daha məktublar gəlmədi.

...Bir gün hərbi komissarlıqdan evimizə gələn nümayəndə oğlumun bu kənddə – Kürdmahmudlu uğrunda gedən döyüşlərdə yaralı vəziyyətdə əsir düşdüyünü bildirdi. Mən Vüqara bələd idim. Bilirdim ki, o, düşmən əsirliyində qalan oğul deyil. Ona görə də bu xəbəri (*eşitdikdə, eşidəndə*) artıq balamın həlak olduğunu bildim.

Oğlum haqqında bir az da ətraflı məlumat öyrənmək üçün səhər tezdən Beyləqana yola düşdüm. Fikirləşdim ki, heç olmasa, əsirlikdə olmuş həmin adamları tapıb görüşərəm, oğlumun meyitinin yerini soruşaram. Mənzil başına çatan kimi birbaşa rayonun mərkəzi xəstəxanasına üz tutdum. Burada Səxavət həkimi soraqladım. Dedilər ki, cərrahiyyə otağındadır. Xeyli gözləyəndən sonra, nəhayət ki, balamın ömrünün son dəqiqələrində yanında olmuş bu insanla görüşdüm. Tanışlıq verəndən sonra həkim kövrəldi, sonra özünə toxtaqlıq verib Vüqardan danışdı:

– Ermənilərin əlinə keçəndə onlar üstümdəki sənədlərdən həkim olduğumu bilib məni öz yaralılarını m...alicə (ü, u) etməyə məcbur etdilər. Sonra dedilər ki, burada huşsuz vəziyyətdə azərbaycanlı bir zabit də var. Ona da bax, özünə gəlsin. Ağır vəziyyətdə olan yaralı zabiti – sizin oğlunuzu müayinə etdim. Güllələr kürəyindən və ayaqlarından dəymişdi. Amma yaşamağına üm...d (i, ü) var idi. Onu ölümün pəncəsindən almaq üçün vaxt itirmədən əməliyyata başladım. Vüqarın bədənindəki gülləri

Ermənilərin azərbaycanlı əsirə "qayğı"sı nədən irəli gəlirdi?

Çap üçün deyil

çıxarıb yaralarına tikiş qoydum, sistem köçürdüm. Xeyli keçmiş onun yavaş-yavaş özünə gəldiyini hiss etdim: Vüqarın üzündə həyat əlamətləri sezilirdi. Bir neçə saat da keçdi. Vüqar gözlərini açıb təəccüblə mənə baxdı, harada olduğunu soruşdu. Özümün də, onun da düşmən əsirliyində olduğumuzu söylədim. Vallah bilsəydim ki, bu cür hərəkət edəcək, heç bunu ona deməzdim…

Məndən bu sözləri eşidəndən sonra o, "Azərbaycan zabiti düşmənə əsir düşməz", – deyib qolundakı sistemi çıxarıb bir kənara tulladı. Nə qədər çalışsam da, onu sakitləşdirə bilmədim. Səs-küyə ermənilər də gəldilər. Artıq gec idi. Sistemi çıxarmaqla, yaralarının sarğı və tikişlərini qoparmaqla o özünə qəsd etmişdi. Vüqar əsirlik həyatını zabitlik şərəfinə sığışdırmadı. Onun cəsarəti, mərd və kişiyana hərəkəti hətta düşməni də heyrətləndirmişdi.

...Vüqarı Kürdmahmudlu kəndindən bir az aralıdakı təpənin ətəyində torpağa tapşırdıq. İndi hələlik oralar düşməndədir. İnşallah, kənd ermənilərdən azad olunandan sonra Vüqarın dəfn olunduğu yeri sizə göstərə bilərəm.

Məryəm bir qədər susub sözünə davam etdi:

– Qış günlərinin birində Füzuli rayonunun həm Kürdmahmudlu, həm də başqa kəndlərinin azad olunduğunu eşidib sevindim. Ləngimədən Beyləqana gedib Səxavətlə görüşdüm. Biz Vüqarın dəfn olunduğu kəndə getdik.

Bu söhbətdən aylar keçdi. Cəmil kişi nə vaxt idi, Məryəmi görmürdü. **Bir gün Vüqarın məzarını ziyarət etmək qərarına gəldi.** Təpəyə yaxınlaşanda gözlərinə inanmadı. Vüqarın məzarı tək deyildi. Yanında ikincisi vardı…

Sizcə, ikinci məzar kimin idi?

**Vahid Məhərrəmovun**
**"Hər addım uğrunda" kitabından**

✓ *Öz təxəyyülünüzə əsasən, mətni 5-6 cümlə ilə tamamlayın.*

*"Fəryad" filmini izləyin. Vüqar obrazını İsmayıl obrazı ilə müqayisə edin.*

*Vətən uğrunda, xalqının azadlığı uğrunda canından keçmiş insanları unutmayın!*

*Tanıdığınız, haqqında məlumata malik olduğunuz bu şəxslər haqqında mətn (mətnin formasını seçməkdə sərbəstsiniz) yazıb sosial şəbəkələrdə paylaşın. Onların yaxınlarını ziyarət edin. Müəyyən günlərdə məktəbinizdə onlarla görüş təşkil edin.*

Çap üçün deyil

1. Mətndəki ana obrazını "At, o qara örpəyi" mətnindəki ana obrazı ilə müqayisə edin. Hər iki obrazda Azərbaycan qadınına məxsus hansı keyfiyyətləri müşahidə etdiniz?
2. Cəmil kişinin Vüqarın məzarını ziyarət etmək epizodu ilə müəllif nəyi göstərmək istəmişdir? C.Cabayevin sözlərini (səh. 156) Cəmil kişinin hərəkəti ilə əlaqələndirin. Sizcə, Vüqarın igidliyi Mete xanın sözlərinin (səh. 156) təsdiqi ola bilərmi?
3. Vüqar obrazını **oğul, əsgər, zabit** və **qəhrəman** kimi səciyyələndirin.
4. Mətndə hansı suala cavab var?
   - Əsər nə üçün baharın təsviri ilə başlanır?
   - Ana nə üçün oğlunu böyük sevinclə cəbhəyə yola salır?
   - Vüqarın Şəhidlər xiyabanında dəfn olunmasını kim təklif edir?
   - Vüqar nə üçün döyüşdən əvvəl zabitlik kursuna oxumağa gedir?
   - Yaralı zabiti ermənilər nə üçün Kürdmahmudlu kəndində dəfn edirlər?
5. Mətnin məzmununu yığcam şəkildə nəql edin.

**Müzakirə**

"20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi haqqında 31 mart 1998-ci il tarixdə fərman imzalanmışdır. 29 dekabr 1998-ci ildə "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə təsdiq edilmişdir.

"Azərbaycanın Milli Qəhrəmanı" adı "Azərbaycanın Milli Qəhrəmanı" adının müəyyən olunması haqqında" Azərbaycan Respublikasının 25 mart 1992-ci il tarixli Qanunu ilə müəyyən olunmuşdur.

✓ *Təsis edilən adlarla bağlı yazılar hansı üsluba aid edilməlidir?*

✓ *Şəhid, Milli Qəhrəman və Xalq qəhrəmanı ifadələrinin məna fərqini müəyyənləşdirin və bu adların hər birinin kimə və nə üçün verilməsi haqqında fikir yürüdün.*

6. Yaşıl rəngdə verilmiş cümlələrdə (səh. 156, 159) hansı sözlər sinonimdir?
7. *Dəfn olunmaq* sözünün yerinə basdırılmaq sözü işlənə bilərmi? Niyə belə hesab edirsiniz? Əgər *döyüşçünü basdırdılar* ifadəsi işlənərsə, ədəbi dilin hansı norması pozular?

Çap üçün deyil

8. Göy rəngdə verilmiş cümlədə (səh. 156) hansı söz məhəlli xarakter daşıyır?

9. *Nəş* və *meyit* eyni mənaya malik sinonim sözlərdir. Mətndə meyit sözünü nəş sözü ilə əvəz edin. Hansı cümlədə əvəz etmək mümkün oldu?

10. Mötərizədə verilmiş sözlərdən (səh. 156–158) uyğun olanını seçib cümlələri tamamlayın.

11. Kursivlə fərqləndirilmiş cümlələrdə (səh. 156) durğu işarələrini bərpa edin.

12. Mətndə üç nöqtə işarələrinin qoyulma səbəbini izah edin.

13. Altından xətt çəkilmiş cümlənin (səh. 159) tabeli mürəkkəb cümlə olduğunu əsaslandırın.

14. Tünd şriftlə verilmiş cümləni (səh. 159) mürəkkəb cümlə şəklində yazın.

15. 156-cı səhifədə tünd şriftlə verilmiş cümlənin vasitəsiz nitqə uyğun sxemini qurun.

16. 157-ci səhifədə altından xətt çəkilmiş cümlədə *götürüb* sözünü hansı sözlə əvəz etsək, düzgün olar?

17. Qırmızı rəngdə verilmiş cümlələri (səh. 158) dil normalarına uyğun yazın.

18. 2016-cı ilin aprelində Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş hərbi münaqişə haqqında, mərdlik, rəşadət nümayiş etdirib qəhrəmancasına həlak olmuş zabit və əsgərlərimizin döyüş fəaliyyəti ilə bağlı məlumat toplayıb təqdimat hazırlayın və ya mətn tərtib edin. Mətnləri qəzet maketiniz vasitəsilə təqdim edin.

   ◈ Aprel hadisələrinin ildönümü ilə bağlı tədbir hazırlayın. Döyüş iştirakçılarını, qəhrəmancasına həlak olmuş döyüşçülərimizin ailə üzvlərini tədbirinizə dəvət edin.

   ◈ Tədbirinizin keçirilməsi haqqında elan hazırlayın.

Çap üçün deyil

# ŞAHABLI QIRĞINI
*(ixtisarla)*

Ayın axırlarında Dəlmə bağlarına köçdük. Dadlı bol meyvələri ilə tanınan Dəlmə bağları İrəvanın yaxınlığında – Zəngi çayı dərəsindən yuxarı göz işlədikcə uzanan yaşıl vadidə salınmışdı. Bütün günü yaşıl təbiətlə təmasda, sərçə kimi ağacdan-ağaca qonar, şirələnən meyvələrdən yeyərdik. Axşam şam yeməyindən sonra süfrəni yığışdıran nənəm qaranlıq düşməmiş bizi yatmağa göndərərdi. Biz isə qaya parçalarından tikilmiş bağ evində, döşəmədə salınmış yerimizdə yatmalı idik. Dayım oğlu buna yaxşı bir çarə tapdı. Biz gündüz iri işıldaböcəklər tapıb başımızın üstündə qayanın çıxıntısına düzər, onların yaşıl işığında kitab oxuyardıq. Beləcə, günümüz xoş keçərdi.

Babam Əhmədin yeniyetmə çağları Şahablı kəndində keçmişdi. *Bir gün Baba Şahablı kəndi haradadır deyə soruşdum. Bir an üzümə baxdı sonra kəndi göstərirmiş kimi sağ əlini qaldırıb dedi Ay bala Şahablı İrəvanın ən ucqar dağ kəndidir.*

> Tarix dərslərindən öyrəndiyiniz faktlarla babanın fikrini təsdiqləyin.

Babam indiki Ermənistan ərazisini İrəvan adlandırar, həmişə deyərdi: “İrəvan bizimdir, gavurlar bu yerlərə gəlmədi”.

Babam Şahablı kəndi, onun ağır illəri, mərd insanların taleyi və hünəri, şirinli-acılı günləri haqqında danışmağa başladı.

1918-ci ildə Ermənistanda daşnak hakimiyyəti yarandı. Daşnak hakim dairələri “Türksüz Ermənistan” siyasəti yürüdür, hər yerdə azərbaycanlı kəndlərinə hücum edir, qırğınlar törədir, əhalinin mal-mülkünü talayırdılar. Levon adlı erməni daşnak hakim dairələrinin tapşırığını yerinə yetirməklə yanaşı, gələcəkdə özünün burada yaşaması üçün münasib bir yer axtarırdı. Şahablıdan başqa heç bir kənd onun ürəyinə yatmırdı. **1** Bir gün o, kəndin kənarında dəstəsi ilə dayanıb durbinlə ətrafa baxır, burada məskən salacağı ilə bağlı planlar qururdu. **2** Levon ağa fikirli-fikirli köməkçilərinə dedi:

– Kəndi hücumla almaq olmaz, siyasət işlətmək lazımdır.

O, kəndin ağsaqqalları Aslan xan və Kərbəlayi Qəhrəmanla görüşdü.

– Sizə səlahiyyətli nümayəndə kimi bildirmək istəyirəm ki, kənddə qayda-qanun yaratmalıyıq. Silahlar hökumətə təhvil verilməlidir. Vəziyyəti camaata başa salın, hökumətlə hökumətlik etmək olmaz.

– İnşallah, – deyə Kəblə Qəhrəman söhbəti başa çatdırdı.

Levon ağa görüşdən məmnun qalsa da, nigaran idi: görəsən, bu işin öhdəsindən gələ biləcəkmi? **3** O, fikirli-fikirli öz dəstəsini Dəhnəz kəndinə sarı apardı.

Çap üçün deyil



Kənddə isə çaxnaşma düşdü, hamı məscidin qabağındakı meydana toplandı, ağız deyəni qulaq eşitmirdi. Aslan xan rəsmi görüşü təfsilatı ilə danışdı, axırda öz fikrini dedi:

– Camaat, qırğına yol verməmək üçün hökumətə tabe olmalıyıq, ayrı çarəmiz yoxdur.

Kəblə Qəhrəman da hökumətə tabe olmağı məsləhət gördü.

Camaat arasından səslər eşidilirdi: “Ermənilərə inanmırıq!..” Məscidin qabağına toplanan camaat ancaq gecəyarı dağılışdılar. Aşıq Cəlil başda olmaqla min beş yüz bacarıqlı, əlisilahlı cavan Levon ağanın dəstəsini kəndə buraxmamağa, pusqu qurub dərə keçidlərində onları məhv etməyə hazırlıq görürdülər. Aşıq Cəlil dəstə başçıları ilə kənd ağsaqqallarının görüşünə getdi, onların xeyir-duasını istədi. Ağsaqqallar camaatı qırğına verəcəklərindən qorxub razılıq vermədilər.

Aslan xan o gecə sübh açılana qədər yatmadı, ürəyində götür-qoy etdi. Aşıq Cəlilin qurğusu, gənclərin təəssübkeşliyi onun qəlbini qürur hissi ilə doldursa da, hər şeyin sülhlə, əmin-amanlıqla bitəcəyinə inam bəslədi.

...İyun ayı idi. Levon kəndə gəldi. Ağsaqqallar qabağa çıxdı. O, atdan düşdü, hamı ilə görüşdü. Yeməkdən sonra hökumət adından öz şərtini ortaya qoydu:

– Mən beş gün sizin qonağınızam. Əmin-amanlıq xatirinə dövlətin təbəəliyini qəbul etsəniz, onun himayəsi üstünüzdə olacaqdır. Buna görə camaat silahlarını təhvil verməlidir ki, biz də arxayın olaq.

Çap üçün deyil

Levon ağa kəndlilərlə halallaşıb getmək istədiyini bildirdi. Kəndin ağsaqqalları onun bu hərəkətini alicənablıq kimi başa düşdülər. Ağsaqqallar ertəsi gün sarayda Levon ağanın kəndlilərlə görüşünü təşkil etdilər. Ancaq...

Sizcə, burada nə baş verəcək? Levon ağa dəstəsinə hansı "tapşırığı" verəcəkdi?

Aşıq Cəlilin silahlı dəstələri hadisədən xəbər tutan kimi köməyə gələrək kənddə qırğın törədən erməniləri atəşə tutdular. Onlar sarayda yananları xilas etməyə çalışırdılar. Levonun kənd evlərini talamaq cəhdi baş tutmadı. O düşündüyü əməliyyatı peşəkar quldur kimi dönə-dönə götür-qoy etmişdi. Yırtıcı xislətli bu adam kəndlilərdən min bir hiylə ilə silah toplayandan sonra kənddə hamını rəhm etmədən qılıncdan keçirib qanına qəltan etmək, qırmaq, var-yoxlarını talamaq, sonra erməni ailələrini bura köçürmək niyyətində idi.

O öz süvarilərini kəndətrafı gəzintiyə çıxaranda Şahablı kəndindən dağ keçidlərinə çıxış yollarını bir daha yoxlamış, qırğın törədən zaman bir adamın da qaça bilməməsi üçün döyüşçülərinə pusqu qurmağı tapşırmışdı. O, döyüşçülərinə tam əminliklə demişdi:

– Kəndliləri inandıra bilmişik, artıq bütün silahlarını təhvil veriblər. Bizə müqavimət göstərən olmayacaq. Heç kəsə rəhminiz gəlməsin, hamını qırın, evləri isə yandırmayın. İsa peyğəmbər özü bu cənnətməkan yeri bizə qismət edib.

Cümləni tamamlayın.

Onun ağlına gəlməzdi ki, ______________________ ______________________. İndi isə o, vahimə içində idi, aradan çıxmaq istəyirdi. Ancaq necə? Mühasirə dairəsi daralırdı. Ayağını üzəngiyə qoyub yəhərə qalxanda sağ budu gizildədi, geriyə baxanda bir gözünü itirdi, arxası üstə yerə dəyərək huşunu itirdi. Cangüdənləri onu götürüb dalda yerə çəkildilər.

Qızğın atışma gecəyarıya qədər davam etdi. Şahablılardan şəhid və yaralanan az olmadı. Ancaq silaha sarılan kəndlilər Sultan xanın və Aşıq Cəlilin başçılığı ilə Levonun peşəkar cəllad sürüsünün axırına çıxdılar. Gecə qaranlığında geri çəkilib qaçan yüz əlli erməni süvarisinin yarıdan çoxunu kəndin kənarında pusqu quran kənd cavanları məhv etdilər.

**Didərgin, "Füyuzat" jurnalından, 2012-ci il**

1. *Şahablı çox varlı bir kənd idi. Kəndlilərin saysız-hesabsız ilxısı, mal-qarası, qoyun-quzu sürüləri vardı. Levon duz-çörək kəsdiyi Kəblə Qəhrəmanın malikanəsini özü üçün gözaltı eləmişdi* cümlələrini mətnin hansı hissəsinə yerləşdirsək, abzasda ardıcıllıq yaranar və fikrə aydınlıq gətirər?
2. Mətnin məzmunu ilə bağlı 3-4 sual tərtib edin.
3. "İrəvan qədim Azərbaycan torpağıdır" adlı mətn (təqdimat) hazırlayın.

Çap üçün deyil

4. Sözləri leksik mənaları ilə düzgün birləşdirin.

| | |
|---|---|
| vadi | insanın yaşadığı yer, yurd |
| məskən | iki dağ arasında böyük, uzun düzən |
| dərə | düz yer, çöl |
| düzən | düzənlikdə, iki dağ və ya təpə arasında uzun dərin yer |

5. Sual işarəsinin yerinə hansı söz yazılmalıdır?

?

- meyvə və ya müxtəlif ağaclar əkilmiş sahə
- şəhərdən kənarda istirahət yeri
- nəyi isə bağlamaq üçün yararlı olan ip, kəndir və s.

6. Frazeoloji birləşmələri bir sözlə əvəz edin

ürəyində götür-qoy etmək → ...

ürəyinə yatmamaq → ...

ağlına gəlmək → ...

Çap üçün deyil

7. Mətni tələffüz qaydalarına uyğun oxuyun. Xatın faciəsini Şahablı faciəsi ilə xarakter baxımından müqayisə edin.

1943-cü ilin martında faşistlərin xüsusi təyinatlı dəstəsi Belarus dilində "ev" mənası verən Xatın kəndində 149 dinc sakinləri xüsusi amansızlıqla məhv edirlər. Hadisə belə baş verir: həmin vaxt 201-ci alman mühafizə diviziyasının əsgərləri meşə yolu ilə keçirmişlər. *Kapitan Hans Violke meşədə odun doğrayan bir qadından Partizanları görmüsünüzmü deyə soruşur.* Qadın heç kimi görmədiyini deyir. 300 metrdən sonra partizan mühasirəsinə düşən almanlar Hans Violke daxil olmaqla 3 nəfəri itirirlər. Cəza dəstəsinin taqım komandiri qadından şübhələnərək geri qayıdır, onu cəzalandırır. Onun əmri ilə Xatın kəndi mühasirəyə alınır. Əsgərlər Xatının bütün əhalisini anbara dolduraraq qapını bağlayır, ətrafına xeyli ot, quru odun yığıb üstünə benzin tökürlər. Anbar köhnə olduğundan tez alışır, alov hər yeri bürüyür. Günahsız sakinlər diri-diri yandırılır. Almanlar sonra bütün kəndi dağıdırlar. Beləcə, Xatın yerlə-yeksan olunur.

Xatın faciəsinin 56 yaşlı şahidi, bədəninin bir hissəsi yanmış İosif Kaminski gecə yarısı, faşistlər kəndi tərk etdikdən sonra özünə gəldikdə başqa bir müsibəti yaşayır: o, meyitlərin arasında can verən oğlunu tapır. Yeniyetmə atasının qolları arasında can verir. 2012-ci ildə ukraynalı tarixçi İvan Dereyko faciəyə həsr etdiyi monoqrafiyasında yazır ki, hazırda Xatın kəndində faciə qurbanlarının xatirəsinə ucaldılmış abidə – övladını qolları arasına almış ata heykəli məhz İosif Kaminskinin prototipidir.

Xatın dinc əhalinin kütləvi məhvinin simvolu kimi tarixə düşüb. 1969-cu ildə Xatın kəndinin mövcud olduğu yerdə xatirə kompleksi açılıb.



Xocalı şəhərində baş vermiş faciə Xatın kəndinin faciəsinə bənzəyir. Çünki ..........

✔ Cümləni tamamlayın.



Çap üçün deyil

8. “Şahablı qırğını” mətnində fərqləndirilmiş cümlədə durğu işarələrini bərpa edin. Onun vasitəli, yoxsa vasitəsiz nitq olduğunu deyin.

9. Mətndə (səh. 163) altından xətt çəkilmiş cümlədə qrammatik normanın pozulduğu halı müəyyənləşdirin. Fikrinizi əsaslandırın.

10. “Xatın faciəsi” mətnində (səh. 166) ilk cümlədə qrammatik norma iki yerdə pozulmuşdur. Onları müəyyənləşdirib səhvləri düzəldin.

11. “Xatın faciəsi” mətnində fərqləndirilmiş cümlənin sxemini qurun.

12. Aşağıdakı ifadələrdən istifadə etməklə mətni tamamlayın. Mətnə əsasən Azərbaycan xalqını bir cümlə ilə xarakterizə edin.

*uzunmüddətli sülhün əldə olunması, təhlükəsizlik, müharibəni aradan qaldırmaq, işğalçılıq siyasəti, 1988-ci ilin əvvəlləri, sülh cəhdləri, Dağlıq Qarabağ münaqişəsi, 1994-cü il 12 may, dünya birliyi*

_____ Ermənistan tərəfindən Azərbaycana qarşı həyata keçirilməyə başlayan _____ səbəbindən iki qonşu dövlət arasında başlanan _____ istiqamətində ümummilli lider Heydər Əliyevin göstərdiyi ______ tarixi əhəmiyyəti vardır. _______ Azərbaycanla Ermənistan arasında _____ əlaqədar əldə olunmuş atəşkəs bütövlükdə Cənubi Qafqazda _____ bünövrəsini qoymuşdur. Heydər Əliyev atəşkəsə nail olmaqla Azərbaycanın _____ nail olmuşdur. Tarixdə ilk dəfə olaraq bu münaqişənin formulu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi adlandırılmış və məsələnin əsl mahiyyətinin _____ olduğu kimi çatdırılmasına başlanılmışdır.

Tarixin müxtəlif dönəmlərində baş versə də, xaraktercə eyni olan Şahablı faciəsi, Xatın faciəsi, Naqasaki və Xirosima faciələri, Xocalı faciəsi, Meşəli faciəsi, Şuşa faciəsi və digər faciələr...

İşğaldan azad olmaq və qalib gəlmək istəyi, azad və xoşbəxt yaşamaq arzusu müharibə zamanı müxtəlif əqidəyə, mənsubiyyətə, irqə malik insanları birləşdirir. Bəs müharibələrin, faciələrin olmaması üçün əvvəlcədən birləşmək olmazmı? Sizcə, bu faciələrin baş verməməsi üçün nə etmək lazımdır?

Çap üçün deyil

13. Mətnləri oxuyub onların məzmununa münasibət bildirin. 170-ci səhifədəki tapşırıqları yerinə yetirin.

Hər daşın dibində bir xəzinən var,
Başı qarlı dağlar, səfalı dağlar.
Ömrün yaraşığı gözəl bulaqlar
Yaymış şöhrətini hər yana, Şuşa.

Sənin öyünməyə var ixtiyarın:
Gözəldir hər fəslin – qışın, baharın.
Tarixlər şahidi lal qayaların,
Düzülüb gör necə yan-yana, Şuşa.

***Mustafa Fətəliyev***

*Qarabağ xanlığının məruz qaldığı aramsız hücumlar nəticəsində Pənahəli xan daha etibarlı, daha əlverişli və düşmən hücumu üçün əlçatmaz olan yeni bir paytaxt-qala tikdirməyə qərar verir.* Toplanmış məşvərət məclisində o əyanlara müraciətlə deyir Biz gərək dağların içində möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz şəhər qalası tikək ki onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz bir an belə kəsilməməlidir”. Azərbaycanın dəniz səviyyəsindən 1300–1600 m hündürlükdə olan qədim yaşayış məskəni Şuşanın yerləşdiyi əlçatmaz dağ yaylası bütün bu tələblərə cavab verirdi.

Beləliklə, azərbaycanlıların qədim yaşayış məskəni olan Şuşa ərazisində Qarabağ xanlarının yeni iqamətgahının tikintisinə başlanıldı. Yeni şəhər-qala mövcud olduğu ilk illərdə öz banisinin adı ilə Pənahabad, sonralar isə Şuşa adlandırıldı və Qarabağ xanlığının daimi paytaxtına çevrildi.

Şəhərin adının etimoloji mənasının Azərbaycan-türk dilinə mənsub olması heç bir şübhə doğurmur. Bu ad şəhərin salındığı relyefə uyğun olub qədim türk dilində “yayla”, “piramida”, “şiş qaya” mənasını daşıyır. Təsadüfi deyildir ki, bu şəhər xalq arasında və bir sıra bədii əsərlərdə “Şişə” kimi də məşhurdur.

***Yaqub Mahmudov, Camal Mustafayev. “Şuşa – Pənahabad” kitabından***

çap üçün deyil



Ağa Məhəmməd şah Qacar Şuşada qətlə yetiriləndən sonra İbrahimxəlil xan Cavanşir onun cənazəsini ədəb-ərkanla Tehrana göndərir. Üstəlik, Fətəli şahla dostluq əlaqələri yaratmaq üçün qızı Ağabəyim ağanı ona ərə verir.

"Ağabacı" təxəllüsü ilə şeirlər yazan Ağabəyim ağa həmişə Qarabağı arzulayır, vətən həsrətli şeirlər yazır:



Mən aşiqəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ…

*Ağabəyim ağa Fətəli şahdan Tehranda bağ saldırmaq üçün icazə istəyir.* Razılıq alan kimi o, bağbanı da Şuşadan gətirtdirir, Tehranda bağ saldırır və onu "Vətən bağı" adlandırır. Şuşanın dağlarında meşələrində düzlərində bitən ağac meyvə gül kollarını burada əkdirir. Ağabəyim ağa bununla da doğma yerlərin ab-havasını, qoxusunu bu bağdan, bu güllərdən, bu çiçəklərdən almaq istəyirmiş. Qarabağ torpağını vətən seçmiş xarıbülbüldən başqa, bütün ağaclar, güllər, çiçəklər bitir. Xarıbülbülün bağda bitməməsindən məyus olan şairin qələmindən aşağıdakı misralar süzülür:

Vətən bağı al-əlvandır,
Yox içində xarı bülbül.
Nədən hər yerin əlvandır,
Köksün altı sarı, bülbül?!

Yeri gəlmişkən, onu da qeyd edək ki, Ağabəyim ağa Natəvanın bibisidir.

***Namiq Babayev***



Çap üçün deyil



Xarıbülbül haqqında müxtəlif rəvayətlər var. Onlardan biri də budur.

Bir zamanlar bütün bitkilər canlı imiş. *Onlar da insanlar kimi danışırmış, sevə bilirmiş, sevinib gülə bilirmişlər.* Bülbül çəmənin ən nazlı gülünü sevirmiş. Bütün gül-çiçəklər səmimi qəlblə bu məhəbbəti alqışlayırmış.

Hər gün sübh tezdən bülbül gülün üstünə qonub ona məhəbbət mahnısı oxuyar gül-çiçəklər də bu nəğmənin təranələri altında rəqs edərmiş şadlanarmış. Paxıllıqdan, az qala, bağrı çatlayan xar bu şadyanalığa dözə bilmir. Hamının sevinci onun qəzəbi imiş. Nəhayət, xar bu sevincə son qoymaq istəyir. Gülü bülbüldən ayırmaq üçün gəlib ona öz “sevgisi”ni açır. Gül xarı rədd edir. *Acıqlanan xar gülün bir ləçəyini yeyir.* Bülbül gülün məhv olduğunu görüb fəryad qoparır. *Bütün gül-çiçəklər də bu fəryada qoşulurlar*. Lakin fəryad heç zaman daşqəlblilərə təsir etməyib. Xarın daş qəlbi yenə yumşalmır, gülü yeməkdə davam edir. Onda hamı Allaha yalvarır ki, onların canını alsın, amma güllə bülbülün eşqinə qıymasın. Onların ah-naləsi qəbul edilir. Hamı bitkiyə çevrilir. Gül, bülbül, xar da üçlükdə bir gülə çevrilirlər. Hər il elə beləcə üçü də birlikdə bitir.

- ✓ *Mətnlərdən əsas faktları seçib qruplaşdırın.*
- ✓ *Mətnlərin üslubunu müəyyənləşdirin.*
- ✓ *Altından xətt çəkilmiş cümlələrdə durğu işarələrini bərpa edin.*
- ✓ *Fərqləndirilmiş cümlələri dil normalarına uyğun yazın.*
- ✓ *Mətnin tipini müəyyənləşdirin.*
- ✓ *Göy rəngdə verilmiş sözləri yazılış baxımından müqayisə edin və mənalarını izah edin.*

Çap üçün deyil

14. Orxan Muxtarlının “Xarıbülbül” hekayəsi əsasında çəkilmiş eyniadlı qısametrajlı filmə baxın. Filmə baxdıqdan sonra təəssüratlarınızı yazın.

Film məzmun baxımından dolğundur (dolğun deyil), belə ki …

Mən rejissor olsa idim, bu filmi …

Aktyor seçimi uğurlu idi (uğurlu deyildi), çünki …

Filmdə əfsanə ilə … və qum sənətinin əlaqələndirilməsi …

Film mənim xoşuma gəldi (gəlmədi), çünki …

Film məndə belə təəssürat oyatdı ki, …

✓ *Ardını özünüz davam etdirin.*

✓ *Film haqqında mətn tərtib edib qəzet maketində yerləşdirin.*

15. “Şuşam mənim” adlı təqdimat hazırlayın.

- Verilmiş materiallardan (səh. 168–170) istifadə edin.
- Əlavə material toplayın.
- Məlumatları sistemləşdirin.

Çap üçün deyil

6

**Müsyö Jordan:** *Hatəmxan ağa, mənim məqsədim bu idi ki, Şahbaz bəyi Parisə aparıb onun təhsili ilə məşğul olub, firəng dilini ona təlim edim, onu kralımıza tanıdım. Eyni zamanda sizin yerlər haqqında ona danışım. Əgər mən Qarabağa gəlməsəydim, kim biləcəkdi ki, Qarabağın yaylaqlarında bu otlar mövcuddur? Bundan əvvəl bizim alimlərimiz belə güman etmişlər ki, bu bitkilər ancaq Alp dağlarında, Amerikada, Afrikada və Şvetsariya dağlarında mövcud olur. Amma indi mən buraya gəlmək səbəbi ilə Parisin alimlərinə isbat edəcəyəm ki, onlar səhv ediblər. Bu nəbatat Qarabağın dağlarında daha çoxdur. Məsələn, bu ot ki görürsünüz, latınca bunun adı aqantusdur ki, mənim təcrübəmə görə qarın ağrısında çox faydası var. Bu otun adı latınca serastrum alpinumdur ki, göz ağrısına mənfəəti var. Bu otun adı latınca qamlina afriqanadır ki, diş ağrısının əlacı bundadır. İndi mən çox sevinirəm ki, onu Qarabağın dağlarında tapmışam ki, soyuqdəymə üçün nəhayətdə xeyirlidir.*

***M.F.Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasından*** *(Mətn sadələşdirilmişdir.)*



## ÇAYTİKANI

1. Mətni oxuyarkən işarələnmiş yerlərə aşağıdakı köməkçi nitq hissələrindən uyğun gələnini artırın.

   *qədər, daha, üçün, ən, həmçinin, görə, həm, həm də*

Təbii müalicəvi əhəmiyyətinə ✱ bir çox dərdin dərmanı olan çaytikanı iydəkimilər fəsiləsinə aid zəngin vitaminli bitki növüdür. Avropadan Çinə ✱ təbii şəkildə yayılan çaytikanı Orta Asiya, Sibir, Qafqaz və Rusiyanın Avropa hissəsinin çay vadilərində, çəmənliklərdə meşə?ətrafı yerlərdə, hündür dağlarda və digər yerlərdə yeti-

**ORFOQRAFİYA**

Necə yazılmalıdır:
defislə, bitişik, yoxsa ayrı?

- mətndə göy rəngdə verilmiş sözlər

**ORFOEPİYA**

- bitki – [..........]
- çəmənliklərdə – [..........]
- keyfiyyətli – [..........]

Çap üçün deyil

şir. Çaytikanının məlum olan 3 növündən biri?də ölkəmizdə yetişir. Çaytikanının bu növü Samur çayı vadisində, Quba-Xaçmaz, Şəki-Zaqatala, Naxçıvan, Lənkəran zonalarında dəniz səviyyəsindən 2000 m hündür yerlərdə kol və ağac şəklində bitir.

Tərkibindəki zəngin vitamin kompleksinə görə insan orqanizminə çox faydalı olan çaytikanının giləmeyvəyə oxşayan meyvəsi sentyabr?oktyabr aylarında yetişir. Meyvə saplağı möhkəm olduğu * yetişmiş meyvələri bütün qış fəslində (mart-aprel aylarına kimi) ağacda qala bilir. Birtoxumlu olan meyvəsi şirəli, qızılı-sarı və ya çəhrayı-qırmızı rəngdə olur, dadı turş?məzədir. Çaytikanı aprel-may aylarında çiçəkləyir. Çiçəkləri xırda, ətirli və sarı olur. Toxumu tünd?qəhvəyi və parlaqdır. Çaytikanı bitkisi –40°C temperatura qədər dözümlüdür.

Çaytikanı meyvəsinin tərkibində 3,5% şəkər, 3,2% üzvi turşu, 6%-ə qədər zülali maddə və 9% yağ vardır. Toxumunda isə yağın miqdarı 12,5%-ə qədərdir. Çaytikanının tərkibində 16,9 – 272,5 mq C, 75 – 100 mq P, 0,016 – 0,055 mq $B_1$, 0,037 – 0,066 mq $B_2$, 0,037 – 0,066 mq $B_6$, 8 mq E, 1,1 – 10,9 mq krotin (provitamin A), 0,79 mq fol turşusu və 1,2 mq K vitamini və s. vardır. Toxumunda isə 0,28 mq $B_1$, 0,38 mq $B_2$, 14,3 mq E vitamini var. Toxumundan alınan yağın tərkibində 250 mq karotinoidlər, 165 mq E vitamini və s. yağ turşuları mövcuddur. Çaytikanı meyvələrinin toxumları da çox faydalıdır. Onların tərkibində çox mühüm tibbi əhəmiyyəti olan 10%-ə qədər piyli yağ vardır. Ona görə?də xüsusi pres altında saxlamaqla son illərdə çaytikanı meyvə və toxumlarından əla keyfiyyətli yağ alınır və bu yağ "çaytikanı yağı" adı ilə təbabətdə geniş istifadə edilir. Çəhrayı rəngdə qatı maye halında olan bu yağ xüsusi ətirli qoxuya və dada malikdir. Çaytikanı meyvəsinin yağı * zəngin A vitamini mənbəyi hesab olunur.

Təbiətdə ən çox çaytikanının meyvələrindən istifadə edilir. Çaytikanı meyvəsinin şirəsi bir çox xəstəliyin, o cümlədən mədə-bağırsaq, ürək-damar, sinir sistemi xəstəliklərinin müalicəsi zamanı effektli sayılır. Amma təbabətdə çaytikanından alınan yağ * çox faydalı vasitə kimi tətbiq olunur. Yağ hazırlamaq üçün çaytikanının meyvələri şaxtalar düşəndən sonra yığılır. Çünki məhz bu dövrdə onun meyvələrində yağlılıq faizi artır.

Çaytikanı yağının faydalarına gəlincə o, güclü yara?sağaltma qabiliyyətinə malikdir. Ondan şüa zədələnməsi, dəri xəstəlikləri, yanıq, mədə və onikibarmaq bağırsağın xorası və s. xəstəliklərin müalicəsi zamanı istifadə olunur. Çaytikanından müalicə məqsədilə hələ qədim zamanlardan istifadə edirdilər. Qədim monqol və Çin xalq təbabətində çaytikanının həm meyvələrindən, həm də yarpaqlarından mədə xəstəliklərinin müalicəsində, * yel və dəri xəstəliklərində istifadə edilirdi. Qədim Yunanıstanda yarpaqlarının və budaqlarının həlimi ilə * insanları, * heyvanları müalicə edirdilər.

**Lalə Vahidqızı**

Çap üçün deyil

2. Mətnin tipini və üslubunu müəyyənləşdirməyə çalışın.

3. Sizcə, nə üçün mətnin əvvəlində M.F.Axundzadənin əsərindən sitat kimi istifadə edilmişdir? Sitatın mətnlə nə kimi əlaqəsi vardır?

4. Mətndə hansı suala cavab yoxdur?
   - Çaytikanının tərkibi hansı zəngin vitamin kompleksinə malikdir?
   - Çaytikanıdan hansı xəstəliklərin müalicəsində istifadə olunur?
   - Nə üçün çaytikanı yarasağaltma qabiliyyətinə malikdir?
   - Nə üçün çaytikanının meyvələri qışda da ağacda qala bilir?

5. Mətnə əsasən çaytikanı bitkisinin yeddi ən vacib xüsusiyyətini yazın.




6. Mətn əsasında kiçik dialoq tərtib edin.

7. Mətn üçün açar sözlər seçin.

8. Sinonimlər cərgəsində hansı söz artıqdır? Niyə?

faydalı → səmərəli → mənfəət → yararlı

9. *Yetişmək* sözünü aşağıdakı mənalarda cümlədə işlədin.

çatmaq ______________ yeməli hala gəlmək ________

yaşı çatmaq __________ bitmək __________________

kifayət etmək ________ gəlib çatmaq _____________

birləşmək – *Ürək titrər, qan qaçar,*
*Yetişəndə yar yara. (Bayatı)*

Çap üçün deyil

10. Qəzet və ya jurnaldan publisistik üslubda (fərqli üslubda da mətn seçə bilərsiniz) olan mətn seçib tədqiq edin.

Mövzunun müəyyənləşdirilməsi

Müraciət olunan mövzunun aktuallığı

Dilinin anlaşıqlı, sadə olması

Abzaslar və fikirlər arasında məntiqi əlaqə

Sözçülükdən uzaq olması

Qoyulan problemin əsaslandırılması

Ədəbi dil normalarının tələblərinə əməl edilməsi



Füyuzat şəfalı bitki

**FAYDALI MƏSLƏHƏTLƏR**

Mixək üyüdülərək ədviyyat kimi istifadə olunmaqla yanaşı, ağızda bir müddət saxlanaraq və ya çay kimi dəmlənərək də istifadə oluna bilər. Çeynənildiyi zaman nəfəsi təmizləyir və ağızdan gələn qoxunu aradan qaldırır.

Suda qaynadılaraq hazırlanan mixək çayı hıçqırığı, şiddətli baş ağrılarını aradan qaldırmaq, iştaha açmaq üçün faydalıdır və zehni yorğunluğu da aradan qaldırır. Mixək çayının içinə darçın da əlavə edilərsə, bu, boğaz ağrısı üçün çox faydalı olar.

Bu bitkinin çiçəyi balla qarışdırılıb yeyilərsə, cinsi zəifliyə yaxşı təsir edər. Mixəyin kökü qaynadılıb içilərsə, ishalı kəsər, mədə-bağırsaq pozulmalarını aradan qaldırar.

Mixəkdən hazırlanan yağ revmatizm və nevralgik ağrıların azalmasına kömək göstərir. Bunun üçün ağrı olan nahiyə mixək yağı ilə masaj edilməlidir.

Çürük diş ağrısı zamanı dişin oyuğuna ya əzilmiş quru mixəyin bir parçası yerləşdirilir, ya da yağından bir damcı tökülür. Diş ağrısını kəsmək üçün 1 ədəd mixək toxumunun ağızda saxlanılması da faydalıdır.

Zehni və ya fiziki yorğunluq, gərginlik və başağrısı zamanı 1 stəkan qaynar suya 9–10 ədəd mixək əlavə edib 5–6 dəqiqə saxladıqdan sonra mixəkləri içindən çıxarmadan qurtum-qurtum içmək lazımdır. Ən gec 10 dəqiqə sonra yorğunluq və gərginliyin keçdiyi, bədən müqavimətinin artdığı müşahidə olunacaq. Lakin bu məqsədlə mixək çayını həftədə 3–4 dəfədən artıq içib vərdiş halına gətirmək olmaz. Onu da qeyd edək ki, mixək çayının şəkər əlavə edilmədən içilməsi daha təsirlidir. Mixək çayı axşamüstü və ya gecə içilərsə, yuxusuzluğa səbəb olar.

Həzm problemi, köp və qarınağrısı zamanı 8 ədəd mixək 2 stəkan suda təxminən 20 dəqiqə ağzıbağlı, vam odda, mayenin yarısı buxarlanana qədər qaynadılır, süzülür və yeməkdən sonra bu çaydan 1 xörək qaşığı içilir. Eyni çaya bal qatılarsa, təngnəfəslik, bronxit və sinuzitə faydalıdır.

Şəkərə qarışqa daraşdığı zaman şəkərin yanına bir neçə (təxminən 1 kq şəkərə 8–9 ədəd) mixək qoyulur. Güvəyə qarşı isə mixəyi cunadan hazırlanmış kisəyə yığaraq paltar dolabına qoymaq məsləhətdir. Əgər dayaz boşqaba bir neçə damcı mixək yağı damcıladaraq masanın üzərinə qoyularsa, orada olan ağcaqanadları uzaqlaşdırar.

Qədim zamanlarda başağrısını mixək sirkəsi ilə müalicə edirdilər. Bunun üçün 2 xörək qaşığı tünd sirkəni 1 çay qaşığı mixəyə qataraq onu tıxacla bərk bağlanmış flakonda 1 həftə isti



44

Qoyulan problemlə bağlı dəqiq faktların araşdırılması və təqdimi

Çətin anlaşılan sözlərdən, terminlərdən, məcazi mənalı sözlərdən istifadə dərəcəsi

11. Elə təsəvvür edin ki, sizə dərman bitkilərinin qorunması ilə bağlı rəsmi sənəd hazırlamaq tapşırılıb. Həmin sənədi hazırlamağa çalışın.
İlk növbədə nədən başlamalısınız?

Çap üçün deyil

7

# TOPONİMLƏR – DİLİMİZİN "TARİX KİTABI"

*(ixtisarla)*

*Dağ adları dilin "tarix kitabı"dır. Bu kitabın hər səhifəsində bir ad oxunur, bir abidə ucalır. Bu abidələr minillik tariximizin ən qədim tərcümeyi-halı, əbədi yaddaşı, əslimizin-kökümüzün tarix salnaməsidir. Salnamənin hər səhifəsində torpağın "tarix kitabı" oxunur.*

*Bahar fəsli, yaz ayları gələndə*
*Süsənli, sünbüllü, lalalı dağlar.*
*Yoxsulu, ərbabı, şahı, gədanı*
*Tutmaz bir-birindən aralı dağlar.*
***Aşıq Ələsgər***

1. Sizcə, dağ adlarının mənasının öyrənilməsinin hansı əhəmiyyəti vardır?

Naxçıvanın hər dağında, hər dərəsində bir tarix yaşayır. Buradakı toponimlərin hamısı Azərbaycan?türk mənşəlidir: ərazidə hər daşın, hər qayanın üstündə Azərbaycanın milli möhürü vardır.

Bu dağlar xalqın yaşayış tərzində, təsərrüfat həyatında mühüm rol oynamışdır. Xalq dağları özünün güvənc yeri, arxa, köməyi hesab etmiş, inam ocağına çevirmiş, dağları ucalıq, paklıq, əyilməzlik simvolu kimi qəbul etmiş, hər bir dağa formasına, görünüşünə, bitki və heyvanat aləminin zənginliyinə görə ad vermişdir. Bu adlar həm?də xalqın milli mənlik abidəsinə çevrilmiş, iftixar, qürur mənbəyi olmuşdur. Odur ki, ərazidə hər dağın öz adı, öz mənəvi qüdrəti, simvolik rəmzi vardır.

**1 Ucalıq rəmzi**

## QAPICIQ

Qapıcıq Zəngəzur silsiləsinin və Kiçik Qafqazın ən yüksək zirvəsidir (3906 m). Xalqımız ucalıq, mənlik və qürurunu bu dağdan almış, ilk ocağımız bu dağın zirvəsində alovlanmış, qədim yazı təsvirləri, qaya?üstü rəsmlər bu dağda öz əksini tapmışdır. Xalq etimologiyasına görə, dünya tufanından sonra yer üzünə çıxan insanlar bu dağı İlk qapı, Kiçik qapı adlandırmışlar. Elmi etimologiya isə bu adı "Qabcıq" sözü ilə əlaqələndirir və yazır ki, qabcıq qədim türk dilində "gəmi-qayıq" deməkdir.



Çap üçün deyil

2
Əyilməzlik rəmzi

## ƏLİNCƏ QALASI

Əlincə əzəmətli təbiət abidəsidir. Dörd tərəfdən sıldırım qayalardan ibarət olan bu dağın üstündə məşhur Əlincə qalası inşa olunmuş, qalada qarovulxana, səngər, su hovuzları, insanların yaşayışı üçün şərait, sarsılmaz müdafiə sistemi olmuşdur. Əlincə dağ?qalası əsrlər boyu tarixin səhifələrindən düşməmiş, neçə-neçə müharibənin şahidi olmuş, Eldənizlər, Elxanilər, Cəlairilər dövründə möhtəşəm istehkama çevrilmiş, illər uzunu monqolların mühasirəsində qalmış, öz əzəmətini, əyilməzliyini qoruyub?saxlamış, dəfələrlə xalqımızın xarici işğallardan müdafiəsində müstəsna rol oynamışdır. Alınca xanın hakimiyyəti illərində yüksək dağ zirvəsində qalanı inşa etdiyinə görə Əlincə dağı və qalası onun adı ilə bağlı yaranmışdır.

3
Müqəddəslik rəmzi

## ƏSHABİ-KƏHF

Bura xalqımızın müqəddəs məbədgahıdır. Sirri hələ də insanlara bəlli olmayan, haqqında xeyli əfsanə və rəvayət söylənilən məşhur Əshabi-kəhf ocağı dağın sıldırım qayalıqları arasında yerləşir. Müqəddəs “Qurani-Kərim”də adı çəkilən bu möcüzəli yer əsrlər boyu insanların ziyarətgahına, ibadət yerinə, inam ocağına çevrilmişdir. Son illərdə burada aparılan böyük tikinti?quraşdırma işləri xalqın bu ocağa məhəbbətinin ifadəsidir. Deyilənə görə, düşmənlərdən qaçan yeddi nəfər mömin gəlib bu sıldırımlı dağlara çatır. Qaçacaq yer olmadığını görüb xilas olmaq üçün göylərdən kömək istəyirlər. Bu zaman dağlar ayrılır, yeddi şəxs onun içinə girib yoxa çıxır. O vaxtdan həmin yer Əshabi-kəhf adlanır. Əshabi-kəhf sözünün mənası “Mağara əhli” deməkdir. Buraya bəzən “Yeddi kimsənə” də deyilir.

**ORFOQRAFİYA**

Necə yazılmalıdır: defislə, bitişik, yoxsa ayrı?

- mətndə göy rəngdə verilmiş sözlər

**ORFOEPİYA**

- əyilməzlik – [..........]
- iftixar – [..........]
- hüdudlarından – [..........]
- etimologiya – [..........]





Çap üçün deyil

4
Bərəkət
rəmzi

## DUZDAĞ

Dünyada ən qədim daş?duz yatağı Naxçıvandadır. Məlumata görə, hələ e.ə. IV-II minilliklərdə əldəqayırma alətlər vasitəsilə bu dağın laylarından duz çıxarılmışdır. *Bunun nəticəsidir ki, XIX əsrin 70-ci illərində burada bir neçə ədəd daş balta, xeyli daş çəkic tapılmışdır*. Duzdağda I Şah Abbasın “Büllur sarayı”, dünyada analoqu olmayan duzlaşmış çaylar, zəngin maddi mədəniyyət nümunələri vardır. Yataq indi də istismar olunur. Hazırda aparılan tədqiqatlar nəticəsində ərazidə İlk Tunc dövrünə aid keramika qalıqları və çox sayda daş alətlər aşkar edilmişdir. Bu dağdan çıxarılan duz öz bərəkəti ilə süfrələrə dad, insanlara qüvvət, sağlamlıq verir. Duzdağın yeraltı mağaralarında yaradılmış xəstəxanada insanlar şəfa tapır. Süxurları daşduz yatağı ilə zəngin olduğuna görə dağa belə ad verilmişdir.



5
Şəfa
rəmzi

## BATABAT YAYLAĞI

Batabat təkcə Naxçıvanda deyil, onun hüdudlarından kənarda da tanınan yaylaqdır. Buranın yazı, yayı kimi, payızı, qışı da gözəldir. Batabatın təbii gözəlliyi, təmiz havası, dişgöynədən durnagözlü bulaqları, palıdı, ardıcı, yemişanı, baş-başa verən meşə ağacları, nadir heyvanat aləmi, quşları, güllü?çiçəkli çəmənlikləri insanı heyrətə gətirir. Batabat təbii bitkilər diyarıdır. Mütəxəssislərin məlumatına görə, Naxçıvanda 2000-dən artıq bitki növünə rast gəlinir ki, bunların?da 100-dən artığı dərman bitkisidir. Bu bitkilərin hamısı Batabatın florasının tərkib hissəsidirlər. Batabata gələn hər bir insan buranın saf təbiətindən şəfa tapır. Batabat adının mənşəyi ərazinin simvolu olan göl və bulaqlardakı suyun axını, süzülmə əlaməti, torpağa bata-bata süzülüb özündən aşağı ərazilərdə yenidən çıxması, göllər əmələ gətirməsi ilə bağlı yaranıb. Bu adın mənşəyini qədim türk dillərindəki “igid bahadır” mənasında işlənən “batır” sözü ilə əlaqələndirmək də ağlabatandır.

**Adil Bağırov**



Çap üçün deyil

1. Nə üçün müəllif dağları milli mənlik abidəsi hesab edir?

2. “Qartal” hekayəsindəki qartalı xatırlayın. Əzəmət simvolu hesab edilən bu quşun məkanı niyə məhz dağlardır?

3. Bu abzas 5-ci mətndə hansı cümlədən sonra yerləşdirilə bilər?

Üzən ada Batabat yaylağı ərazisində təbiət abidəsidir. Suvarma sistemi üçün istifadə olunan üç göldən ikincisidir. Üzən ada Sfaqnum mamırlarından və onun üzərində bitən ot örtüklərindən formalaşıb. Torf qatı geniş sahəni əhatə etməklə, qalınlığı 2 metrə çatır. Küləyin istiqamətindən asılı olaraq ada öz yerini dəyişir, bu da adama xüsusi zövq verir. Göldə qiymətli qızıl və gümüşü ilişkən balıq növü yaşayır. Ada göldəki suyun tam axıdılmasına mane olduğundan, burada balıqlar qışda da qala bilir. Torfun altındakı münbit şərait hesabına çoxalan külli miqdarda onurğasızlar balıqların bol qidasını təmin edir. Ərazi dərman bitkiləri ilə zəngindir.

4. Uyğunluğu müəyyənləşdirin.

| | | |
|---|---|---|
| **1** Göl | **2** Bulaq | **3** Çay |
| **a** yerin altından sızıb çıxan sərin su mənbəyi | **b** fasiləsiz təbii su axını | **c** dənizlə əlaqəsi olmayan böyük su hövzəsi |
| 1_______________ | 2_______________ | 3_______________ |

5. *İstismar* sözünün hansı izahı 4-cü mətndəki mənasına uyğun gəlir?

- hər hansı bir əməli məqsəd üçün sistematik istifadə
- işlənməyə və ya istifadəyə başlamaq
- istehsal vasitələri üzərində xüsusi mülkiyyət sayəsində insanların bir qisminin başqalarının əmək məhsulunu mənimsəməsi, özü üçün işlətməsi

Çap üçün deyil

6. “*Hava* sözü omonim sözdür” fikrini təsdiq və ya inkar edin. Fikrinizi nümunələrlə əsaslandırın.

7. Sual işarəsinin yerinə hansı söz yazılmalıdır?




8. Mətndə (səh. 176) altından xətt çəkilmiş cümlədə hansı sözdən sonra vergül işarəsi səhv qoyulmuşdur?

9. 1-ci mətndə qırmızı rəngdə verilmiş sözlərdə (səh. 176) hansı durğu işarəsinin işlənməsinə ehtiyac vardır?

10. 2-ci mətndə son cümləni elə dəyişin ki, fikir aydın ifadə olunsun.

11. 3-cü mətndə altından xətt çəkilmiş cümləni sintaktik təhlil edin.

12. 4-cü mətndə kursivlə fərqləndirilmiş cümlənin quruluşunu müəyyənləşdirin və onu fərqli quruluşda yazın.

13. 5-ci mətndə altından xətt çəkilmiş cümlədə hansı norma pozulmuşdur?

14. Söz və söz birləşmələrinə müvafiq şəkilçilər artırmaqla mətni bərpa edin.

*Haçadağ, təbiət, memarlıq, abidə. Əzəmətli, alçatmaz, sıldırım, qaya, ibarət olan, bu, dağ, hər tərəf, bir, sənət, əsər, xatırlatmaq. Vulkan püskürməsi, nəticə, yaranmaq, bu, dağ, düzənlik, ərazi, göy, baş qaldırmaq, memarlıq, abidə. Dağ, digər, ad, isə, İlanlıdağ.*

Çap üçün deyil

15. “Müasir Naxçıvan” mövzusunda mətn hazırlayın.

Düşmənlər cığırla zirvələrimizə çıxmaq istəyirlər, zirvə güllərini dərmək istəyirlər. Çənlərimiz, dumanlarımız onları ora çatmağa qoymur, yollarını azdırır, qayalara çırpıb çuxurlara atır. O cığırların yolları ancaq sizlərə açıqdır. Oradakı min bir ətirli güllər, xarıbülbüllər sizindir.

Çıxın, zirvəyə çıxın, cığır sizi gözləyir. O zirvədən ətrafa baxdıqca böyük Azərbaycanı görəcəksiniz…



Azərbaycanı böyük görmək üçün onu böyük məhəbbətlə sevməlisiniz!

Çap üçün deyil

8

# ŞƏKİ

*Bir məktubdan:*
*Bir dəfə Bəxtiyar Vahabzadəyə sual verirlər:*
*– Özünüz şəkili olduğunuz halda, hələ Şəkiyə bir şeir həsr etməmisiniz?*

*Suala cavab aşağıdakı şeir olur.*

Bir nəğmə qoşmadım hələ mən sənə,
Dağlar bunu mənə kəsir sanmasın.
Mən dedim, vurğunam Azərbaycana,
Deyirəm, heç zaman xırdalanmasın
Könlümdən ucalan bu avaz, bu səs.
Böyükdür, ucadır məsləkim mənim.
Bala anasına "sevirəm" deməz,
Mən də deməmişəm, a Şəkim mənim.
Sən öz keçmişini daim qorudun,
Babamın şöhrəti yaşayır səndə.
Bu eşqə eşq olsun!
Dünənlə bu gün
Çiyin-çiyinədir küçələrində...

Misralarda ifadə olunan fikrə münasibət bildirin.



Çap üçün deyil

Mən sənə borcluyam öz balan kimi,
Çox da ki şeirimdə görünmür adın.
Mənim oxuduğum nəğmələrimi,
Mənim qulağıma sən pıçıldadın.
Şeirimin mayası – bu qaynar nəfəs
Sənin öz çiçəyin, sənin öz barın.
Şeirimdə dil açıb danışırmı bəs,
Sənin bulaqların, göy çinarların?
Mən həm bakılıyam, həm lənkəranlı,
Gəncəli, qubalı, həm naxçıvanlı.
Şəkili, şirvanlı, qarabağlıyam,
Bütöv Vətənimə bütöv bağlıyam.
Mən sənin qoynunda gəldim cahana,
Məni bəxş elədin Azərbaycana.
Həmişə mən sənin həndəvərində
Uçan bir quşam.
Bir eldə doğulub –
Xoşbəxtəm ki, mən
Böyük bir Vətənə oğul olmuşam.

Bu misralarda şair nəyə öz etirazını bildirir?

Şairin son misraları oxuculara hansı fikri aşılayır?

**Bəxtiyar Vahabzadə**

Əziz şagirdlər!

Bölünməkdən, parçalanmaqdan qorxun. Birləşin! Birləşin ki, qürur mənbəyimiz olan Azərbaycanımız daim yaşasın!

Çap üçün deyil

***Əziz şagirdlər!*** Bu tədris ilində siz daha bir layihə üzərində işləyəcəksiniz: qəzet maketi hazırlamağı öyrənəcəksiniz.

Bu il sizə təqdim olunan layihə ilk baxışdan çətin görünsə də, düşünürük ki, bu maraqlı işin öhdəsindən kifayət qədər bacarığa malik Azərbaycan məktəblisi layiqincə gələcəkdir.




Çap üçün deyil




**LAYİHƏNİ HAZIRLAMAQ ÜÇÜN:**

- ❑ İlk gündən qruplara bölünün.
- ❑ Hər qrupun vəzifələrini, görəcəyi işləri müəyyənləşdirin.
- ❑ Görəcəyiniz işlər:
  - Materialları toplamaq (ilboyu hazırlayacağınız mətnlər, hekayələr, məqalələr, məktəbinizdə keçiriləcək tədbirlər, sorğular və s.);
  - Mətnlərin orfoqrafik cəhətdən düzgünlüyünü yoxlamaq;
  - Cümlələrin ədəbi dil normalarına uyğunluğunu yoxlamaq;
  - Mövzuya uyğun şəkillər toplamaq;
  - Siz maketi hazırlamaq üçün ***Microsoft publisher*** proqramından istifadə edə bilərsiniz. Qəzetdəki bölmələr, rubrikalar və s. haqqında sxem 186–187-ci səhifələrdə verilmişdir.

Çap üçün deyil

# QƏZET MAKETİNİN SXEMİ




Çap üçün deyil




***Əziz şagirdlər!***

Layihəni həyata keçirmək üçün sizə təqdim olunan bu sxem bir nümunədir. Siz qəzet maketi hazırlayarkən təhsil aldığınız məktəbin şərait və imkanlarını nəzərə almalısınız.

Çap üçün deyil

*Əziz şagirdlər!*

Maketin hazır forması təxminən aşağıdakı şəkildə ola bilər.

Qəzetin adı, tarixi, yerləşdirilən mətn və şəkillər, məlumatlar və s. şərtidir. Maketinizdə verilən yazılar, məlumatlar daha çox tədris prosesində görəcəyiniz işlərə uyğun olacaqdır.

# İŞIQ

**№2** | **Aylıq qəzet** | **28 oktyabr 2017-cı il**



*İlk dərs günü – Bilik Günü.*




*18 Sentyabr – Musiqi Günüdür.*



*Göyərçin nə üçün sülh rəmzi hesab edilir?*



2017-ci il oktyabr ayının 5-də məktəbin direktoru 5–7-ci siniflərlə məntiq olimpiadası ilə bağlı görüş keçirmiş, onun keçirilmə qaydaları, mərhələləri və şərtləri haqqında şagirdlərə məlumat vermişdir.

## "Sabahın alimləri" Respublika müsabiqəsinə start verildi.

........ tarixlərində İntel İSEF – Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində müsabiqə keçirilir.

Müsabiqənin kateqoriyaları:

– Riyaziyyat,

– Fizika, astronomiya,

– Kimya,

– Biologiya (*zoologiya, botanika, mikrobiologiya, genetika və molekulyar biologiya, biokimya*),

– Tibb və sağlamlıq,

– Ekologiya, ətraf mühitin idarə olunması,

– Mühəndislik (*energetika, mexanika, nəqliyyat, biomühəndislik və s.*),

– Kompüter elmləri.

*(ardı növbəti səhifədə)*

Çap üçün deyil



"İrəvan qədim Azərbaycan torpağıdır" mövzusunda tərtib etdiyiniz məqaləni və ya mətni burada yerləşdirə bilərsiniz.

## Milli Qəhrəmanlarımızın ailəsi ilə növbəti görüş





Burada "Təbiət və biz" mövzusunda yazılmış ən yaxşı hekayə yerləşdirilə bilər.

## "Yazı tiplərinin həyatımızda rolu" sorğusunun nəticələri açıqlandı.

Məktəbimizdə ...... tarixində 6–10-cu sinif şagirdləri arasında "Yazı tiplərinin həyatımızda rolu" mövzusunda sorğu keçirilmiş, alınan nəticələr aşağıdakı kimi olmuşdur.

Sorğunun nəticələri haqqında burada məlumat verilir.



Yaxın günlərdə məktəbimizdə "Xəzərimizi qoruyaq" adlı konfrans keçiriləcəkdir.

Konfransın keçirilmə tarixi və şərtləri haqqında əlavə məlumat veriləcəkdir.

Xurşudbanu Natəvan Sevil Cavanşirovanın xatirələrində.

(Mətn yerləşdirilir)



## Xalqımızın söz xəzinəsi

- Dost dar gündə tanınar.
- Tək əldən səs çıxmaz.
- Hər şeyin təzəsi, dostun köhnəsi.
- Yoldaşını nişan ver, özünü tanıt.

Çap üçün deyil

## LÜĞƏT

| | | |
|---|---|---|
| A | ***Acıdil*** | danışarkən hamını sancan, acı söz deyən |
| | ***Ağ ciyər*** | tənəffüs orqanı |
| | ***Ahəngdarlıq*** | səslər və s. arasında uyğunluq |
| | ***Alaq otları*** | tarlada, bostanda və s. bitən və becərilən bitkilərin inkişafına mane olan yabanı bitki |
| | ***Al-əlvan*** | rəngarəng, ala-bəzək |
| | ***Alqış*** | birini təbrik üçün və ya bir şeyi bəyənmə ifadəsi olaraq əl çalma |
| | ***Amil*** | bir prosesin, hadisənin hərəkətverici qüvvəsi, səbəbi |
| | ***Anlayış*** | anlaşma, qanma, düşünmə, dərk etmə işi; ağıl, zəka, fərasət |
| | ***Araşdırmaq*** | axtarmaq, yoxlamaq |
| | ***Aydınlıq*** | ay işığı; açıq və işıqlı hava; nur |
| B | ***Bacarıq*** | bilik, təcrübə, vərdiş nəticəsində əldə edilmiş işgörmə qabiliyyəti |
| | ***Bağır (bağrım)*** | ürək, qəlb mənasında |
| | ***Bəxt*** | tale, qismət |
| | ***Bərpa etmək*** | əvvəlki normal halına salma, təzədən qurma |
| | ***Bəşəriyyət*** | insanlıq, insanlar |
| | ***Bəzzaz*** | parça satan tacir |
| | ***Bilik*** | oxumaq və ya təcrübə nəticəsində əldə edilən məlumat; elm |
| | ***Boya*** | bir şeyə müəyyən rəng vermək, bir şeyi boyamaq, yaxud rəsm çəkmək üçün işlədilən rəng maddəsi |
| | ***Böhtan*** | birini ləkələmək üçün nahaqdan ona pis bir şey isnad etmə; iftira |
| | ***Böyümək*** | həcmcə və miqdarca artmaq, genişlənmək |
| | ***Bulanıq*** | mayelər haqqında: şəffaf, təmiz, saf olmayan, saflığını itirmiş |
| C | ***Cahan*** | dünya, aləm, kainat |
| | ***Caynaq*** | bir çox heyvan və quşların barmaqlarının qarmaqvarı iti ucları |
| | ***Cəmiyyət*** | konkret tarixi-maddi həyat şəraiti ümumiliyi əsasında birləşmiş insan toplusu |

Çap üçün deyil

| | | |
|---|---|---|
| C | ***Cızıq*** | xətt |
| | ***Cızmaq*** | xətt, cızıq çəkmək |
| | ***Cod*** | qaba, kobud, sərt, qalın |
| | ***Cücərmək*** | becərərək, bəsləyərək yetişdirmək |
| | ***Cütlük*** | cüt olma; ikilik, qoşalıq, cüt şeyin halı |
| Ç | ***Çağ*** | vaxt, zaman |
| | ***Çağırış*** | çağırma, səslənmə; çağırma səsi |
| | ***Çalar*** | əsas rəngdən yalnız tonla fərqlənən rəng müxtəlif-liyi |
| D | ***Dağlamaq*** | qızdırılmış dəmirlə damğa vurmaq |
| | ***Dahi*** | xariqüladə (qeyri-adi) ağıl və zəkaya malik olan şəxs |
| | ***Davranış*** | davranma tərzi, hərəkət, rəftar |
| | ***Dəbilqə*** | döyüşçülərin başlarına qoyduqları metaldan tökül-müş papaq |
| | ***Dəyərsiz*** | heç bir dəyəri, qiyməti olmayan |
| | ***Diyar*** | ölkə, məmləkət |
| | ***Dolğunluq*** | köklük, doluluq; yetkinlik; mükəmməllik |
| | ***Dövr*** | dolanma, hərlənmə, fırlanma; zamanın hər hansı bir cəhətdən səciyyəvi olan böyük, ya kiçik qismi |
| | ***Dünyagörüşü*** | həyat, təbiət və cəmiyyət haqqında görüşlər sistemi |
| | ***Düşüncə*** | xəyal, fikir |
| E | ***Ecazkar*** | xariqüladə, möcüzələr yaradan, hər kəsi heyrətə salan |
| | ***Elan etmək*** | hamının eşidəcəyi tərzdə xəbər vermək, məlumat vermək, bildirmək |
| | ***Elmilik*** | elmi olan, elmə əsaslanma, elmi mahiyyət daşıma |
| | ***Emblem*** | hər hansı bir anlayışı ifadə edən şərti əlamət, nişan, rəmz |
| | ***Epiqraf*** | əsərin və ya onun bölmələrinin başlıqlarından sonra yazılan sözlər |
| | ***Estetik*** | estetikaya aid olan, estetika ilə bağlı olan |
| Ə | ***Əbədiləşdirmək*** | əbədi olaraq nəsillərin xatirəsində yaşatmaq, həmişə xatirə qoymaq |
| | ***Əcdad*** | ata-babalar, ulu babalar |

Çap üçün deyil

| | | |
|---|---|---|
| Ə | ***Əcnəbi*** | başqa xalqa, millətə mənsub olan, xarici, başqa ölkənin vətəndaşı |
| | ***Ədavət*** | ürəkdə saxlanılan düşmənçilik hissi, kin, küdurət, qərəz |
| | ***Əhvali-ruhiyyə*** | ruhi hal, ruhi vəziyyət |
| | ***Əks-səda*** | qayalara, bina tağlarına və s.-yə toxunandan sonra təkrar qayıdan və eşidilən səs |
| | ***Əlaqə*** | qarşılıqlı münasibət, bir-biri ilə bağlılıq |
| | ***Ənginlik*** | genişlik, açıqlıq |
| | ***Əyani*** | açıq, aşkar, gözlə görünən; məktəbdə öyrənilən fənlərə dair material və modelləri tələbələrə bilavasitə göstərmək əsasında qurulmuş və buna xidmət edən |
| | ***Əzm*** | qəti niyyət, qəti qərar |
| F | ***Faciə*** | dəhşətli, ağır nəticəli hadisə, fəlakət, müsibət, bədbəxtlik |
| | ***Fantaziya*** | xəyalən bir şey uydurma, təsəvvür etmə bacarığı; sərbəst formalı improvizasiya səciyyəli əsər |
| | ***Fəlakət*** | böyük bəla, müsibət, bədbəxtlik |
| | ***Fərməş*** | toxunma sandıq |
| | ***Fəryad*** | acı-acı bağırma, nalə, fəğan |
| | ***Fırça*** | rəng çəkmək, yapışqan sürtmək və s. üçün dəstəyə bərkidilmiş tük, qıl və s. topasından ibarət alət |
| G | ***Görkəm*** | xarici, ümumi görünüş |
| | ***Gülüş*** | şadlıq, sevinc, məmnunluq və s. xarakter hislərin ifadəsi olaraq ağızdan çıxan qırıq-qırıq səslər |
| H | ***Hədiyyə*** | bağışlanan şey, bəxşiş, sovqat |
| | ***Həmahəng*** | bir-birinə uyan, uyğun |
| | ***Həmkəndlilər*** | bir kənddə doğulmuş, orada yaşamış və ya yaşayanlar |
| | ***Hərçənd*** | bir cümlədə ona zidd olan və ya aydınlaşdıran başqa cümlə ilə qarşılaşdıran bağlayıcı |
| | ***Hırıldamaq*** | şit-şit, boş-boş, mənasızca gülmək |
| | ***Himayə*** | birini qoruma, ona havadarlıq və qayğı göstərmə, qanadı altına alma |
| | ***Hissiyyat*** | hislərlə, duyğularla bağlı hallar |
| | ***Hiylə*** | kələk, fırıldaq, fənd; məkr |

Çap üçün deyil

| | | |
|---|---|---|
| **H** | ***Hopmaq*** | canına, içinə keçmək; sorulmaq |
| | ***Hüdud*** | sərhəd |
| **X** | ***Xariqüladə*** | qeyri-adi, qeyri-təbii |
| | ***Xələl*** | pozuculuq, əskiklik, zəiflik, nöqsan, ziyan |
| | ***Xəyal*** | bir şəxsin və ya şeyin insan fikrində, təsəvvüründə təcəssüm edən surəti; təxəyyül |
| | ***Xüsusiyyət*** | hər hansı bir şeyi digərindən ayıran səciyyəvi cəhət, əlamət |
| **İ** | ***İcra etmək*** | bir işin, qərarın, hökmün və s.-nin yerinə yetirilməsi, həyata keçirilməsi |
| | ***İdarə*** | hər hansı bir iş sahəsinə baxan, müəyyən ştatı, müdiriyyəti olan təşkilat |
| | ***İmprovizasiya*** | hazırlaşmadan şeir, ya nitq söyləmə, hava oxuma və ya musiqi çalma |
| | ***İradə*** | insan psixikasının, insanın öz qarşısına qoyduğu məqsədə nail olmaq, arzu və istəklərini həyata keçirmək qabiliyyətində təzahür edən xüsusiyyətlərdən biri |
| | ***İrq*** | mənşə və bəzi irsi xüsusiyyətlərinə görə bir olan tarixən təşəkkül tapmış insanlar qrupu |
| | ***İstehza*** | ələ salma, rişxənd etmə, masqaraya qoyma; masqara |
| **K** | ***Kaman*** | oxatan yay; kamança |
| | ***Kantata*** | musiqinin müşayiəti ilə xorla və tək oxunan, adətən təntənəli mahiyyət daşıyan böyük musiqi əsəri |
| | ***Karlıq*** | eşitmə qabiliyyətinin olmaması və ya nöqsanlı olması |
| | ***Kobud*** | qaba |
| | ***Konkretlik*** | müəyyənlik, aydınlıq, qətilik |
| | ***Kükrəmək*** | hirslənərək özündən çıxmaq |
| | ***Kvartet*** | dörd musiqi aləti və ya dörd səs üçün yazılmış musiqi əsəri |
| **Q** | ***Qanunauyğun*** | qanuna müvafiq, qanun ilə düz gələn |
| | ***Qavramaq*** | başa düşmək, anlamaq, dərk etmək |
| | ***Qəbilə*** | ibtidai cəmiyyətdə; bir soydan törəmiş və bir rəisin idarəsi altında birlikdə yaşayan köçəri tayfa, nəsil |
| | ***Qədim*** | çox köhnə zamanlara, çox uzaq keçmişə məxsus və aid olan |

Çap üçün deyil

| | | |
|---|---|---|
| Q | ***Qəhqəhə çəkmək*** | bərkdən gülüş, səslə gülmə |
| | ***Qəribə*** | eşidilməmiş, görünməmiş, təəccüblü, qeyri-adi, çox maraqlı |
| | ***Qəribsəmək*** | özünü tək və kimsəsiz görüb kədərlənmək, darıxmaq |
| | ***Qırğın*** | heyvanların, mal-qaranın, ev quşlarının kütləvi surətdə qırılıb tələf olmasına səbəb olan yoluxucu xəstəlik; böyük insan tələfatı; dava-dalaş |
| | ***Qibtə*** | başqasının yaxşı cəhətlərini görüb bunların özündə də olmasını arzu etmə |
| | ***Qucaq*** | qolları açdıqda döş ilə qollar arasında əmələ gələn məsafə; qolların arası tutduğu qədər |
| | ***Qüdrət*** | böyük qüvvət, güc; taqət |
| | ***Qürbət*** | yad ölkədə, yad yerdə olma; qəriblik |
| | ***Qüsur*** | eyib, nöqsan, çatışmayan cəhət |
| L | ***Laqeyd*** | heç bir şeyin fikrini çəkməyən, heç bir şeyə əhəmiyyət verməyən |
| | ***Laləzar*** | laləlik, çiçəklik, güllük, çoxlu lalə bitən yer |
| | ***Ləqəb*** | müəyyən bir səciyyəvi xasiyyətinə və ya başqalarından ayıran əlamətinə görə adama verilən qeyri-rəsmi ad; ayama |
| M | ***Mağara*** | dağ və qayanın içinə doğru uzanan, yaxud yer altında olan geniş oyuq, kaha |
| | ***Mahiyyət*** | daxili məzmun, xüsusiyyət, əsl məna, məğz, əsas |
| | ***Meydan*** | şəhər və ya kənd, qəsəbə və s. içərisində tikilisiz açıq və geniş düz yer, sahə |
| | ***Məğrur*** | öz ləyaqətini, üstünlüyü hiss edən, qürurlu, vüqarlı |
| | ***Məhrumiyyətlər*** | məhrum olma, əli boşda qalma, binəsiblik; ehtiyac |
| | ***Məxluq*** | canlı varlıq, canlı vücud |
| | ***Məxsus*** | yalnız birinə aid olan |
| | ***Məişət*** | ümumi yaşayış tərzi, həyat; dolanacaq, güzəran |
| | ***Məkan*** | bir adamın, şeyin sakin olduğu yer, oturulan yer, yurd |
| | ***Mənbə*** | əsasını, başlanğıcını təşkil edən şey; yeraltı suların çıxdığı yer |
| | ***Mənəvi*** | insanın daxili, ruhi aləmi ilə bağlı olan; qeyri-cismani, qeyri-maddi |

Çap üçün deyil

| | | |
|---|---|---|
| M | ***Mənimsəmək*** | yaxşı-yaxşı öyrənilmək, başa düşülmək, yadda saxlamaq |
| | ***Mənlik*** | bir şəxsin öz varlığı, öz halı |
| | ***Mənsub olmaq*** | nisbəti və mənsubiyyəti olan, əlaqəsi olan, aidiyyəti olan |
| | ***Mənşə*** | bir şeyin çıxdığı, törədiyi yer |
| | ***Məntiqi*** | məntiq qanunlarına uyğun, məntiq qanunlarına əsaslanan |
| | ***Mənzərə*** | bir yerin uzaqlara qədər gedən ümman görünüşü; təbiəti əks etdirən şəkil; konkret şəkildə təsəvvür olunan, göz qabağına gətirilə bilən hadisə |
| | ***Mərhələ*** | bir şeyin inkişafında keyfiyyətcə öz xüsusiyyətləri olan dövr |
| | ***Mərkəz*** | hər hansı bir şeyin ortası, orta hissəsi |
| | ***Millət*** | dövlət, ölkə |
| | ***Millilik*** | milli xüsusiyyət daşıma, milli səciyyədə olan |
| | ***Mübarizlik*** | mübariz olma, müəyyən fikir və məqsəd uğrunda mübarizə aparma, döyüşkənlik |
| | ***Mühit*** | insanın yaşadığı ictimai məişət şəraiti |
| | ***Mühit*** | hər hansı boşluğu dolduran və müəyyən xassələrə malik olan maddə, cisimlər |
| | ***Mükafat*** | birinin hər hansı bir sahədəki xidmətlərini, müvəffəqiyyətini qeyd etmək üçün ona verilən pul və başqa qiymətli bəxşiş |
| | ***Müqavimət*** | zorakı hərəkətə, zorakılığa qarşı durma |
| | ***Müqayisə*** | oxşar və fərqli cəhətlərini, yaxud birinin o birisindən üstünlüyünü müəyyənləşdirmək üçün qarşılaşdırma, tutuşdurma |
| | ***Mülahizə*** | yaxşı düşünülmüş fikir, rəy, nöqteyi-nəzər |
| | ***Müntəzəm*** | düzgün və ardıcıl, sistematik, sistemli, daimi |
| N | ***Nahiyə*** | insan və heyvan bədənində hər hansı bir daxili orqanın yerləşdiyi sahə, yer |
| | ***Naxış*** | rənglərin, cizgilərin, kölgələrin kombinasiyasından ibarət şəkil, bəzək |
| | ***Nail olmaq*** | əldə etmək, müvəffəq olmaq |

Çap üçün deyil

| | | |
|---|---|---|
| N | ***Nailiyyət*** | hər hansı bir sahədə, işdə əldə edilmiş yaxşı nəticə; müvəffəqiyyət |
| | ***Nəhəng*** | son dərəcə, böyük, iri, çox yekə, azman |
| | ***Nəql*** | nağıl; bir yerdən başqa yerə aparmaq, köçürmək |
| | ***Nəsil*** | əcdadı bir olan qohumlar silsiləsi |
| | ***Nəsim*** | xəfif, yüngül yel, meh |
| | ***Nəş*** | meyit, cənazə, ölü |
| | ***Nəşə*** | kef, sevinc, ləzzət, zövq |
| | ***Nəzarətsiz*** | üstündə nəzarət olmayan, baxımsız |
| | ***Nitq*** | danışma, fikrini sözlə ifadə etmə qabiliyyəti |
| | ***Nizamlı*** | düzgün, tərtibli, mütəşəkkil, müntəzəm |
| | ***Nöqsan*** | çatışmayan cəhət, çatışmazlıq |
| O | ***Ornament*** | rəssamlıqda, heykəltəraşlıqda və s.-də: təkrarlanan həndəsi elementlərdən və ya bitki və heyvan motivlərindən ibarət naxış, bəzək |
| Ö | ***Öcəşmək*** | çəkişmək, sataşmaq, sürtüşmək, mübahisə etmək, tutaşmaq |
| | ***Ölmək*** | həyatı tərk etmək, vəfat etmək; keçinmək |
| | ***Ötmək*** | keçmək, keçib getmək, gəlib keçmək |
| | ***Özül*** | bünövrə, təməl, əsas |
| P | ***Pillə*** | hissə; tədricən, yavaş-yavaş |
| | ***Premyera*** | pyes, opera, balet və s.-nin ilk tamaşası |
| | ***Püskürmək*** | öz içərisində şiddətlə bir şey sovurub atmaq |
| R | ***Rabitəli*** | yaxşı ifadə edilən, məntiqi və qrammatik cəhətdən düzgün qurulmuş, müntəzəm |
| | ***Rayihə*** | xoş iy, gözəl qoxu, iy |
| | ***Rekonstruksiya*** | köhnə tikililərin təkmilləşdirilməsi |
| | ***Rəy*** | bir şey haqqında fikir, mülahizə, söz |
| | ***Riqqət*** | ürək yumşaqlığı, ürək incəliyi, şəfqət |
| | ***Romantik*** | romantizmin tərəfdarı və davamçısı |
| | ***Ruh*** | insanın psixi aləmi, onun hiss və duyğuları, əhvali-ruhiyyə |
| S | ***Saflıq*** | saf olma, təmiz olma, qatışıqlardan təmizləmə |
| | ***Sarmaşıq*** | ağ-qırmızımtıl çiçəkləri olan, sarmaşaraq uzanan bitki |

Çap üçün deyil

| | | |
|---|---|---|
| S | ***Sazın pərdəsi*** | simli musiqi alətlərinin qolundakı bölmələrdən hər biri |
| | ***Sex*** | sənaye müəssisəsinin, istehsal prosesinin müəyyən sahəsi ilə məşğul olan şöbəsi |
| | ***Səadət*** | həyatda ən yüksək məmnunluq hissi |
| | ***Səlahiyyətli*** | səlahiyyət verilmiş, hər hansı bir səlahiyyəti, hüququ olan |
| | ***Səmərəli*** | səmərə verən, yaxşı nəticə verən, faydalı, xeyirli |
| | ***Sərvət*** | var, dövlət |
| | ***Səs aparatı*** | cihaz, qurğu |
| | ***Səsli*** | səs-küylü |
| | ***Sıyrılmaq*** | sıyrılmaq, dərisi qopmuş |
| | ***Silsilə*** | bir-birinə birləşərək sıra təşkil edən şey |
| | ***Sim*** | simli musiqi alətlərinə çəkilən və tərpəndikdə səs verən elastik tel |
| | ***Simfoniya*** | orkestr üçün yazılmış bir-birindən sürət və ahənginə görə fərqlənən, adətən 3-4 hissəli böyük musiqi əsəri |
| | ***Simvol*** | hər hansı bir anlayışın, ideyanın şərti əlamətini ifadə edən işarə, rəmz |
| | ***Sinifli*** | siniflərə bölünmüş |
| | ***Sitat*** | olduğu kimi, hərfi-hərfinə bir mətndən götürülmüş yazı |
| | ***Solmaq*** | rəngi qaçmış, parlaqlığı qaçmış |
| | ***Sonata*** | xarakterik və tempi etibarilə adətən üç və ya dörd hissədən ibarət instrumental musiqi əsəri |
| | ***Sonsuz*** | sonu, nəhayəti, axırı olmayan; hədsiz, bitməz-tükənməz |
| | ***Süjet*** | ədəbiyyatda: mövzu, məzmun |
| | ***Süpürləmək*** | birdən üstünə atılıb əlləri ilə bərk-bərk yapışmaq, tutub yıxmaq |
| Ş | ***Şaqqanaq çəkmək*** | bərkdən gülmək |
| | ***Şəfəq*** | gün çıxmadan və ya batarkən göydə görünən qızartı |
| | ***Şəfqət*** | rəhm, mərhəmət, yazığı gəlmə |
| | ***Şəxsi*** | bir şəxsə, adama məxsus olan |

Çap üçün deyil

| | | |
|---|---|---|
| Ş | ***Şərait*** | bir şeyin həyata keçməsi üçün lazım olan şərtlərin məcmusu; vəziyyət |
| | ***Şüa*** | günəşdən və başqa bir işıq mənbəyindən çıxan işıq telləri |
| | ***Şütümək*** | bərk qaçmaq, sürətlə getmək, bərk sürüb getmək, ötüb keçmək |
| | ***Şüur*** | dərrakə, anlaq, düşünmə |
| T | ***Tablo*** | şəkil, rəsm, iri şəkil |
| | ***Taxt*** | söykənəcəyi olmayan enli divan |
| | ***Taraz*** | düz, dümdüz, bərabər, eyni bərabərlikdə, eyni vəzndə |
| | ***Tayfa*** | xalq, qohum; qəbilə |
| | ***Təbəə*** | bir dövlətə tabe olan, onun vətəndaşı olan əhali, adam |
| | ***Təbəssüm*** | gülümsəmə |
| | ***Tədqiqat*** | tədqiq etmək, bir şeyi və ya onun xüsusiyyətlərini öyrənmək |
| | ***Tədricən*** | yavaş-yavaş, az-az |
| | ***Təxəllüs*** | adətən yazıçıların, rəssamların və b. işlətdikləri qondarma ad |
| | ***Təxəyyül*** | bir adamı və ya bir şeyi zehnində, xəyalında təsəvvürə gətirmə, canlandırma |
| | ***Təklif*** | qəbul edilmək üçün irəli sürülən fikir |
| | ***Tələffüz*** | bir hərfi və ya sözü, kəlməni söyləmə xüsusiyyəti, tərzi |
| | ***Tənha*** | tək, yalnız, yalqız |
| | ***Tənhalıq*** | təklik, yalqızlıq, kimsəsizlik |
| | ***Tənzimləmək*** | tənzim etmək, nizama salmaq, qaydaya salmaq |
| | ***Tərənnüm*** | gözəl səslə yavaşdan oxuma |
| | ***Tərz*** | üsul, qayda |
| | ***Təsəvvür*** | xəyala gətirmə |
| | ***Təşrih*** | bədəni müəyyən üsulla kəsib əməliyyat aparma |
| | ***Təzahür*** | üzə çıxma, özünü göstərmə |
| | ***Tikmə*** | parça üzərində rəngbərəng saplarla müxtəlif naxışlar salmaqdan ibarət xalq sənəti |

Çap üçün deyil

| | | |
|---|---|---|
| U | ***Uçurum*** | çox sərt, dik və dərin yamac; yarğan, sıldırım |
| | ***Uyğunlaşmaq*** | uyğun hala gəlmək, vərdiş etmək |
| Ü | ***Ümidsizlik*** | heç bir ümid olmadığı hal |
| | ***Ünsiyyət*** | qarşılıqlı münasibət, əlaqə, yaxınlıq, ülfət |
| | ***Üslub*** | yazıçının, rəssamın və b. yaradıcılığında özünü göstərən əsas ideya-bədii xüsusiyyətlərin, fərqlənmə əlamətlərinin vəhdəti |
| | ***Üzüntü*** | adamı üzən qəm, kədər; zəiflik, yorğunluq |
| V | ***Vadi*** | iki dağ arasında böyük, uzun çuxur, düzən |
| | ***Vahid*** | bir, tək, yeganə |
| | ***Vahimə*** | qorxu, dəhşət |
| | ***Varlıq*** | olma, var olma, mövcud olma |
| | ***Vəhdət*** | birlik, bütövlük, bölünməzlik |
| | ***Vəhşi*** | ibtidai halda olma, ibtidai |
| | ***Vəsf*** | bir şəxsin və ya bir şeyin malik olduğu sifət, keyfiyyət, hal; tərif, hüsn, mədh |
| Y | ***Yad*** | qohum olmayan, yabançı |
| | ***Yaşıd*** | bir başqası ilə bir yaşda olan |
| | ***Yazı*** | yazmaq üçün tətbiq edilən qrafik işarələr sistemi |
| | ***Yetirmək*** | bir şeyi, yaxud bir sözü başqa bir kəsə və ya yerə hər hansı bir vasitə ilə çatdırmaq |
| Z | ***Zaman*** | vaxt, müddət |
| | ***Zənbil*** | içinə şey qoymaq üçün küləşdən, qarğıdan, çubuqdan və s.-dən hörülmüş qab |
| | ***Zəka*** | nəyi isə tez anlama, tez dərk etmə, qavrama qabiliyyəti |
| | ***Zirvə*** | dağın ən yüksək nöqtəsi |
| | ***Zolaq*** | bir endə olan uzun forma, bir şeyin bir endə olan dar, uzun parçası; enli xətt; qurşaq, zona, sahə |

Çap üçün deyil

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. A.Axundov. Ümumi dilçilik. Bakı, "Şərq-Qərb", 2006.
2. "Ailəm" jurnalı, 2008–2009.
3. A.Qurbanov. Ümumi dilçilik, 2 cilddə, Bakı, "Elm", 2011.
4. Atalar sözü. Bakı, "Yazıçı", 2010.
5. Ayna uşaq ensiklopediyası, 2004.
6. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. Bakı, "Şərq-Qərb", 2006.
7. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, "Şərq-Qərb", 2013.
8. Azərbaycan dilinin sinonimlər lüğəti. Bakı, "Yazıçı", 1990.
9. Azərbaycan Respublikasının Milli Atlası. Bakı, 2014.
10. "Füyuzat" jurnalı, 2009–2012.
11. H.Məmmədquluzadə. Cəlil Məmmədquluzadə haqqında xatirələrim. Bakı, "Azərnəşr", 1967.
12. "İşıq" jurnalı, 2012.
13. Q.Kazımov. Müasir Azərbaycan dili. Bakı, "Elm və təhsil", 2010.
14. Q.İlkin. Bakı və bakılılar. Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2006.
15. M.F.Axundzadə. Əsərləri. Bakı, "Şərq-Qərb", 2005.
16. "Molla Nəsrəddin" jurnalı. Bakı, "Elm", 1986.
17. M.Səməd. Yaşıdlarımızın yaddaşı. Bakı, 2003.
18. N.Axundova. "Zamanın işığında canlanan portret – Vəli Axundov". Bakı, "Şərq-Qərb", 2016.
19. Ş.Nəzirli. Qoridən gələn qatar. Bakı, "Şərq-Qərb", 2011.
20. V.Məhərrəmov. Hər addım uğrunda. Bakı, "Qanun", 2013.
21. V.Quliyev. Məhəbbət çiçəyi. Bakı, "Şuşa", 2016.
22. V.Quliyev. Şuşa nəğmələri. Bakı, "Şuşa", 2001.
23. V.Əliyev. Gəmiqaya abidələri. Bakı, "Əbilov, Zeynalov və oğulları", 2005.
24. Y.Mahmudov, C.Mustafayev. Şuşa–Pənahabad. Bakı, "Təhsil", 2012.
25. https://dogayakacis.com/2014/09/15/vahsi-cocuklar-feral-childs/
26. http://barrigamendinha.sapo.pt/tag/animais
27. doskado.ru/blog/2013-08-21-11199-987.


Çap üçün deyil